RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 183 (9928) 30 avqust 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Müstəqilliyin təntənəsi



Azərbaycan xalqının müstəqillik mücadiləsində baş verən bir sıra hadisələr tariximizin şərəfli səhifələridir. Bunların arasında Naxçıvan Ali Sovetinin 17 noyabr 1990-cı il tarixli qərarları ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının bayrağı kimi təsbit olunmasını, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılmasını, həmçinin SSRİ-nin saxlanılması ilə bağlı referendumun Naxçıvanda boykot edilməsini xüsusi qeyd etmək olar. Ulu Öndər Heydər Əliyevin siyasi liderliyi ilə reallaşan bu tarixi hadisələr o zaman xalqımızın milli müstəqillik mücadiləsini yeni keyfiyyət mərhələsinə yüksəltmiş, bu mübarizəyə qoşulan vətəndaşlarımızı daha da ruhlandırmış, bütövlükdə cəmiyyətimizdə müstəqillik ideyasının daha da güclənməsinə səbəb olmuşdu.

4

# Beynəlxalq miqyasda böyük nüfuza malik regional güc mərkəzi



Dövlətimizin başçısının şərhinə görə, Vaşinqtonda imzalanan sənədin əhəmiyyəti ondan ibarətdir ki, hər iki tərəf bir-birinin ərazi bütövlüyünü tanıyır və gələcək təmaslarını beynəlxalq hüququn bu fundamental tezisi əsasında planlaşdıracaq: "Əgər onlar bizim ərazi bütövlüyümüzü tanımaqdan imtina etsələr, biz də onların ərazi bütövlüyünü tanımaqdan imtina edəcəyik. Burada kim qazanacaq, kim uduzacaq? Məncə, bu, ritorik sualdır. Ona görə hesab edirəm ki, Ermənistanın istənilən gələcək hökumətində kifayət qədər müdriklik, ağlabatan yanaşma olacaq ki, Vaşinqtonda razılaşdığımızı şübhə altına almasın. Bir daha qeyd edirəm ki, bu, iki dövlət arasında razılaşmadır. Bu, Paşinyan ilə mənim razılaşmamız deyil".

Azərbaycan Prezidenti söhbət zamanı bir daha vurğuladı ki, biz işğal edən ölkə deyilik, biz əraziləri azad edən insanlarıq və ölkəyik: "Bizim işimiz bundan ibarət idi və bizim müharibə də ədalətli idi. Müharibəmiz azadlıq müharibəsi idi. Müharibəni öz torpaqlarımızda, ədalətin bərpası naminə aparmışıq".

Müsahibənin Azərbaycanın körfəz ölkələri ilə strateji tərəfdaşlıq məsələləri ilə bağlı məqamları da böyük maraq cəlb edir. Azərbaycan Prezidenti xatırlatdı ki, BƏƏ-nin ADNOC şirkəti və digər investorlar Azərbaycanın enerji layihələrində fəal iştirak edirlər. Bu, təkcə iqtisadi fayda deyil, həm də siyasi müttəfiqlik deməkdir. Ərəb dünyasına verilən əsas mesajlardan biri Azərbaycanın bu ölkələrlə iqtisadi tərəfdaş olmaqla yanaşı, geosiyasi müttəfiq ola bilməsinin də mümkünlüyü idi. "Hazırda biz geniş əməkdaşlıq portfeli üzərində işin həqiqətən fəal mərhələsindəyik. Siyasi əlaqələr mükəmməldir. Biz əsas diqqəti enerji və digər sahələrdə - mehmanxana işi, turizm, kənd təsərrüfatında praktiki investisiya layihələrinə yönəldirik. Beləliklə, bir çox layihələr reallaşma mərhələsindədir. Məsələn, Səudiyyə Ərəbistanının aparıcı şirkətlərindən birini biz Xəzər sahilində suyun duzsuzlaşdırılması zavodunun inşasında tərəfdaş kimi seçmişik. Bu, kənd təsərrüfatı, eləcə də insanlar üçün çoxlu imkanlar yaradacaq. Bu, bizim xarici siyasət gündəliyimizin böyük bir hissəsidir. Deyərdim ki, körfəz ölkələri ilə əməkdaşlıq xarici siyasətimizin başlıca prioritetlərindən biridir", - dövlətimizin başçısı qeyd etdi.

5

## Tarixi zəfərləri olan türk milləti



1919-cu il mayın 19-da Mustafa Kamal Paşa böyük əzm və qətiyyətlə Samsuna çıxdı, qısa zaman kəsiyində onun öndərliyi altında türk milləti Vətənin azadlığı uğrunda yenidən savaşa başladı. Həmin ilin dekabrında Ankaraya gələn Mustafa Kamal Paşa bütün səylərini və qüvvələrini cəmləşdirərək 1920-ci il aprelin 23-də Türkiyə Böyük Millət Məclisini (TBMM) qurdu. Beləliklə, bütün millətin idarəçiliyi xalqın iradəsinə tabe edildi. Həm də Ankara Qurtuluş hərəkatının mərkəzi halına gəldi. İlk uğurlar Şərq cəbhəsində Rusiyanın və Qərb dövlətlərinin xeyli miqdarda silah-sursatla təchiz etmiş olduğu 150-200 minlik nizami erməni-daşnak qüvvələrinə qarşı qanlı savaşda qazanıldı. Sonra Qərb cəbhəsində müzəffər türk ordusunun yunan qoşunlarına qarşı başladığı Birinci və İkinci İnönü savaşları düşmənə vurulmuş sarsıdıcı zərbələrlə sonuclandı.

Müttəfiq qüvvələrdən yenidən ciddi dəstək alan yunan ordusu öz hücumlarını amansızlıqla davam etdirdi. Bu zaman Kamal Paşa doğma yurdu uğrunda ölüm-dirim savaşına girəcək ordusuna aşağıdakı tarixi əmrini verdi: "Xətti müdafiə yoxdur, səthi müdafiə vardır. Bu səth, bütün vətəndir. Vətənin hər qarış torpağı vətəndaşın qanı ilə islanmadıqca tərk olunamaz". Yenilməz türk ordusu dərhal bu əmrin icrasına başladı.

Yuxunun və dincəlməyin nə olduğunu düşünməyən türk əsgəri 1921-ci il avqustun 23-dən sentyabrın 12-dək fasiləsiz davam edən qanlı Sakarya savaşını qazandı.

4

## Azərbaycan və Ermənistanla imzalanmış sənədlər Dövlət Departamentinin saytında dərc edilib

**Amerika Birləşmiş Ştatları Ermənistan və Azərbaycanla imzalanmış sənədləri, eləcə də Prezident Trampın avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla birgə görüşünün yekun sənədini Dövlət Departamentinin saytında dərc edib.**




AZƏRTAC-ın Dövlət Departamentinə istinadən verdiyi məlumata görə, sənədlərə Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərindəki görüşünün yekunlarına dair Birgə Bəyannamə, Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması üçün Strateji İşçi Qrupun yaradılması ilə bağlı Amerika Birləşmiş Ştatları Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında Anlaşma Memorandumu və Ermənistanla imzalanmış anlaşma memorandumları daxildir.

Azərbaycana aid sənədlərlə aşağıdakı linklər vasitəsilə tanış olmaq mümkündür.

**https://www.state.gov/wp-content/uploads/2025/08/2025JointDeclaration.AzerbaijanArmenia.pdf**
**https://www.state.gov/wp-content/uploads/2025/08/2025MOUAzerbaijan.pdf**

## Türk Dövlətləri Təşkilatı qlobal iştirakçılardan biri olacaq

### Prezident İlham Əliyevin qurumun gələcəyi ilə bağlı dediyi fikirlər bu təşkilatın əsl məramının ifadəsidir



TDT-nin inkişafında Azərbaycanın rolu böyükdür. Bu təşkilat Naxçıvanda təsis olunub və ötən müddətdə böyük inkişaf yolu keçərək əhəmiyyətli beynəlxalq təşkilata çevrilib. TDT-nin güclənməsində Azərbaycan və Türkiyə arasında münasibətlərin gündən-günə möhkəmlənməsinin böyük əhəmiyyəti var. 44 günlük Vətən müharibəsində Türkiyənin ölkəmizə verdiyi mənəvi dəstək türk dünyasının birləşməsi üçün bir mesaj idi. 2021-ci ildə Şuşada iki ölkənin dövlət başçılarının imzaladığı müttəfiqlik haqqında bəyannamə ölkələrimiz arasında hərtərəfli əməkdaşlığı özündə ehtiva etməklə yanaşı, TDT-nin inkişafına da yeni bir impuls verdi. Türkiyə NATO-nun üzvüdür və bu hərbi blokda ikinci ən böyük orduya malik ölkədir.

5



# Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında

# ANLAŞMA MEMORANDUMU

Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatlarının Hökuməti (bundan sonra - "İştirakçılar") aşağıdakı razılaşmaları əldə ediblər:

**I. Məqsəd**

Bu Anlaşma Memorandumunun (bundan sonra - "Memorandum") məqsədi İştirakçılar arasında strateji münasibətlərin möhkəmlənməsinə yönəlmiş Strateji Tərəfdaşlıq Xartiyasının altı ay müddətində hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılmasıdır.

İştirakçılar Strateji İşçi Qrupunda aşağıdakı üç sahəyə diqqət yönəltmək niyyətindədirlər:

Enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar;

Süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayələr;

Müdafiə məhsullarının satışı və terrorizmə qarşı mübarizə daxil olmaqla təhlükəsizlik sahəsində əməkdaşlıq.

**II. Əməkdaşlıq sahələri**

İştirakçılar aşağıdakılar daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, bir sıra sahələrdə əməkdaşlıq etmək niyyətindədirlər:

Enerji sahəsində sərmayələrin və regional bağlantılar üzrə infrastrukturun genişləndirilməsi;

Müdafiə və terrorizmə qarşı mübarizə sahəsində daha möhkəm əməkdaşlığın qurulması;

Regional iqtisadi və ticarət əməkdaşlığının inkişaf etdirilməsi;

Süni intellekt üzrə tərəfdaşlıqların və rəqəmsal infrastruktur sahəsində sərmayələrin inkişaf etdirilməsi.

**III. Ümumi müddəalar**

1. **Müddət:** Bu Memorandum İştirakçılar tərəfindən imzalandığı tarixdən qüvvəyə minir və bir il müddətində qüvvədə qalır. Memorandum İştirakçıların qarşılıqlı yazılı razılığı ilə uzadıla bilər. Hər bir İştirakçı istənilən vaxt bu Memorandumda iştirakını dayandıra bilər. İştirakı dayandıran tərəf digər İştirakçıya diplomatik kanallar vasitəsilə altmış (60) gün əvvəlcədən yazılı qaydada bildiriş verməlidir.

2. **Layihələrin davam etmə müddəti:** İştirakçılar tərəfindən başqa qərar verilmədiyi təqdirdə, bu Memoranduma xitam verilməsi iki İştirakçı arasında bu Memorandum çərçivəsində artıq başlanmış və tamamlanmamış layihələrə və fəaliyyətlərə təsir göstərmir.

3. **Dəyişikliklər:** İştirakçılar qarşılıqlı yazılı qərarla bu Memorandumu dəyişdirə bilərlər.

4. **Memorandumun təsiri:** Bu Memorandum beynəlxalq hüquq və ya daxili qanun üzrə heç bir hüquq və öhdəlik yaratmır. İştirakçılar bu Memorandumun maliyyə öhdəliyi daşımadığını xüsusi olaraq qəbul edirlər. İştirakçılar öz əlahiddə və unikal missiya və mandatlarını, məsuliyyət və hesabatlılıqlarını qoruyub saxlamaq niyyətindədirlər. Bu Memorandum çərçivəsində İştirakçılar arasında əməkdaşlığın tərəfdaşlıq və ya digər hüquqi şəxs və ya qurum kimi təfsir edilməsi nəzərdə tutulmur. Hər bir İştirakçının bu Memorandumla bağlı çəkdiyi bütün xərcləri özü tərəfindən qarşılaması gözlənilir. İştirakçılar bu Memorandumu İştirakçılar arasında bu Memorandum imzalanmazdan əvvəl və ya sonra bağlanmış razılaşmalara xələl gətirmədən icra etmək niyyətindədirlər. Bu Memorandumda heç nəyin eksklüziv işçi münasibəti kimi təfsir edilməsi nəzərdə tutulmur.

5. Vaşinqton şəhərində 8 avqust 2025-ci il tarixində ingilis dilində iki orijinal nüsxədə imzalanıb.

**Azərbaycan Respublikası Hökuməti adından**

**Amerika Birləşmiş Ştatları Hökuməti adından**

# Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2007-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1995-2006-cı illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2025-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2025-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2025-ci il*

# "Qarabağ" futbol klubuna maliyyə dəstəyi göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. UEFA Çempionlar Liqasının liqa mərhələsinə vəsiqə qazanması ilə əlaqədar Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Qarabağ" futbol klubuna 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2025-ci il*

# O.R.Hüseynzadəyə şiddətli töhmət elan edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Orxan Rüfət oğlu Hüseynzadəyə işində yol verdiyi ciddi nöqsanlara görə şiddətli töhmət elan edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2025-ci il*

# Heydər Əliyev Mərkəzində Çin dili kurslarının iştirakçılarına sertifikatlar təqdim olunub

**Heydər Əliyev Mərkəzində distant formada keçirilən növbəti Çin dili kurslarının birinci mərhələsini uğurla başa vuran 20 tələbəyə sertifikatlar təqdim olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.



Qeyd edək ki, Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə 2019-cu ildən Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan Dillər Universitetinin nəzdindəki Konfutsi İnstitutunun və Pekin Xarici Dillər Universitetinin birgə tərəfdaşlığı ilə UNEC-də distant Çin dili kursları təşkil olunur. Üçüncü qəbul üzrə tədris UNEC-də 2024-cü ilin dekabrından başlayıb.

Sertifikatların təqdim olunması mərasimində çıxış edən Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov bildirib ki, 2019-cu ildə Heydər Əliyev Fondunun təşəbbüsü və Leyla Əliyevanın rəhbərliyi ilə başlanılan distant Çin dili kursları qısa müddətdə böyük marağa səbəb olub. O deyib ki, müraciətlərin sayı hər mərhələdə dəfələrlə artıb. Rektor vurğulayıb ki, kursların distant formada keçirilməsi həm ölkə daxilində, həm də xaricdə yaşayan azərbaycanlılar üçün geniş imkanlar açır.



Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla çıxışında bildirib ki, qədim zamanlardan Çindən Qərbə doğru gedən karvanlar təkcə ipək deyil, mədəniyyət, ədəbiyyat və sənət də aparırdılar. Onun sözlərinə görə, Azərbaycan da bu mədəni mübadilənin bir parçası olub, buradan da Çinə ədəbi və mədəni nümunələr gedib çıxıb. Bu səbəbdən dünya ədəbiyyatına baxanda Şərq və Qərb ənənələrinin qarışıq, zəngin mənzərəsi ilə qarşılaşırıq. Rektor vurğulayıb ki, Çin mədəniyyəti, dili, ədəbiyyatı, Konfutsi və Lao Tszının yaratdıqları böyük fəlsəfi irs tələbələr üçün öyrənilməli dəyərlərdir.

Tədbirdə çıxış edən kursun məzunları Turanə Kamalova və Aydan Qurbanova diqqətə çatdırıblar ki, distant Çin dili kursları onların həyatında yeni imkanlar açıb və gələcək fəaliyyətlərinə müsbət təsir göstərib. Qeyd ediblər ki, bu proqram sayəsində həm şəxsi inkişaf, həm də peşəkar fəaliyyət üçün vacib biliklər qazanıblar.

Çıxışlarda həmçinin bildirilib ki, dərslərə Azərbaycanın müxtəlif regionlarından, eləcə də Çində və digər xarici ölkələrdə yaşayan azərbaycanlılar da qoşula bilirlər. Şəhid ailələri, qazilər və onların ailə üzvləri, eləcə də sosial cəhətdən həssas əhali qruplarından olan şəxslərin təhsil haqları Heydər Əliyev Fondu tərəfindən qarşılanır. Tədris müxtəlif yaş qruplarını əhatə edir. İndiyədək ən gənc tələbənin 14 yaşı, ən yaşlı tələbənin isə 74 yaşı olub.

Heydər Əliyev Mərkəzində keçirilən tədbir zamanı həm də kurs iştirakçılarının ifalarında Çin mədəniyyətini tərənnüm edən bədii proqram təqdim olunub.











# Nazir Vilayət Eyvazov Xaçmazda vətəndaşları qəbul edib, sıra baxışı keçirib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov avqustun 28-də və 29-da Xaçmaz Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**






Nazir əvvəlcə Xaçmaz rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra rayon polis şöbəsinin inzibati binasında Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, Xızı və digər rayonlardan gələn 409 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. Vətən müharibəsinin 27 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 335 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*"Azərbaycan"*

# Baş prokuror paytaxtın Nəsimi rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Avqustun 29-da baş prokuror Kamran Əliyev Bakı şəhəri Nəsimi Rayon Prokurorluğunun inzibati binasında Nəsimi rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 38 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə



dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

# Nazir Anar Əliyev İsmayıllıda vətəndaşlarla görüşüb

**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev İsmayıllı rayonunda İsmayıllı və Şamaxı rayonlarının sakinlərini qəbul edib.**

Qəbuldan əvvəl A.Əliyev və İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Qəbul zamanı vətəndaşlar məşğulluq, əlillik, ünvanlı sosial yardım və s. məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlər sırasında müharibə iştirakçıları da olub.

Hər bir müraciət fərdi qaydada araşdırılıb və nəticəsinə uyğun tədbirlər görülüb.

Sorğu xarakterli müraciətlərlə bağlı qanunvericiliyə uyğun izahatlar verilib.



Vətəndaşlar müraciətləri əsasında aktiv məşğulluq proqramlarına, habelə özünüməşğulluq proqramına cəlb edilmələri üçün qeydiyyata alınıblar.

# İsmayıllıda özünüməşğulluq proqramı üzrə qurulmuş təsərrüfatlara və günərzi qayğı mərkəzinə baxış olub

**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev və İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov özünüməşğulluq proqramı çərçivəsində rayon sakinləri Həsənova Samirə Səfər qızı və Talıblı Xatirə Arif qızı üçün qurulmuş kiçik təsərrüfatlara baxış keçiriblər.**

Özünüməşğulluq proqramı üzrə aktivlərlə təmin edilən S.Həsənova qadın gözəllik salonunu yaradaraq bu sahədə kiçik biznesini qurub. X.Talıblı isə proqramın dəstəyi ilə dərzi sexini qurduqdan sonra onu daha da genişləndirib və moda evi yaradıb. Burada nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Göyçay Peşə Hazırlığı Mərkəzi ilə əməkdaşlıq əsasında dərzilik üzrə peşə kursu da təşkil edilib.

Hər iki proqram iştirakçısı işsiz və işaxtaran şəxslərin kiçik biznesə çıxışına imkan yaradılması, öz təsərrüfatlarını yaratmaları üçün göstərilən dəstəyə görə



dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər. Qeyd edək ki, ötən dövrdə özünüməşğulluq proqramı çərçivəsində İsmayıllı rayonunda 1631 şəxs üçün kiçik təsərrüfatlar qurulub.

Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sifarişi ilə icra edilən layihə əsasında İsmayıllı rayonunda yaradılmış günərzi qayğı mərkəzinə də baxış olub.

Burada sosial işçi, pedaqoq, psixoloq və digər mütəxəssislər tərəfindən əlilliyi olan və digər həssas qruplara aid uşaqların qavrayış, emosional, fiziki inkişafı, ilkin yazı və oxuma bacarıqlarına yiyələnmələri üçün işlər aparılır.

# Beynəlxalq təşkilatlar itkin düşmüş 4 minə yaxın soydaşımızla bağlı səylərini artırmalıdır

**30 Avqust - Beynəlxalq Məcburi Yoxaçıxma Qurbanları (itkin düşmüş şəxslər) Günü dünyada minlərlə itkin düşmüş, müharibə və hərbi əməliyyatlar zamanı həlak olmuş naməlum şəxslərin, tutularaq gizli yerlərdə saxlanılan və ya gizli şəkildə öldürülmüş şəxslərin xatirəsini yad etmək məqsədilə BMT-nin Baş Assambleyası tərəfindən təsis edilib. Dünyanın müxtəlif bölgələrində baş verən müharibələr itkin düşmüş şəxslərin sayını günbəgün artırmaqdadır.**

AZƏRTAC xəbər verir ki, bu sözlər Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili Səbinə Əliyevanın (ombudsman) 30 Avqust - Beynəlxalq Məcburi Yoxaçıxma Qurbanları Günü ilə əlaqədar müraciətində əksini tapıb.

Müraciətdə həmçinin qeyd olunur ki, uzun illər işğala məruz qalan ölkə olaraq itkin düşmüş şəxslərlə bağlı problem Azərbaycandan da yan keçməyib. Ermənistanın ötən 30 il ərzində Azərbaycana qarşı həyata keçirmiş olduğu hərbi təcavüzü nəticəsində minlərlə soydaşımız itkin düşüb və bu günədək taleləri haqqında hər hansı bir məlumat yoxdur.

Rəsmi məlumata əsasən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş, əsir-girov götürülmüş 4000-dək şəxs vardır ki, bunlardan da 71-i uşaq, 284-ü qadın, 316-sı isə ahıl şəxslərdir.

Beynəlxalq humanitar hüququn normaları iştirakçı dövlətlərin üzərinə itkin düşmüş şəxslər barədə məlumatların qarşılıqlı olaraq verilməsi ilə bağlı öhdəliklər müəyyən edir. Bununla yanaşı, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 1974-cü il 6 noyabr tarixli Qətnaməsində münaqişə tərəflərinə itkin düşmüş şəxslər barədə məlumatların qarşılıqlı olaraq verilməsi tövsiyə edilib.

"İtkin düşmüş azərbaycanlıların taleyi barədə problem dəfələrlə tərəfimizdən əlaqədar beynəlxalq təşkilatların diqqətinə çatdırılıb, Cenevrə Konvensiyalarının tələblərinə müvafiq olaraq itkin düşmüş soydaşlarımız barədə məlumatların Ermənistan tərəfindən təqdim olunması tələb edilib.



Xüsusilə qeyd etmək istərdim ki, Azərbaycan dövləti tərəfindən 2002-ci ildən etibarən mütəmadi olaraq BMT-nin Baş Assambleyasında itkin düşmüş şəxslərlə bağlı qətnamə irəli sürülür. Buna baxmayaraq, itkin düşmüş soydaşlarımızın taleyinə aydınlıq gətirilməsi istiqamətində indiyədək hər hansı əməli addımlar atılmayıb.

İkinci Qarabağ müharibəsindən və 2023-cü ilin sentyabr ayında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən sonrakı dövrdə Azərbaycan dövləti tərəfindən aparılan sistemli axtarış tədbirləri nəticəsində, eləcə də görülən tikinti-quruculuq işləri, habelə hadisə şahidlərinin ifadələrinə əsasən işğaldan azad olunmuş ərazilərdə həyata keçirilmiş qazıntı işləri zamanı bir sıra kütləvi məzarlıqlar aşkarlanıb, tapılmış insan qalıqlarının eyniləşdirilməsi istiqamətində Azərbaycanın müvafiq dövlət qurumlarının gördüyü tədbirlər nəticəsində Birinci Qarabağ müharibəsində itkin düşmüş bəzi şəxslərin taleyinə aydınlıq gətirilib. Təəssüflər olsun ki, Ermənistan beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini yerinə yetirməyərək, digər kütləvi məzarlıqların dəqiq yerləri barədə məlumatları da ölkəmizə təqdim etmir, nəticədə uzun illərdir öz doğmalarından xəbər ala bilməyən ailə üzvləri iztirablar çəkməkdə davam edir.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili olaraq, müharibə və digər səbəblərlə əlaqədar itkin düşmüş şəxslərin xatirəsini dərin ehtiramla yad edir və bir daha vurğulamaq istəyirəm ki, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar itkin düşmüş dörd minə yaxın soydaşımızın taleyinə aydınlıq gətirilməsi istiqamətində öz səylərini artırmalı, Ermənistan isə beynəlxalq humanitar hüququn normalarına əsasən üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir", - deyə ombudsmanın müraciətində vurğulanıb.

# Ukraynanın ölkəmizdəki səfiri və ukraynalı deputatlar Qəbələ Uşaq Reabilitasiya Mərkəzində olublar

**Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuri Qusev və ölkəmizdə səfərdə olan ukraynalı deputatlar Yuriy Kisiel və İqor Nehulevski Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində olublar.**

Onlar mərkəzdə reabilitasiya kursu keçən 30 nəfər ukraynalı uşaqla görüşüb, onların reabilitasiya prosesi ilə yaxından tanış olublar.

Y.Qusev burada Ukraynadan olan uşaqlara göstərilən xüsusi diqqət və qayğıdan, onların reabilitasiyası üçün aparılan işlərdən məmnunluğunu ifadə edib.

Ukraynalı uşaqlara Qəbələ Uşaq Reabilitasiya Mərkəzində 10 günlük reabilitasiya proqramı çərçivəsində tibbi, sosial-psixoloji reabilitasiya xidmətləri göstərilir. Həmçinin onların tarixi və görməli yerlərə ekskursiyaları da təşkil olunur.

Bundan əvvəlki 8 qrupla birlikdə ümumilikdə



300-ə yaxın ukraynalı uşaq ölkəmizə gətirilərək reabilitasiya xidmətləri ilə təmin edilib.

# Şabranda keçirilən aksiyada 100 nəfərə yaxın donor könüllü qan verib

**Şabranda hemofiliya, talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkən xəstələrə yardım məqsədilə təşkil olunan aksiyada 100 nəfərə yaxın könüllü donordan qan götürülüb.**

AZƏRTAC xəbər verir ki, Şabran Rayon Mərkəzi Xəstəxanasında təşkil edilən qanvermə aksiyası Respublika Qan Bankı və Şabran Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə keçirilib.

Xüsusi tibb briqadasının həkim-hematoloqları rayon mərkəzi xəstəxanasının tibb heyəti ilə birgə donorları müayinə etdikdən sonra onlardan qan götürüblər.

Hemofiliya və talassemiya xəstələrinin müalicəsində qan komponentlərinin və preparatlarının istənilən vaxtda əlçatan olması üçün qanvermə aksiyalarının keçirilməsi böyük dəstəkdir.

18-65 yaşarası, çəkisi 50 kiloqramdan artıq, sağlam olan hər kəs qan donoru ola bilər. Kişilər hər 3 ayda, qadınlar isə hər 4 ayda bir dəfə donorluq edə bilərlər.

Humanitar aksiya çərçivəsində əldə edilən qan nümunələri Respublika Qan Bankına göndəriləcək və irsi qan xəstəliklərindən əziyyət çəkənlərin müalicəsində istifadə olunacaq.



# Müstəqilliyin təntənəsi

**Müstəqil dövlətə və öz taleyinə sahib olmaq bir xalq üçün ən böyük mənəvi və şirin nemətdir. Amma o da bəllidir ki, azadlığı qazanmaq nə qədər çətindirsə, onu qorumaq bir o qədər mürəkkəbdir. Bu enişli-yoxuşlu yol hər bir toplum üçün tarixi sınağa çevrilir. Azərbaycan xalqı müstəqilliyinə gedən yollarda çox çətinliklərdən keçib, şəhidlər verib. Digər keçmiş sovet respublikalarından fərqli olaraq, Azərbaycan öz müstəqilliyini qan bahasına bərpa edib.**

## Tariximizi şərəfləndirən hadisələr

Azərbaycan xalqının müstəqillik mücadiləsində baş verən bir sıra hadisələr tariximizin şərəfli səhifələridir. Bunların arasında Naxçıvan Ali Sovetinin 17 noyabr 1990-cı il tarixli qərarları ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının bayrağı kimi təsbit olunmasını, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılmasını, həmçinin, SSRİ-nin saxlanılması ilə bağlı referendumun Naxçıvanda boykot edilməsini xüsusi qeyd etmək olar. Ulu Öndər Heydər Əliyevin siyasi liderliyi ilə reallaşan bu tarixi hadisələr o zaman xalqımızın milli müstəqillik mücadiləsini yeni keyfiyyət mərhələsinə yüksəltmiş, bu mübarizəyə qoşulan vətəndaşlarımızı daha da ruhlandırmış, bütövlükdə cəmiyyətimizdə müstəqillik ideyasının daha da güclənməsinə səbəb olmuşdu.

Azərbaycan Ali Sovetinin 1991-ci il avqustun 30-da keçirilən növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamənin qəbul edilməsi də Heydər Əliyevin yeni mərhələyə yüksəltdiyi və uğrunda fədakarlıqla mübarizə apardığı ümummilli siyasi prosesin nəticəsi idi. Bəyannaməyə əsasən, Ali Sovet Azərbaycan xalqının ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək və digər prinsipləri rəhbər tutaraq Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu elan etdi.

1990-cı illərin əvvəllərində Azərbaycana rəhbərlik edənlərin müstəqillik ideyalarından uzaq olması nə qədər təbii görünsə də, özlərini milli azadlıq mücadiləsinin lideri hesab edənlərin də gələcəyə hesablanmış təkmil ideyaları yox idi. Beləliklə, 90-cı illərin əvvəllərində Azərbaycanda müstəqillik uğrunda mübarizə aparılsa da, bu prosesin əməli işlərlə, hüquqi aktlarla gücləndirilməsi və nəticəyönümlülüyü məhz xalqımızın dahi oğlu, görkəmli və təcrübəli siyasətçi Heydər Əliyevin cəsarəti və qətiyyəti sayəsində mümkün olmuşdu.

## Azərbaycanın müstəqilliyi Heydər Əliyevin fəaliyyətinin əsas qayəsi idi

Heydər Əliyev həmin dövrdə Naxçıvanda fəaliyyət göstərirdi. O dövrün təhlili göstərir ki, müstəqillik mövzusu və bu istiqamətdə gərəkən addımlar Heydər Əliyevin fəaliyyətinin başlıca leytmotivi idi. Xüsusən Azərbaycan Ali Sovetinin iclaslarında Heydər Əliyev kommunist partiyası hakimiyyətinin sonunun çatdığını, SSRİ-nin tezliklə dağılacağını və respublikalarda başlanan müstəqillik mübarizələrinin qalib gələcəyini bəyan edirdi, dövlət müstəqilliyinin qaçılmaz proses olduğunu deyirdi.

Ulu Öndərin lideri olduğu prosesin nəticəsi kimi 1991-ci il fevralın 5-də Azərbaycan parlamenti də respublikanın adının dəyişməsi və dövlət bayrağı haqqında qərar qəbul etdi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Azərbaycan Ali Sovetinin 7 mart 1991-ci il tarixli iclasında Heydər Əliyev Azərbaycanın müstəqilliyi ilə bağlı deyib: "Mən yeni ittifaqa nail olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Bu, bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır. O öz tarixini yenidən təhlil edir, yenidən qiymətləndirir, öz milli ənənələrini bərpa edir, milli köklərinə qayıdır. Respublikada aşağıdan, xalq kütlələri tərəfindən başlanmış milli dirçəliş, dövlət dirşəlişi hərəkatı inkişaf edir".

1991-ci il iyulun 19-da kommunist partiyasının sıralarını tərk edən Heydər Əliyev bununla bağlı SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına müraciətində bir daha yeni ittifaq müqaviləsinin əleyhinə çıxdığını bəyan etdi: "Mən mərkəz tərəfindən sırınan yeni ittifaq müqaviləsinin əleyhinə çıxmışam və çıxıram, hər hansı bir suveren dövlətin tərkibində bir neçə suveren dövlət və eləcə də bundan irəli gələn azadlıqlar, səlahiyyətlər və funksiyalar ola bilməz. Bütün müttəfiq respublikalara əsl siyasi, iqtisadi azadlıqlara, milli dövlət dirçəlişi üçün müstəqilliyə imkan vermək lazımdır".

O dövrün həqiqətlərindən biri də budur respublikaya rəhbərlik edənlər vəziyyəti düzgün qiymətləndirmək qabiliyyətindən uzaq idilər. Bunu onların 1991-ci ilin 19-21 avqust hadisələrində münasibətdə ortaya qoyduqları mövqe də təsdiq edir. Bu hadisədən sonra əksər müttəfiq respublikalar dövlət müstəqilliyini rəsmən bəyan edərək, müvafiq sənədlər qəbul etsələr də, Azərbaycanın o vaxtkı rəhbərliyi qorxaq mövqe nümayiş etdirirdi. Amma bu hadisədən sonra, 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. Bu proses bütün respublikaya sirayət etdiyindən A.Mütəllibov iqtidarı xalqın iradəsi qarşısında geri çəkilməli oldu. 1991-ci il avqustun 30-da isə Azərbaycan Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannaməni qəbul etdi.

## Müstəqilliyimiz əbədi və sarsılmazdır

1991-ci il oktyabrın 18-də isə Azərbaycan Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. 1991-ci il oktyabrın 19-da Azərbaycan Ali Sovetinin sessiyasına ünvanladığı müraciətdə bu hadisəni yüksək qiymətləndirən Heydər Əliyev yazırdı: "Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır".

Tarix sonrakı dövrdə Ulu Öndər Heydər Əliyevə həm də xilaskarlıq missiyasını həvalə etdi. 1993-cü ildə xalqımızın istək və arzusu ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev hələ kövrək olan müstəqilliyimizin yenidən itirilməsinin qarşısını aldı, onu əbədi, dönməz və sarsılmaz etdi. Prezident İlham Əliyevin qətiyyətli və müdrik siyasətinin nəticəsi olaraq müstəqilliyimizin təməlləri daha da möhkəmləndi. Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilən hər uğur, o cümlədən torpaqlarımızın işğaldan azad edilməsi, bütün ərazilərimiz üzərində milli suverenliyimizin təmin olunması həm də Azərbaycanın dövlət müstəqilliyinin təntənəsidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Tarixi zəfərləri olan türk milləti

**Tarix boyu dövlətsiz olmayan türk milləti dünya mədəniyyəti xəzinəsinə də əvəzsiz töhfələr bəxş etmişdir. Onlar maddi və mənəvi mədəniyyət sahəsində bir sıra kəşflərin və yeniliklərin müəllifləri olmuş və qazandıqları nailiyyətlər qonşu və uzaq xalqlara da ciddi təsir göstərmişdir. Orxon-Yenisey abidələrində minlərlə daşın və qaya parçasının üzərinə həkk edilmiş kitabələrdə bu barədə zəngin məlumatlar vardır. Daha zəngin məlumatlara isə Çin qaynaqlarında rast gəlinir.**



Bu gün islam dünyası da bu dinin səlib yürüşlərindən qorunub saxlanmasına görə türklərə, ilk növbədə Səlcuqlara və Osmanlılara borcludur. Məlumata görə, 1299-1913-cü illərdə Osmanlı imperatorluğunu məhv etmək üçün Qərb dünyasının dini, dünyəvi və hərbi xadimləri tərəfindən 100 plan irəli sürülmüş və son nəticədə bu da öz təsirini göstərmişdir. Birinci Dünya müharibəsinə 2,8 milyon əsgərlə girən Osmanlı ordusunun sıralarında müharibədən sonra 560 min əsgər qalmışdı. Təsadüfi deyil ki, türklər apardıqları müharibələr nəticəsində 50 milyondan çox şəhid vermişlər. Bunların arasında İstiqlal savaşı müstəsna əhəmiyyət kəsb edir.

1919-cu il mayın 19-da Mustafa Kamal Paşa böyük əzm və qətiyyətlə Samsuna çıxdı, qısa zaman kəsiyində onun öndərliyi altında türk milləti Vətənin azadlığı uğrunda yenidən savaşa başladı. Həmin ilin dekabrında Ankaraya gələn Mustafa Kamal Paşa bütün səylərini və qüvvələrini cəmləşdirərək 1920-ci il aprelin 23-də Türkiyə Böyük Millət Məclisini (TBMM) qurdu. Beləliklə, bütün millətin idarəçiliyi xalqın iradəsinə tabe edildi. Həm də Ankara Qurtuluş hərəkatının mərkəzi halına gəldi. İlk uğurlar Şərq cəbhəsində Rusiyanın və Qərb dövlətlərinin xeyli miqdarda silah-sursatla təchiz etmiş olduğu 150-200 minlik nizami erməni-daşnak qüvvələrinə qarşı qanlı savaşda qazanıldı. Sonra Qərb cəbhəsində müzəffər türk ordusunun yunan qoşunlarına qarşı başladığı Birinci və İkinci İnönü savaşları düşmənə vurulmuş sarsıdıcı zərbələrlə sonuclandı.

Müttəfiq qüvvələrdən yenidən ciddi dəstək alan yunan ordusu öz hücumlarını amansızlıqla davam etdirdi. Bu zaman Kamal Paşa doğma yurdu uğrunda ölüm-dirim savaşına girəcək ordusuna aşağıdakı tarixi əmrini verdi: "Xətti müdafiə yoxdur, səthi müdafiə vardır. Bu səth, bütün vətəndir. Vətənin hər qarış torpağı vətəndaşın qanı ilə islanmadıqca tərk olunamaz". Yenilməz türk ordusu dərhal bu əmrin icrasına başladı.

Yuxunun və dincəlməyin nə olduğunu düşünməyən türk əsgəri 1921-ci il avqustun 23-dən sentyabrın 12-dək fasiləsiz davam edən qanlı Sakarya savaşını qazandı. Bu savaş qalib türk ordusunun qəti olaraq müdafiə durumundan hücum vəziyyətinə keçdiyi önəmli döyüş kimi tarixə düşdü. Bu zəfəri layiqincə dəyərləndirən TBMM yenilməz komandan Mustafa Kamal Paşaya "Qazi" ünvanı və "Marşal" rütbəsi verdi.

Sakarya savaşından sonra düşmən qüvvələri geri çəkilərək əvvəlcədən hazırlamış olduqları güclü istehkamlarda mövqe tutdular. Bu cəbhə xətti Əskişəhr, Kutahya və Afyonun şərq səmtində yerləşirdi. Təpədən-dırnağadək silahlanmış düşmən uzun bir müdafiə savaşına hazırlaşırdı. Yunan ordusu Qərbi Anadolunu türk ordusuna qarşı müdafiə etməyi planlaşdırırdı. Hətta Afyonun cənub-qərbindəki bölgə birbirinin arxasında beş müdafiə xətti olaraq təşkil edilmişdi.

Belə bir şəraitdə türk ordusunun da gücləndirilməsi lazım gəlirdi. Komandanlıq qış düşənədək hücuma keçmək istəyirdi. Bu məqsədlə "Sad hərəkatı" adlı məxfi bir əməliyyat planı da hazırlanmışdı. Lakin hücum planı əvvəlcə bahar, sonra isə yay aylarına təxirə salındı. Qazi Mustafa Kamal Paşa deyirdi ki, "yarım hazırlıqla, yarım tədbirlə ediləcək hücum, heç hücum etməməkdən daha pisdir".

1922-ci ilin yayında bütün yurdda son dərəcə sürətli bir hazırlıq görülürdü. Millət evində-eşiyində, əlində nəyi vardısa ordusuna verir və qəti zəfəri gözləyirdi. Ağır və üzücü döyüşlərdən çıxmış piyada və topçuların döyüş sursatı tükənmək üzrə idi. Qərb cəbhəsinə göndərilən hərbi birliklərin oraya yetişməsi üçün xeyli vaxt tələb olunurdu. O vaxtlar bu bölgədə dəmir yolu yox idi. Əsgərlər piyada gedir, döyüş sursatları isə arabalarla, heyvanların belində daşınırdı. Bu vaxt minlərlə qutu sursatı, top və tüfəng müttəfiq dövlətlərin işğalı altında olan İstanbuldan gizli yollarla Anadoluya gətirilirdi.

Nəhayət iyunun 16-da Böyük hücum haqqında qərar qəbul edən Mustafa Kamal Paşa Baş qərargah rəisinə, milli müdafiə nazirinə və ordu komandanlarına hücum üçün gizlicə zəruri tədbirlərin görülməsi əmrini verdi. Əsas məqsəd düşmənə tez bir zamanda qətiyyətlə zərbə endirmək idi. Bu zaman yunan ordusu pulemyot, top, təyyarə, motorlu nəqliyyat vasitələri, döyüş sursatı və digər ehtiyaclar baxımından üstün vəziyyətdə idilər. Türk ordusunun əsas üstünlüyü isə qılıncların sayında, yəni süvari birliklərində idi. Bununla belə Rusiya, İtaliya və Fransadan satın alınan silahlarla, miqdarı artırılan və yeni qoyulan vergilərlə, pul yardımları ilə ordunun ehtiyacları təmin olunurdu. Yurd içində hərbi emalatxanalar gecə-gündüz çalışırdı. Pəncərə dəmirlərindən və dəmir yolu relslərindən süngü və xəncərlər hazırlanırdı.

Hərbi hazırlıqla yanaşı, düşmənin sayıqlığını azaltmaq məqsədilə hətta belə bir taktikaya da əl atılmışdı. İyulun 28-də ordu idman komandaları arasında təşkil edilmiş futbol yarışına tamaşa etmək bəhanəsilə bütün komandirlər Akşehirə dəvət olunmuşdular. Kamal Paşa onlara Böyük hücumun təfərrüatları barədə məlumat vermişdi. Sonra o, gizli surətdə Ankaraya dönərək hücum qərarını hökumətə bildirmişdi. Beləliklə, avqustun 6-da hücuma hazırlaşmaq haqqında orduya gizli əmr verilmişdi.

Bu arada Kamal Paşa son dəfə barış təşəbbüsü edərək daxili işlər nazirini Paris və Londona göndərmişdi. Lakin orada türk elçisini soyuq qarşılamışdılar.

Savaşın qaçılmaz olduğuna qəti əmin olan Kamal Paşa avqustun 18-nə keçən gecə gizli surətdə Ankaranı tərk etdi. O, avtomobillə Konya yolu ilə Qərb cəbhəsi qərargahının yerləşdiyi Akşehirə gəldi. Komandanlarla keçirilən qısa bir toplantıdan sonra avqustun 26-da sübh çağı hücuma başlamaq qərarı qəbul olundu. Avqustun 25-də Baş komandan və ordu generalları hücumun idarə ediləcəyi Kocatəpənin cənub-qərbindəki çadırlı qərargaha gəlmişdilər.

1922-ci il avqustun 26-da sübh tezdən saat 05-30-da döyüş başladı. Düşmən səngərləri bir-birinin ardınca ələ keçirilirdi. Qəfil hücum öz bəhrəsini verdi. Bazar günü, avqustun 27-də səhər tezdən türk ordusu bütün cəbhələrdə yenidən hücuma başladı və bu, əsasən süngü zərbələri və qeyri-adi səylər nəticəsində baş verdi. Afyon qurtuluşun şanlı və şərəfli müjdəcisi idi və Baş Komandan Qərargahı və Qərb Cəbhəsi Komandanlığı Qərargahı Afyona köçürüldü.

Qanlı savaş gedişində avqustun 27-də türk ordusu düşməni qabağına qataraq Sincanlı və Afyon düzənliklərinə endi. Dumlupınar-Uşak istiqamətində qaçan yunan qoşunları Aslihanlar bölgəsinə sıxışdırıldı. Türk birlikləri onların İzmirə qaçış yollarını kəsdilər. Nəticədə düşmənin beş diviziyası mühasirəyə düşdü.

Savaşın qanlı gedişi türk əsgər və zabitlərinin qəhrəmanlıq, mərdlik nümunələrilə doludur. Hücumun qızğın çağında polkovnik 57-ci diviziyanın komandiri Rəşad bəy ona həvalə edilmiş yüksəkliyi ilk cəhddə ələ keçirə bilmədi. Baş komandan onu telefona çağıraraq bildirmişdi ki, onun ləngiməsi digər birlikləri çətin duruma salır. Polkovnik cavabında: "Yarım saatdan sonra hədəflərə varacağız. Narahat olmayın, Paşam!" deyərək təkrar atəş xəttinə qaçaraq nəyin bahasına olursa-olsun bu yarım saat içində təpəni ələ keçirmək üçün diviziyanı yenidən hücuma qaldırmışdı. Lakin təpəni ələ keçirmək mümkün olmamışdı. Baş komandan yenidən ona telefon açır. Polkovnik dərhal növbətçi zabiti yanına çağıraraq ona bir kağız verərək tapşırır ki, bunu şəxsən Paşaya oxuyarsan, mən səngərdən ayrıla bilmərəm. Zabit telefonda gözləyən baş komandana belə cavab verir: "Rəşad bəy intihar etmişdir, Paşam. Sizə oxumaq üçün vidanaməni göndərdi: "Yarım saat içində bu mövqeni almaq üçün sizə söz verdiyim halda, sözümü yerinə yetirmədiyimə görə yaşaya bilmərəm".

Avqustun 30-da səhər tezdən bölgədə böyük bir meydan savaşı başladı. Mustafa Kamal Paşanın məharətlə idarə etdiyi bu savaşda bir gün ərzində yunan ordusunin böyük bir qismi məhv edildi, digər bir hissəsi isə əsir alındı. Mustafa Kamal Paşa işğaldan azad edilmiş Uşak şəhərində əsir alınmış yunan baş komandanı general Trikopislə hörmətlə, səmimi davrandı. Bu şanlı türk komandanının bəşəri hüquqlara, beynəlxalq normalara sayğı ilə yanaşmasını göstərirdi.

Avqustun 26-da Afyonda başlayan böyük hücum avqustun 30-da çərşənbə günü Dumlupınar döyüşündə düşmən qüvvələrini məğlub edən türk ordusunun qəti qələbəsi ilə başa çatdı. Bu zəfər türk millətinin istiqlal mübarizəsində dönüş nöqtəsidir. Avqustun 30-da düşmən üzərində mühüm qələbə qazanılsa da, onların qalıqlarının ölkə hüdudlarından tamamilə qovulub çıxarılması bir qədər sonra baş verdi. Anadoludakı yunan qüvvələrinin yarısı məhv edildi və ya əsir götürüldü, qalanları isə üç qrup halında geri çəkildi. Bunun qarşısında Qazi Mustafa Kamal Paşa Çalköydəki xaraba evin həyətində türk ordusuna yunan ordusunu təqib etmək üçün "Ordular, birinci hədəfiniz Aralıq dənizidir. İrəli!" əmrini verdi.

9 sentyabr 1922-ci ildə İzmir, 11 sentyabrda Bursa, 18 sentyabrda isə Qərbi Anadolu düşmən işğalından azad edildi. 11 oktyabr 1922-ci ildə imzalanan Mudanya atəşkəsi ilə Şərqi Trakya silahlı qarşıdurma olmadan yunan qoşunlarından təmizləndi. 24 iyul 1923-cü ildə imzalanan Lozanna müqaviləsi ilə Türkiyənin müstəqilliyi bütün dünyada tanındı.

1922-ci ildə Atatürkün komandanlığı altında qələbə ilə nəticələnən böyük hücumun xatirəsinə hər il avqustun 30-u Türkiyə və Şimali Kipr Türk Respublikasında milli bayram kimi qeyd olunur.

Türk ordusunun Qurtuluş savaşı zamanı işğalçı qüvvələrə son və həlledici zərbə vurmaq və onları Anadoludan çıxarmaq üçün həyata keçirdiyi ümumi hücum əməliyyatı "Böyük Hücum" adını almışdır. İşğal qüvvələri bir müddət sonra ölkəni tamamilə tərk etsə də, 30 avqust simvolik olaraq ölkə torpaqlarının geri alındığı gün kimi qəbul edilir.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider



## Beynəlxalq miqyasda böyük nüfuza malik regional güc mərkəzi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanının ərəb dünyasının ən nüfuzlu media platformalarından olan "Əl-Ərəbiyyə" telekanalına müsahibəsi son günlərin mühüm siyasi hadisəsinə çevrilərək yalnız regional çərçivədə deyil, həm də beynəlxalq aləmdə Azərbaycanın artan rolunu nümayiş etdirdi. Müsahibə təkcə Körfəz ölkələrinə deyil, həm də Avropa, ABŞ, türk dünyası və ümumiyyətlə, beynəlxalq ictimaiyyətə ünvanlanmış çoxşaxəli mesajlarla zəngin idi.**

Prezident İlham Əliyev Azərbaycanın iqtisadi inkişaf modelindən, enerji təhlükəsizliyindəki rolundan, cəmiyyətimizdəki dini və ictimai harmoniyadan, regiondakı yeni geosiyasi reallıqlardan danışaraq, ölkəmizin həm stabil dövlət, həm də qlobal oyunçu kimi mövqeyini böyük uğurla təqdim etdi.

### Sülh və inkişaf strategiyası

Azərbaycan Prezidenti televiziya əməkdaşının suallarına cavab olaraq Vaşinqtonda, Ağ Evdə, ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanmasından və Birgə Bəyannamənin imzalanmasından sonra regionda dayanıqlı sülh perspektivləri ilə bağlı fikirlərini də bölüşdü. Qeyd etdi ki, əgər Ermənistanın hər hansı gələcək hökuməti hakimiyyətə gəldiyi vaxtdan asılı olmayaraq, Vaşinqtonda imzalanan sənədi şübhə altına qoyarsa, bu dövlət ciddi çətinliklərlə üzləşəcək: "Çünki regiondakı güc balansı hər baxımdan tamamilə bizim xeyrimizədir. Düşünürəm ki, bu, hər kəsə aydındır. Əgər Ermənistan bir daha bizim ərazi bütövlüyümüzü şübhə altına qoysa, biz də adekvat cavab verəcəyik".

Dövlətimizin başçısının şərhinə görə, Vaşinqtonda imzalanan sənədin əhəmiyyəti ondan ibarətdir ki, hər iki tərəf bir-birinin ərazi bütövlüyünü tanıyır və gələcək təmaslarını beynəlxalq hüququn bu fundamental tezisi əsasında planlaşdıracaq: "Əgər onlar bizim ərazi bütövlüyümüzü tanımaqdan imtina etsələr, biz də onların ərazi bütövlüyünü tanımaqdan imtina edəcəyik. Burada kim qazanacaq, kim uduzacaq? Məncə, bu, ritorik sualdır. Ona görə hesab edirəm ki, Ermənistanın istənilən gələcək hökumətində kifayət qədər müdriklik, ağlabatan yanaşma olacaq ki, Vaşinqtonda razılaşdığımızı şübhə altına almasın. Bir daha qeyd edirəm ki, bu, iki dövlət arasında razılaşmadır. Bu, Paşinyan ilə mənim razılaşmamız deyil".

Azərbaycan Prezidenti söhbət zamanı bir daha vurğuladı ki, biz işğal edən ölkə deyilik, biz əraziləri azad edən insanlarıq və ölkəyik: "Bizim işimiz bundan ibarət idi və bizim müharibə də ədalətli idi. Müharibəmiz azadlıq müharibəsi idi. Müharibəni öz torpaqlarımızda, ədalətin bərpası naminə aparmışıq".

Müsahibənin Azərbaycanın körfəz ölkələri ilə strateji tərəfdaşlıq məsələləri ilə bağlı məqamları da böyük maraq cəlb edir. Azərbaycan Prezidenti xatırlatdı ki, BƏƏ-nin ADNOC şirkəti və digər investorlar Azərbaycanın enerji layihələrində fəal iştirak edirlər. Bu, təkcə iqtisadi fayda deyil, həm də siyasi müttəfiqlik deməkdir. Ərəb dünyasına verilən əsas mesajlardan biri Azərbaycanın bu ölkələrlə iqtisadi tərəfdaş olmaqla yanaşı, geosiyasi müttəfiq ola bilməsinin də mümkünlüyü idi. "Hazırda biz geniş əməkdaşlıq portfeli üzərində işin həqiqətən fəal mərhələsindəyik. Siyasi əlaqələr mükəmməldir. Biz əsas diqqəti enerji və digər sahələrdə - mehmanxana işi, turizm, kənd təsərrüfatında praktiki investisiya layihələrinə yönəldirik. Beləliklə, bir çox layihələr reallaşma mərhələsindədir. Məsələn, Səudiyyə Ərəbistanının aparıcı şirkətlərindən birini biz Xəzər sahilində suyun duzsuzlaşdırılması zavodunun inşasında tərəfdaş kimi seçmişik. Bu, kənd təsərrüfatı, eləcə də insanlar üçün çoxlu imkanlar yaradacaq. Bu, bizim xarici siyasət gündəliyimizin böyük bir hissəsidir. Deyərdim ki, körfəz ölkələri ilə əməkdaşlıq xarici siyasətimizin başlıca prioritetlərindən biridir", - dövlətimizin başçısı qeyd etdi.

### Dünyanın qovuşacağı yol

Prezident İlham Əliyev müsahibədə qonşu ölkələrlə, o cümlədən İranla bağlı məsələlərdə hər zamankı kimi yüksək diplomatik məharət və balanslı yanaşma nümayiş etdirdi, bununla bağlı fikirlərini strateji maraq və regional stabillik kontekstində qurdu. İranı regional aktor kimi qəbul etməklə bərabər, digər tərəfdən Azərbaycanın milli maraqlarını da ön plana çəkdi. Bu yanaşma ilə beynəlxalq auditoriya qarşısında qətiyyətli bir mövqe təqdim etmiş oldu ki, Azərbaycan qonşu ölkələrlə əməkdaşlığa açıqdır, amma suveren maraqlarından bundan sonra da geri çəkilməyəcək və milli təhükəsizliyinə prioritet verəcək.

Bu baxımdan, müsahibədə rəsmi adı "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" olan Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanın mövqeyi də aydın şəkildə ifadə olunurdu. Azərbaycan dəhlizin beynəlxalq hüquqa uyğun açılmasını dəstəkləyir və bütün region ölkələrinin faydasına olacaq bu qlobal layihənin tez bir zamanda reallaşmasından ötrü lazımi addımları atmağa çalışır, amma bütün bunları həm də yaxın qonşularımızdan olan İranla münasibətləri gərginləşdirmədən edir.

Müsahibədə tranzit dəhlizləri, enerji və ticarət layihələri ilə bağlı səsləndirilən fikirlər Azərbaycan-İran münasibətlərinin gələcək perspektivini göstərir. Ölkəmizin getdikcə genişlənən dəhlizlər və logistika imkanları regionda açıq və stabildir, bu isə İranla əməkdaşlıq üçün də böyük imkanlar yaradır. Bu yanaşma bir tərəfdən strateji sabitliyi qoruyur, digər tərəfdən isə iqtisadi əməkdaşlıq üçün diplomatik zəmin yaradır. Bu fikirlərdən də görünür ki, Azərbaycan dövlətinin strateji məqsədi regionda tarazlı vəziyyət yaratmaq, qonşu ölkələrlə qarşıdurmalardan uzaq durmaq, eyni zamanda Azərbaycanın dəhliz və enerji layihələri üçün maneəsiz imkanları bundan qarşılıqlı faydalar yaradan hər kəsin üzünə açmaqdır. "…Əslində, Zəngəzur dəhlizi təkcə "Şərq-Qərb" deyil, həm də "Şimal-Cənub" nəqliyyat dəhlizi olacaq. Deməli, Rusiyadan Azərbaycana, İrana gedən "Şimal-Cənub" marşrutundan əlavə, bizim digər marşrutumuz da olacaq - Rusiyadan Azərbaycana, Ermənistana, Naxçıvana və İrana. Beləliklə, düşünürəm ki, bütün region üçün hamının udacağı vəziyyət yaranacaq və heç kim bundan itirməyəcək. …Mən bilirəm ki, İran Hökuməti bunu başa düşür və Azərbaycan bütün bölgə ölkələri arasında regional əməkdaşlığı gücləndirmək üçün hər şeyi edəcək", - deyə cənab İlham Əliyev qeyd etdi.

### Türk dünyası XXI əsrin əsas güc mərkəzlərindəndir

Prezident İlham Əliyevin müsahibə zamanı fikirlərini bölüşdüyü daha bir əhəmiyyətli mövzu dini harmoniyanın siyasi əhəmiyyəti xüsusunda oldu. Dövlətimizin rəhbəri Azərbaycanın bu sahədə yaratdığı parlaq nümunəni uğurla təqdim edə bildi. Azərbaycan şiə və sünni vətəndaşların hər hansı təriqət fərqi hiss edilmədən bir ailə kimi yaşadığı nadir müsəlman ölkələrindən biridir. Bu, xüsusən ərəb dünyasında, məzhəb qarşıdurmalarının ciddi nəticələr doğurduğu bir coğrafiyada model təcrübə kimi təqdim edilir. Azərbaycan Prezidenti ölkəmizin multikultural dəyərlərinə, dinlərarası dialoq təşəbbüslərinə də toxundu. "Bakı Beynəlxalq Humanitar Forumu", "Mədəniyyətlərarası Dialoq" təşəbbüsləri kimi beynəlxalq tədbirlər ölkəmizin dünyada dini və mədəniyyətlərarası körpü rolunu daha da gücləndirməkdədir. Bu fikirlər iki siyasi məqsədə çatmış oldu. İlk növbədə, ərəb ölkələrinə göstərildi ki, Azərbaycan müsəlman həmrəyliyinə real töhfə verən dövlətdir. Qərb ictimaiyyətinə isə Azərbaycanın tolerantlıq və mədəniyyətlərarası dialoq sahəsində böyük qlobal faydalar yaradan mütərəqqi nümunəsi təqdim edildi. Prezident İlham Əliyev bu məsələ ilə əlaqədar bildirdi: "Mənim müsəlman dövlətlərinin aparıcı dini rəhbərləri ilə keçirdiyim çoxsaylı görüşlər onu göstərir ki, islam dünyasında istər siyasi olsun, istər dini sahədə bizim rolumuz yüksək qiymətləndirilir. Biz göstəririk ki, bu mümkündür və biz uğur hekayəsini nümayiş etdiririk. Biz göstəririk ki, burada sülh, sabitlik və rahatlıq mövcuddur. İnsanların məhz buna ehtiyacı var".

Müsahibənin daha bir mühüm hissəsi də türk dünyası və regional inteqrasiya məsələlərinə, o cümlədən Türk Dövlətləri Təşkilatının fəaliyyətinə həsr edilmişdi. Cənab İlham Əliyev Türkiyə ilə münasibətlərə, "Şuşa Bəyannaməsi"nə xüsusi toxundu, qardaş ölkə ilə münasibətləri "strateji müttəfiqlikdən də yüksək" adlandırdı, "Şuşa bəyannaməsi"ni hərbi-siyasi ittifaqın əsası kimi təqdim etdi. Bununla bağlı fikirlərin yaratdığı əsas qənaət, verdiyi başlıca mesaj bundan ibarətdir ki, Azərbaycan regional təhlükəsizlikdə əsla tək deyil, Türkiyə ilə birlikdə hər hansı təhdidə cavab verə biləcək gücdədir.

Azərbaycan Prezidenti Türk Dövlətləri Təşkilatının gələcəyi ilə bağlı strateji baxışını da bölüşərək bu qurumun perspektivlərini qlobal oyunçu statusuna qədər böyüyəcək bir birlik kimi təsvir etdi. Bu, yalnız mədəni bağların deyil, həm də iqtisadi, siyasi və hərbi inteqrasiyanın dərinləşəcəyini göstərir. Prezidentin sözlərindən hiss etmək çətin deyil ki, türk dünyası XXI əsrin əsas güclərindən birinə çevriləcək və Azərbaycanın da fəal iştirakı ilə buna doğru ardıcıl, effektiv addımlar atılır.

### Azərbaycan Rusiya ilə münasibətlərdə konstruktiv və hüquqi yanaşma tərəfdarıdır

Dövlətimizin başçısı "Əl-Ərəbiyyə" əməkdaşının suallarına cavab olaraq Azərbaycan-ABŞ münasibətlərinə də toxundu, keçmiş Bayden administrasiyasının Azərbaycanla dostluğu qiymətləndirməməsini, ikitərəfli əlaqələri sıfıra endirməsini xatırlatdı. Bunun qarşılığında, ABŞ-nin indiki prezidenti, Azərbaycanla Ermənistan arasında sülhün əldə olunmasına böyük töhfələr verən Trampın səmimi, cəsarətli, sülhpərvər mövqeyi bir daha təqdir olundu. Azərbaycan Prezidentinin və Ermənistanın baş nazirinin birlikdə onun Nobel Sülh Mükafatına namizədliyini irəli sürmələri faktı diqqətə çatdırıldı. Bütün bunlar Azərbaycan-ABŞ münasibətlərinin indiki inkişaf səviyyəsini və ölkəmizin milli-strateji maraqları nəzərə alınmaqla yaxın gələcəkdə daha da inkişaf edəcəyini göstərir.

Nəticə etibarilə, müsahibədə həm ABŞ ilə, həm də digər böyük dövlətlərlə bağlı səslənən mesajlar Azərbaycanın qlobal və regional tərəfdaşlarla balanslı siyasət yürütmək qabiliyyətini göstərir. Prezident İlham Əliyev açıq şəkildə bildirir ki, Azərbaycan həm strateji tərəfdaşlıqdan yararlanır, həm də milli maraqlarını qoruyur.

Müsahibədə Rusiya ilə münasibətlərin cari vəziyyəti kontekstində səsləndirilən fikirlər də bir neçə vacib məqamı ortaya qoydu. Azərbaycan və Rusiya münasibətləri hazırda mürəkkəb və çoxsəviyyəlidir. Ölkəmiz bütün məsələlərdə, o cümlədən ötən ilin dekabrında sərnişin təyyarəmizin Rusiya tərəfindən vurulması məsələsində, ardınca Rusiyadakı soydaşlarımıza qarşı başlanmış təzyiqlərdə, zorakılıq aktlarına münasibətdə konstruktiv və hüquqi yanaşmaya üstünlük verir, eyni zamanda vətəndaşlarının təhlükəsizliyini qorumaqda qətiyyətlidir.

### Qlobal enerji diplomatiyasında nüfuzlu iştirakçı

Suallara cavablar zamanı Avropa İttifaqına yönəlmiş mesajlar da diqqət çəkdi. Dövlət rəhbərimiz Azərbaycanın Avropaya qaz ixracını artıracağını və bunun enerji təhlükəsizliyi üçün strateji əhəmiyyət daşıdığını vurğuladı. Ümumilikdə müsahibənin əsas xətlərindən biri enerji diplomatiyası və burada Azərbaycanın rolu ilə bağlı idi. Dövlətimizin başçısı bu müstəvidə ölkəmizin yerini və rolunu, həm ənənəvi, həm də bərpaolunan enerji sahəsində qlobal əhəmiyyətini dəqiq şəkildə ifadə etdi. Yaxın illərdə Avropaya qaz ixracı daha da artırılacaq. Avropa İttifaqının enerji təhlükəsizliyi üçün bu, çox mühüm əhəmiyyət daşıyır. Avropanın Rusiyadan asılılığının azaldılması fonunda Azərbaycan qazı strateji alternativ kimi təqdim olunur.

Ölkəmizin "yaşıl enerji" perspektivləri də kifayət qədər böyükdür. Belə ki, Xəzər dənizində külək və günəş enerjisi, Qarabağda hidroenerji layihələri Azərbaycanın enerji xəritəsini dəyişməkdədir. Ərəb ölkələri ilə əməkdaşlıq - xüsusən BƏƏ və Səudiyyə Ərəbistanının nəhəng enerji şirkətləri ilə birgə layihələr - Azərbaycanın bərpaolunan enerji diplomatiyasını gücləndirir. Cənab İlham Əliyev müsahibəsində bir daha açıq mesaj verdi ki, ölkəmiz yaxın onillikdə yalnız karbohidrogen ölkəsi yox, həm də "yaşıl enerji" ixracatçısı olacaq. Bu, Azərbaycanın Avropa ilə uzunmüddətli əməkdaşlığını təmin edəcək strateji mövqedir.

Ümumən suallara cavablarda əsas xətlərdən, təlqin edilən ideyalardan biri Azərbaycanın nümunəvi model kimi təqdimatı, ölkəmizin bir çox sahələrdə digər dövlətlər üçün örnək yarada biləcəyi idi. Bu, enerji sahəsində - diversifikasiya və bərpaolunan enerji, daxili siyasətdə - dini tolerantlıq və məzhəb harmoniyası, xarici siyasətdə - balanslı, amma təşəbbüskar kurs, regional inteqrasiyada - türk dünyasının lokomotivi rolunda çıxış örnəyidir. Bu yanaşma ölkəmizin beynəlxalq nüfuzunu daha da gücləndirir. Azərbaycanın artıq beynəlxalq miqyasda hörmət edilən güc mərkəzinə çevrildiyini göstərir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Türk Dövlətləri Təşkilatı qlobal iştirakçılardan biri olacaq

## Prezident İlham Əliyevin qurumun gələcəyi ilə bağlı dediyi fikirlər bu təşkilatın əsl məramının ifadəsidir

**Türk Dövlətləri Təşkilatı zəngin iqtisadi resursları, geniş coğrafiyanı və hərbi gücü ifadə edir. Bu böyük potensial TDT-nin gələcəyini digər beynəlxalq təşkilatlardan daha perspektivli edir.**



Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, TDT-nin inkişafında Azərbaycanın rolu böyükdür. Bu təşkilat Naxçıvanda təsis olunub və ötən müddətdə böyük inkişaf yolu keçərək əhəmiyyətli beynəlxalq təşkilata çevrilib. TDT-nin güclənməsində Azərbaycan və Türkiyə arasında münasibətlərin gündən-günə möhkəmlənməsinin böyük əhəmiyyəti var. "44 günlük Vətən müharibəsində Türkiyənin ölkəmizə verdiyi mənəvi dəstək türk dünyasının birləşməsi üçün bir mesaj idi. 2021-ci ildə Şuşada iki ölkənin dövlət başçılarının imzaladığı müttəfiqlik haqqında Bəyannamə ölkələrimiz arasında hərtərəfli əməkdaşlığı özündə ehtiva etməklə yanaşı, TDT-nin inkişafına da yeni bir impuls verdi. Türkiyə NATO-nun üzvüdür və bu hərbi blokda ikinci ən böyük orduya malik ölkədir. Türkiyənin TDT-də olması bu təşkilatı qlobal gücə çevirir. O cümlədən Azərbaycan da regionda ən güclü ordusu olan ölkədir", - deyə o əlavə edib.

Deputat xatırladıb ki, Prezident İlham Əliyevin Ərəbistanın "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibədə qeyd etdiyi kimi, ordumuz yalnız paradlarda gücünü nümayiş etdirən ordu deyil. Silahlı Qüvvələrimiz döyüş meydanında özünü təsdiq etmişdir. Əlbəttə ki, döyüş meydanında özünü təsdiq edən orduya malik ölkəmiz TDT-nin güclənməsinə öz töhfəsini verir və regional təhlükəsizlik arxitekturasını qurub.

A.Badamov vurğulayıb ki, Türk Dövlətləri Təşkilatı dünyadakı bir çox beynəlxalq təşkilatlardan fərqli olaraq, müxtəlif xalqları təmsil edən ölkələr yer alsa da, etnik, dini və dil köklərinin eyni olması ilə seçilir: "Belə bir eyniliyin olması beynəlxalq təşkilatlar arasında nadir haldır. Həm də TDT-yə üzv dövlətlərin hər birinin digərləri ilə ikitərəfli strateji münasibətlərə malik olması bu təşkilata əlavə güc verir. Məsələn, Azərbaycanla Özbəkistan arasında müttəfiqlik Bəyannaməsi və digər Mərkəzi Asiya ölkələri ilə də strateji tərəfdaşlıq haqqında sənədlərin imzalanması təşkilat daxilində birliyi gücləndirir. Bu həm də ölkələr arasında daha sıx əməkdaşlıq imkanlarını genişləndirir".

Deputat deyib ki, təşkilata daxil olan ölkələr böyük iqtisadi potensiala malikdir. Bu da beynəlxalq təşkilatlar sırasında TDT-nin üstünlüyüdür. Həmçinin təşkilata üzv olan ölkələrdəki demoqrafik artım digər beynəlxalq təşkilatlarda təmsil olunan ölkələrdən fərqləndirir. Demoqrafik artımın yüksək olması isə işçi qüvvəsinin yüksək olması deməkdir. Bu da icra olunan layihələrin yerinə yetirilməsində və ölkələrin hərbi gücünün artmasında özünü göstərir. "TDT-yə üzv ölkələr həm də böyük bir coğrafiyanı birləşdirir. Azərbaycan nəinki təşkilat daxilində iqtisadi əməkdaşlığı genişləndirir, həm də qlobal bazarlara çıxmaq imkanlarını beynəlxalq tərəfdaşlara təqdim edir. Belə ki, Çindən başlanan Orta dəhlizin davamı Mərkəzi Asiyada yerləşən TDT üzv dövlətləri üzərindən Azərbaycana və Türkiyə üzərindən Avropaya qədər uzanır. Bu da böyük bir coğrafiyada iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün verdiyimiz töhfələrin qlobal iqtisadiyyat üçün əhəmiyyətli olması deməkdir. Dövlət başçımızın uzaqgörənliyi ilə ərsəyə gətirdiyimiz "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri və yaxın zamanlarda açılacaq Zəngəzur dəhlizi TDT-yə üzv dövlətlər üçün böyük imkanlar açır. "Əl-Ərəbiyyə" televiziya kanalına verdiyi müsahibədə Prezident İlham Əliyevin TDT-nin gələcəyi ilə bağlı ifadə etdiyi fikirlər bu təşkilatın əsl məramının təsviridir. Dövlət başçımız deyib: "Ona görə də biz onu konkret layihələrlə, investisiyalarla, enerji, daşımalar, mədəniyyət layihələri ilə möhkəmləndirməliyik. Ona görə də mən gələcəkdə bu təşkilatı mühüm qlobal iştirakçılardan biri kimi görürəm. Beləliklə, bizim fikrimiz beynəlxalq arenada rol oynaya bilən, təkcə daxili məsələlərlə məşğul olmayan qlobal oyunçuya çevrilməkdən ibarətdir ki, həm də beynəlxalq arenada sabitləşdirici, müsbət rol oynasın və qonşular üçün imkanlar yaratsın. Bununla da biz belə bir nəhəng coğrafiyada heç kimə təhlükə törətməyən, lakin çoxları üçün fürsət hesab edilən güclü birlik qura biləcəyimizi nümayiş etdirək".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

## Bu gün beynəlxalq münasibətlər sisteminin aparıcı aktorlarından biri kimi Azərbaycanın sabitləşdirici roluna böyük ehtiyac duyulur



**Azərbaycan-Ermənistan dövlətlərarası münasibətlərində yeni mərhələnin başlanğıcı məhz avqustun 8-də ABŞ-də qoyuldu. Cənubi Qafqaz regionuna sülh, sabitlik və firavanlıq gətirəcək bu tarixi hadisə bölgədə yeni əməkdaşlıq platformalarının formalaşması baxımından da mühüm əhəmiyyət kəsb edir.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov söyləyib.

"Vətən müharibəsində parlaq Zəfərimizdən dərhal sonra Azərbaycan qarşılıqlı hörmət və beynəlxalq hüququn prinsipləri əsasında sülh təşəbbüsü ilə çıxış etdi. Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində qeyd etdiyi kimi, avqustun 8-də Vaşinqtonda paraflanmış sənəd Ermənistan-Azərbaycan münasibətlərinin dövlətlərarası çərçivədə necə qurulmalı olduğu barədə Azərbaycanın baxışına əsaslanır, regionda davamlı və dayanıqlı sülhün təmin olunması istiqamətində olduqca mühüm hadisədir. Belə ki, Azərbaycanın təşəbbüsü ilə sazişin paraflanması ölkəmizin sülhə və əməkdaşlığa əsaslanan mövqeyinin təzahürüdür", - deyə komitə sədri qeyd edib.

Azərbaycanın beynəlxalq hüququn aliliyinə, dövlətlərin daxili işlərinə qarışmama və çoxtərəfli əməkdaşlıq prinsiplərinə əsaslanan siyasət yürütdüyünü söyləyən Şahin İsmayılov diqqətə çatdırıb ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü və işğal faktının 30 il davam etməsi bölgənin potensialından tam istifadəyə ciddi maneə olub. Əlbəttə, Azərbaycan tərəfdaşları ilə birgə qlobal əhəmiyyətli enerji və nəqliyyat layihələrini reallaşdıraraq geniş coğrafiyada əməkdaşlıq üçün böyük imkanlar yaradıb. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verir. Ölkəmiz beynəlxalq miqyasda etibarlı enerji tərəfdaşına çevrilib. Cari il avqustun əvvəlində Azərbaycan qazının Suriyaya nəqlinə başlanılıb. Beləliklə, Azərbaycan qazı artıq Yaxın Şərq regionuna nəql olunur.

"Dövlətimizin başçısının müsahibəsində qeyd etdiyi kimi yeni yaradılacaq Zəngəzur dəhlizi qitələri birləşdirən vacib nəqliyyat əlaqəsi olacaq. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa bağlantının qurulması ölkəmiz üçün mühüm əhəmiyyətə malikdir. Bununla yanaşı, bu marşrut regionda qarşılıqlı faydalı əməkdaşlıq üçün olduqca səmərəli imkanlar təqdim edəcək. Bütün qonşu ölkələr bu imkandan faydalanacaq", - deyən Şahin İsmayılov bildirib ki, güclü mövqelərə malik tranzit ölkəyə çevrilmək ölkəmizin əsas hədəflərindəndir və ötən illər ərzində bu istiqamətdə olduqca zəruri addımlar atılıb. Bu baxımdan TRIPP marşrutu regiona olan beynəlxalq marağı daha da artıracaq, həmçinin yeni investisiyaların cəlb olunmasına mühüm şərait yaradacaq.

Mövcud geosiyasi proseslər fonunda Azərbaycanın təşəbbüsləri, balanslaşdırılmış xarici siyasəti və konstruktiv mövqeyinin beynəlxalq ictimaiyyət üçün xüsusi əhəmiyyət daşıdığını bildirən Şahin İsmayılov Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanın bu gün beynəlxalq münasibətlər sisteminin aparıcı aktorlarından biri kimi sabitləşdirici roluna böyük ehtiyac duyulduğunu diqqətə çatdırıb. Bu xüsusda, İsrail və Suriya arasında normallaşma prosesində Azərbaycanın vasitəçiliyi xüsusi əhəmiyyətə malikdir.

## *Hakan FİDAN:* "Vaşinqton görüşündə atılan imzalarla bölgə üçün çox müsbət bir mənzərə ortaya qoyuldu"

**ABŞ-də Azərbaycan ilə Ermənistan arasındakı sülh sazişinin bir sıra razılaşdırılmış bəndləri paraflandı. Saziş, o cümlədən Zəngəzur dəhlizi ilə bağlı azərbaycanlı qardaşlarımızın əvvəldən etibarən ortaya qoyduğu bir tələb var idi. Atılan imzalar bunun prinsip etibarilə qəbul edilməsi mənasına gəlir.**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Hakan Fidan ifadə edib. O bildirib ki, görüşdə ABŞ ilə Azərbaycan arasında iki anlaşma da imzalandı ki, bununla bölgə üçün çox müsbət bir mənzərə ortaya qoyuldu: "Onu da qeyd edim ki, bəli, imzalar atıldı, lakin Zəngəzur dəhlizinin fəaliyyəti ilə bağlı yekun nəticə hələ ki, əldə olunmayıb. Bu məsələ iki tərəf arasında razılaşdırılacaq. Türkiyənin isə başda ölkə başçımız olmaqla prinsip etibarilə aparılan bütün bu müzakirələrlə bağlı tutduğu yeganə mövqe hər zaman olduğu kimi, azərbaycanlı qardaşlarına güvənidir. Onların aldığı hər qərarın yanındayıq. Başda Prezident İlham Əliyev olmaqla, Azərbaycan olduqca peşəkar siyasətçilər tərəfindən idarə olunur. Onlar öz məsələlərinə çox gözəl sahib çıxırlar. Bu olduqca qürurvericidir. Burada Ermənistanın baş nazirinin ortaya qoyduğu müsbət mövqeni də ifadə etmək lazımdır. Bu, təqdirəlayiq və tarixi bir hadisədir".

Hakan Fidan qeyd edib ki, Zəngəzur dəhlizi ilə bağlı fəaliyyətlərin ilk günündən etibarən Türkiyə ilə Azərbaycan arasında məsləhətləşmələr aparılır. Bu müzakirələr həm Vaşinqton görüşündən əvvəl, həm də sonra dövlət başçıları arasında da aparıldı:

"Ümumiyyətlə Azərbaycanla bizim aramızdakı məsləhətləşmə mexanizmi, koordinasiya olduqca güclüdür. Demək olar ki, hər gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla telefonla danışırdıq. Yəni möhtəşəm bir əməkdaşlığımız var".

## Rusiya Azərbaycan və Ermənistanın ATƏT-in Minsk qrupunun buraxılması qərarını dəstəkləyib

**Rusiya Azərbaycan və Ermənistanın ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı qərarını dəstəkləyib. Strukturun yekun ləğvi 2025-ci ilin dekabrına qədər gözlənilir.**



AZƏRTAC xəbər verir ki, bunu Rusiyanın ATƏT-dəki daimi nümayəndəsi Aleksandr Lukaşeviç deyib. Onun sözlərinə görə, onun fəaliyyətinin dayandırılması üç quruma - Minsk Qrupuna, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin vəzifəsinə və yüksəksəviyyəli planlaşdırma qrupuna təsir edəcək.

O qeyd edib ki, tərəflərin onların saxlanmasının məqsədəuyğun olmaması ilə bağlı mövqeyini nəzərə alaraq, Rusiya buraxılmanın qarşısının alınması üçün heç bir əsas görmür.

## Qarabağ Zəfərindən sonra Türk Dövlətləri Təşkilatı yeni mərhələyə qədəm qoyub

**2020-ci ildə əldə olunmuş Qarabağ Zəfərindən sonra Türk Dövlətləri Təşkilatı (TDT) fəaliyyətində yeni bir mərhələyə qədəm qoyub. Türk dövlətləri arasında yaranmış sinerji konkret nəticələr doğurub və təşkilatın inkişaf trayektoriyasını müəyyənləşdirib.**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli politoloq Hüsaməddin İnaç bildirib.

Onun sözlərinə görə, Qarabağ Zəfəri ilə Türk Dövlətləri Təşkilatının imkanları da genişlənib və bu istiqamətdə çox ciddi addımlar atılıb.

"TDT fəaliyyəti ilə Avropa İttifaqına bənzər bir inteqrasiya modelinə çevrilir. Bu model iqtisadi əməkdaşlıqdan başlayaraq, mədəni və siyasi sahələri də əhatə etməkdədir. Xüsusilə Orta Asiya, - bizim Türküstan adlandırdığımız məkan, - hazırda Rusiya və Amerika arasında geosiyasi rəqabət meydanı kimi xüsusi əhəmiyyət kəsb edir. Bu səbəbdən regionun türk dünyasının müstəqil iradəsi ilə formalaşması strateji baxımdan son dərəcə vacibdir", - deyə politoloq qeyd edib.

O bildirib ki, bölgə həm enerji resursları, həm də geostrateji mövqeyi baxımından böyük önəm daşıyır. Zəngəzur dəhlizinin işə düşməsi ilə regionda yeni bir sinerji məkanı formalaşacaq. Bu dəhliz həm Çinlə Avropanı birləşdirən "Bir kəmər, bir yol" təşəbbüsünün mühüm halqasına çevriləcək, həm də Ukrayna-Rusiya müharibəsi səbəbindən bağlanan Şimal dəhlizinin və Yaxın Şərqdəki münaqişələr ucbatından sabitliyi pozulan Cənub dəhlizinin əvəzləyici alternativi olacaq. Beləliklə, Çin istehsalı olan malların Avropaya çatdırılması baxımından Zəngəzur dəhlizinin əhəmiyyəti daha da artacaq.

Politoloqun sözlərinə görə, Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında logistika, enerji, ticari-iqtisadi və digər sahələr üzrə əməkdaşlığın inkişafı inteqrasiya prosesini yeni mərhələyə çıxarır. Bu təşkilat zamanla Avropa İttifaqında olduğu kimi vahid valyuta, ortaq müdafiə və xarici siyasətdə koordinasiya kimi addımların atılmasına imkan yaradacaq. Beləliklə, TDT getdikcə inkişaf edən, transformasiya olunan bir inteqrasiya modelinə çevriləcək.

"Türk Dövlətləri Təşkilatı Rusiyada müəyyən dairələr tərəfindən Qərbin bölgəni əhatə etmək siyasəti kimi dəyərləndirilsə də, cari beynəlxalq şərait bu inteqrasiyanın qarşısını ala bilmir. Ukrayna-Rusiya müharibəsi Moskvanın təşkilatın dərinləşməsinə, inteqrasiyasına mane olmasına imkan vermir. Digər tərəfdən, türk dövlətləri ABŞ-dən asılı olmadan kifayət qədər müstəqil siyasət yürüdür. Yaxın gələcəkdə siyasi, iqtisadi və mədəni sahələri əhatə edərək geniş əməkdaşlıq platformasına çevrilmiş təşkilatın qlobal geosiyasətdə ciddi dəyişikliklərə gətirib çıxaracağını görəcəyik", - deyə Hüsaməddin İnaç vurğulayıb. Hazırda Türk Dövlətləri Təşkilatının inkişafını əngəlləyəcək ciddi amilin mövcud olmadığını deyən politoloqun qənaətinə görə, yaxın gələcəkdə də belə bir maneənin yaranması gözlənilmir.

## Zəngəzur dəhlizi türk dünyasını daha da gücləndirəcək



**Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində ölkəmizin xarici siyasət kursu ilə bağlı mühüm məsələlər yer alıb. Regionda baş verən proseslər və ikitərəfli münasibətlərlə bağlı önəmli fikirlər səsləndirən Prezident İlham Əliyev türk dövlətləri ilə əməkdaşlığa da diqqət çəkərək qeyd edib ki, Türk Dövlətləri Təşkilatı hazırda böyük potensiala malikdir. Azərbaycan daim bu qurumu gücləndirməyə sadiq olub. Bu, bir növ məşvərətçi qrup, şura, ölkələr qrupu kimi fəaliyyətə başlayıb, sonra isə transformasiya edib. O, böyük potensiala malikdir.**

"Türkiyə ilə bizim çox sıx münasibətlərimiz var və bu münasibətlər hazırda 2021-ci ildə Şuşada Prezident Ərdoğanla imzaladığımız, bizi hərbi və siyasi müttəfiqlər edən Bəyannaməyə əsaslanır. Bu, hüquqi cəhətdən təkcə hər iki ölkə üçün deyil, bütün türk dünyası üçün mühüm amildir. Keçən il biz Özbəkistanla müttəfiqlik münasibətləri haqqında müqavilə imzaladıq. Həmçinin Türk Dövlətləri Təşkilatının digər üzvləri ilə bizim strateji tərəfdaşlıq müqavilələrimiz və ya bəyannamələrimiz var. Beləliklə, bu, böyük potensialdır", - deyə dövlət başçısı vurğulayıb.

Milli Məclisin deputatı Zaur Şükürov qəzetimizə açıqlamasında bildirib ki, son illər Azərbaycanın türk dövlətləri ilə istər ikitərəfli formatda, istərsə də Türk Dövlətləri Təşkilatı çərçivəsində əlaqələrində intensivlik müşahidə edilməkdədir. Ortaq kök, dil, mədəniyyət, xüsusilə də təşkilatın bütün üzvlərində siyasi sabitlik, bir-biri və hamısı arasında dost əlaqələrin mövcud olması, həmçinin coğrafiya və zəngin təbii ehtiyatlar kimi mühüm faktorlar üzv ölkələr arasında siyasi, milli təhlükəsizlik, mülki müdafiə, iqtisadi-ticarət, enerji, nəqliyyat-logistika, kənd təsərrüfatı, mədəniyyət və digər sahələrdə çoxtərəfli əməkdaşlığın inkişafına imkan verir. "TDT-nin əsas fəaliyyət məqsədləri və vəzifələri Naxçıvan Sazişi ilə müəyyən edilmiş və tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi, ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılması, hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi, elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi, kütləvi informasiya vasitələri arasında əlaqələrin, eləcə də daha geniş miqyasda informasiya mübadiləsinin təşviq edilməsi, hüquqi məlumatların mübadiləsinin, hüquq sahəsində əməkdaşlığın genişləndirilməsi kimi vacib müddəaları ehtiva edir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin praqmatik, uzaqgörən, prinsipial və müstəqil xarici siyasət kursu, ikitərəfli və çoxtərəfli münasibətlərdə daim beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsiplərinə və ədalətə, qarşılıqlı hörmətə əsaslanan mövqeyi Azərbaycanla türk dövlətləri arasında münasibətlərin inkişafında mühüm rol oynayır. Xüsusilə də, dövlətimizin başçısının böyük liderliyi və sərkərdəliyi, şəhidlərimizin, qazilərimizin, əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində 2020-ci il Vətən müharibəsi və 2023-cü ildə 24 saatdan az müddətdə gerçəkləşdirilən antiterror tədbiri ilə özünün ərazi bütövlüyünü və tam suverenliyini bərpa edərək, son 80 ildə tam, mütləq qələbə qazanan yeganə ölkə olan Azərbaycana inam və etimad daha da artıb, istər ikitərəfli, istərsə də regional əməkdaşlıq və inkişaf üçün geniş imkanlar açılıb", - deyə o bildirib.

Deputat qeyd edib ki, məhz bunun nəticəsi olaraq, Prezident İlham Əliyevin avqustun 8-də Vaşinqtona işgüzar səfəri çərçivəsində Azərbaycanla türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bağlı mühüm razılaşma əldə edilməsi türkdilli ölkələr arasında coğrafi əlaqənin bərpa olunmasına imkan verməklə yanaşı, ümumilikdə türk dövlətlərinin inteqrasiyası prosesində əhəmiyyətli rol oynayacaq. Bütün sadalanan amillər ümumi ailəmiz olan türk dünyasının gələcəkdə daha qüdrətli və nüfuzlu siyasi və iqtisadi güc mərkəzinə çevriləcəyini deməyə əsas verir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## *Qazaxıstanlı ekspert:* "TDT mədəni əməkdaşlıqdan iqtisadi və geosiyasi gücə doğru addımlayır"

**"Türk Dövlətləri Təşkilatı əvvəlcə mədəni əməkdaşlıq platforması kimi fəaliyyətə başlayıb, sonradan isə iqtisadi sahəyə də istiqamətlənərək hazırda həm mədəni, həm də iqtisadi əməkdaşlıq üçün mühüm platformaya çevrilib. Qardaş ölkələrimizin əksəriyyəti gənc dövlətlərdir, yalnız Türkiyə qədim dövlətçilik ənənələrinə malikdir. Digər türk respublikaları isə 1990-cı illərdə müstəqillik qazanıblar. Mədəniyyət sahəsindən başlayaraq mərhələli şəkildə inkişaf edən bu dövlətlər transformasiya prosesindən keçərək Türk Dövlətləri Təşkilatının formalaşmasına zəmin yaradıblar. Hazırda isə təşkilatdaxili əməkdaşlığın əsas istiqamətlərindən biri yalnız mədəniyyət deyil, həm də iqtisadiyyatdır".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Qazaxıstanın Dünya İqtisadiyyatı və Siyasəti İnstitutunun eksperti, iqtisad elmləri doktoru Maqbat Spanov bildirib.

O vurğulayıb ki, türk dövlətləri böyük əhali kütləsini birləşdirir və faktiki olaraq Mərkəzi Asiya-Azərbaycan-Türkiyə zəncirini formalaşdırır. Bu isə enerji, sənaye və kənd təsərrüfatı sahələrində geniş iqtisadi kooperasiya imkanları yaradır.

"Qazaxıstan və Azərbaycan enerji resursları ilə zəngindir, Türkiyə sənaye və kənd təsərrüfatında güclü mövqeyə malikdir, Özbəkistan və Qırğızıstan isə aqrar sahədə fərqlənir. Bu əmək bölgüsü və qarşılıqlı tamamlayıcılıq prinsipi ölkələrimiz arasında əməkdaşlığı daha da möhkəmləndirir", - deyə Spanov qeyd edib.

Ekspert qeyd edib ki, müasir dünya regional bloklar üzərində qurulub və Türk Dövlətləri Təşkilatının birliyi həm mədəni, həm də iqtisadi baxımdan strateji əhəmiyyətə malikdir. Taleyin hökmü ilə ölkələrimiz Cənub-Şərqi Asiya ilə Avropa arasında körpü rolunu oynayır. Bu baxımdan Orta dəhlizin inkişafı təsadüfi deyil, Qazaxıstan və Azərbaycan bu dəhlizə ciddi sərmayələr yatırır. Azərbaycanla Ermənistan arasında imzalanmış müqavilə nəticəsində Zəngəzur dəhlizi reallığa çevrilir və artıq icra mərhələsinə daxil olub. Bu isə əməkdaşlığımızı daha da gücləndirəcək.

Maqbat Spanov əlavə edib ki, əməkdaşlıq yalnız nəqliyyat və logistika ilə məhdudlaşmır, ölkələr arasında əmək bölgüsünü və iqtisadi üstünlüklərin paylaşılmasını təmin edir: "Hər bir ölkənin özünəməxsus iqtisadi üstünlükləri mövcuddur və bu, gələcəyə nikbin baxmağa imkan yaradır. İqtisadi və milli güc olmadan regional təhlükəsizliyi təmin etmək çətindir. Baxmayaraq ki, dövlətlərimiz müxtəlif hərbi blokların üzvüdür: "Türkiyə NATO-da, Qazaxıstan və Qırğızıstan isə KTMT-dədir. Bununla belə, ortaq mədəni birlik və iqtisadi əməkdaşlıq Mərkəzi Asiya və Cənubi Qafqazda mühüm rol oynamağa imkan verir. Bu da Türk Dövlətləri Təşkilatının artan əhəmiyyətini bir daha təsdiqləyir".

Dünyada müşahidə olunan gərginliklərin Türk Dövlətləri Təşkilatı üzvlərindən koordinasiyalı cavablar tələb etdiyini vurğulayan ekspert əmin olduğunu bildirib ki, hərbi və təhlükəsizlik sahəsində kadrların hazırlanması, eləcə də birgə təlimlərin keçirilməsi qonşu ölkələri TDT ilə hesablaşmağa vadar edəcək.

Ekspert nəqliyyat dəhlizlərinin əhəmiyyətinə də diqqət çəkib: "Orta dəhliz türk dövlətlərinin logistikasından istifadə edilmədən mümkün deyil. Hazırda "Şimal-Cənub" yeni nəqliyyat dəhlizi formalaşır və onun əsas iştirakçıları Azərbaycanla Qazaxıstandır. Bu çərçivədə ölkələrimizin rolu və əhəmiyyəti daha da artacaq. Rusiya ilə Avropa İttifaqı arasındakı uzunmüddətli qarşıdurma fonunda Rusiya bu dəhlizlərin inkişafında maraqlı olacaq və bizim ölkələr də bundan faydalana biləcək. Hazırda həm Çin, həm Qazaxıstan, həm Azərbaycan, həm də Türkiyə bu istiqamətə böyük sərmayələr yatırır. Bu isə gələcək iqtisadi inkişaf üçün nikbin perspektivlər açır".

Spanov vahid geosiyasi xətt məsələsinə də toxunaraq bildirib ki, hazırda ortaq mövqelərin formalaşdırılması kifayətdir.

İqtisadi, milli və hərbi gücün artması fonunda türk dövlətləri Avrasiya məkanında getdikcə daha təsirli rol oynayacaq.

## *Keçmiş həmsədr:* "Minsk qrupuna həqiqətən də artıq ehtiyac yoxdur"

**"Keçmiş amerikalı həmsədr kimi deyə bilərəm ki, Minsk qrupunun ləğvinin vaxtı doğrudan da çatıb və hətta keçib".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, amerikalı ekspert Riçard Hoqland deyib.

O bildirib ki, bu qrup Azərbaycanla Ermənistan arasındakı Qarabağ probleminin həlli üçün onilliklər ərzində danışıqlar aparıb. "Hələ işlənəcək detallar var. Çox müsbət haldır ki, Bakı və İrəvan indi birlikdə işləyirlər. Bu, o deməkdir ki, Minsk qrupuna həqiqətən də artıq ehtiyac yoxdur. Bu, keçmişdə qaldı və gələcəyə doğru irəliləmək lazımdır", - deyə Hoqland əlavə edib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Sumqayıt Kimya Sənaye Parkı önə çıxır

### Parkda istehsal edilən məhsulların ixracı istiqamətində əhəmiyyətli uğurlar əldə olunub

**Cənubi Qafqazın ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkı ölkəmizdə kimya sənayesi məhsullarının istehsalında önəmli rol oynayır.**

Dövlət başçısının 30 iyul 2024-cü il tarixli sərəncamı ilə ərazisi genişləndirilən sənaye parkında əlverişli biznes və investisiya mühiti yaradılıb. Ölkəmizdə fəaliyyət göstərən digər sənaye parklarında olduğu kimi, burada da səmərəli sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktur təmin edilir, güzəşt və stimullar tətbiq olunur. Sənaye parkında sahibkarlar dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin olunurlar. Həmçinin parkın rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunurlar. Parkın rezidentlərinə indiyədək 900-dən çox təsdiqedici sənəd verilib ki, bunun nəticəsində rezidentlər texnika və texnoloji avadanlıqların idxalı zamanı 400 milyon manatdan çox vəsaitlərinə qənaət ediblər.

Sənaye parkında investisiya portfeli 6 milyard manatdan çox olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib, bunlardan da artıq 28-i fəaliyyət göstərir. Sahibkarlar tərəfindən görülən işlərə indiyədək 5,5 milyard manatdan çox investisiya yatırılıb, 6300-dən artıq daimi iş yeri yaradılıb.

2015-ci ildən 2025-ci ilin I yarımilliyi daxil olmaqla Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə təxminən 14,4 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, bunun da 5,2 milyard manata yaxın hissəsi ixracın payına düşür. Bu ilin birinci yarısında sənaye parkında 1,1 milyard manatdan çox məbləğdə məhsul satışı olub ki, bunun da 545 milyon manata yaxın hissəsi ixrac edilib. Ötən ilin analoji dövrü ilə müqayisədə ixrac təqribən 20 faizə yaxın artıb.

Qeyd edək ki, son dövrlərdə kimya sənayesi məhsullarının istehsalında mühüm artım müşahidə olunur. 2025-ci ilin yanvar-iyul aylarında Azərbaycanın kimya sənayesində istehsal həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,7 faiz artaraq 955 milyon manatı ötüb. Bu artımda Sumqayıt Kimya Sənaye Parkının xüsusi çəkisi var.

Parkda istehsal edilən tikinti kimyəvilərinin, polad və polimer boruların, sürtkü yağlarının, polimerlərin, karbamidin, müxtəlif çeşiddə kabellərin, şüşə lövhələrin, keramik plitələrin və s. məhsulların ixracı istiqamətində də əhəmiyyətli uğurlar əldə edilib. Bu növ məhsullar dünyanın 70-dən artıq ölkəsinə "Made in Azerbaijan" brendi ilə ixrac olunub.

## "RehaPoint" məntəqəsində 2,7 min şəxsə reabilitasiya xidmətləri göstərilib

**Bərdə Qarabağ Regional DOST Mərkəzindəki "RehaPoint" - Ambulator Reabilitasiya Məntəqəsində reabilitasiya xidmətlərini davam etdirir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 2023-cü ilin dekabrın 1-dən fəaliyyətə başlayan bu məntəqəsində ötən dövrdə 2,7 min şəxsə ambulator şəraitdə reabilitasiya xidmətləri göstərilib.

Bölgədə yaşayan əlilliyi olan şəxslər burada ambulator formada müalicəvi bədən tərbiyəsi, əmək terapiyası, psixoloq və loqoped xidmətlərindən faydalanırlar.



Məntəqədə əlilliyi olan 300-ə yaxın şəxsə isə ehtiyaclarına uyğun olaraq 1600-dən çox reabilitasiya vasitəsi verilib.

## Dünya birjalarında neft ucuzlaşıb

**AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,3 dollar azalaraq 68,32 dollar olub.**

Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,28 dollar azalaraq 64,32 dollar təşkil edib. "Azeri Light" markalı neftin də bir barelinin qiyməti 0,3 dollar və ya 0,43 faiz azalaraq 69,31 dollara düşüb. Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## Beynəlxalq dəhlizlərin "görüş" yeri

### İlham ƏLİYEV: "Biz istəyirik ki, Şərqdən Qərbə, Şimaldan Cənuba dəhlizlər Azərbaycandan keçsin"

**Dünya dəyişir. İndi coğrafiya təkcə dağlar, çaylar, iqlim deyil, həm də yollar, dəhlizlər, kommunikasiya xətləri deməkdir. Dəyişən dünyada Azərbaycan da artıq strateji tranzit ölkəsi kimi öz sözünü deyir. İllər öncə xəritədə sadəcə keçid ərazisi kimi görünən ölkəmiz indi Avrasiyanın nəqliyyat arteriyalarında həlledici mövqe tutur.**




Bir vaxtlar qədim İpək Yolunun tərkib hissəsi olan Azərbaycan yenidən dirçələn ticarət yollarının mərkəzinə çevrilməkdədir. Sadəcə xəritəyə baxmaq kifayətdir əmin olasan ki, ölkəmiz həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" dəhlizlərinin qovşağıdır. Bu isə ərazimizi nəinki regionda, hətta qlobal səviyyədə əhəmiyyətli logistik mərkəzə çevirir. Çinlə Avropanı birləşdirən yolda - Orta dəhliz adlanan marşrutda Azərbaycanın rolu açıq-aydın görünür.

Əlbəttə, tranzit imkanları təkcə iqtisadi fayda gətirmir, bu həm də siyasi çəki deməkdir. Enerji təhlükəsizliyi, ticarət axınları, beynəlxalq əməkdaşlıqlarda Azərbaycan bəzi dövlətlər kimi passiv müşahidəçi mövqeyi sərgiləmir, əksinə fəal oyunçu kimi mərkəzdə dayanır. Neft-qaz borularının keçdiyi, mükəmməl nəqliyyat və yol infrastrukturu olan ölkəmiz sülhə, sabitliyə və tərəfdaşlığa çağırış edir.

Xatırladaq ki, tranzit ölkə coğrafi mövqeyinə görə digər ölkələr arasında yük və sərnişin daşımalarının keçdiyi, yəni mal və xidmətlərin bir ölkədən digərinə ötürülməsi üçün vasitəçi rolunu oynayan ərazidir. Tranzit ölkə öz sərhədləri daxilində malların və nəqliyyat vasitələrinin təhlükəsiz və səmərəli şəkildə keçməsinə imkan yaradır. Təsadüfi deyil ki, bu gün Azərbaycan bir çox mühüm beynəlxalq layihələrin mərkəzində dayanır və Orta dəhliz kimi təşəbbüslərdə fəal iştirak edir. Ölkəmizin tranzit imkanlarının genişlənməsi xarici tərəfdaşlarla əlaqələri dərinləşdirir və regionda sabitlik üçün əlavə zəmin yaradır. Nəqliyyat dəhlizlərinin üzərində yerləşmək coğrafi üstünlük və strateji məsuliyyət deməkdir. Azərbaycan bu məsuliyyəti daşımaq gücündə olduğunu dəfələrlə sübut edib.

Ölkəmizin tranzit imkanlarını artırmaq üçün atdığı hər yeni addım - istər Zəngəzur dəhlizi (TRIPP) kimi iddialı layihələr olsun, istərsə də beynəlxalq təşkilatlarla imzalanan sazişlər - onun gələcəyə baxışının və strateji mövqeyinin göstəricisidir. Bu baxış yalnız iqtisadi maraqlara deyil, həm də regional sabitliyə, qlobal inteqrasiyaya xidmət edir. Qeyd etdiyimiz mənzərədə xüsusi yer tutan layihələrdən biri də Zəngəzur dəhlizidir (TRIPP). Bu dəhliz Azərbaycanla yanaşı, bütün regionun gələcəyinə yönəlik strateji addımdır. Hazırda dünyanın diqqət mərkəzində olan bu dəhliz Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirməkdən savayı, daha geniş bir coğrafiyada ticarət və logistik əlaqələri də canlandıracaq. Açıldıqdan sonra isə Azərbaycan üzərindən keçən "Şərq-Qərb" dəhlizi yeni nəfəs alacaq. Yüklər daha qısa və təhlükəsiz marşrutla Türkiyəyə, oradan isə Avropa bazarlarına çıxacaq. Üstəlik Mərkəzi Asiya ölkələri üçün bu yol əvəzolunmaz bir tranzit alternativi olacaq.

Tranzit ölkə olmaq regional liderlik, sabitlik və inkişaf üçün məsuliyyət daşımaq deməkdir. Azərbaycan həmin məsuliyyəti anlayır və ona uyğun addımlar atır. Bu strateji yanaşma və uzaqgörən mövqe Prezident İlham Əliyevin çıxışlarında dəfələrlə öz aydın ifadəsini tapıb. Dövlətimizin başçısı Azərbaycanın tranzit potensialını sadəcə coğrafi üstünlük kimi deyil, milli maraqlara və regional sabitliyə xidmət edən əsas istiqamət olaraq təqdim edir. Bu mənada İlham Əliyev "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibəsində Azərbaycanın tranzit siyasətini və Zəngəzur dəhlizinin strateji əhəmiyyətini belə izah edib: "Bu gün Orta dəhlizin bir qolu - Asiyadan Xəzər dənizi üzərindən gedən yol Azərbaycandan Gürcüstana, Türkiyəyə və sonra Avropaya, həmçinin Gürcüstan limanlarına çıxır. Bu, Asiyanı Avropaya Azərbaycanın ərazisindən birləşdirən yeganə yoldur. Zəngəzur dəhlizi və ya TRIPP isə alternativ yaradacaq. İkinci dəhliz Ermənistan ərazisindən keçəcək. Bu isə Ermənistan üçün faydalıdır. Mən bu mesajı erməni həmkarlarıma çatdırmağa çalışmışam ki, nəticədə onlar tranzit ölkəyə çevriləcəklər. Potensialı varsa, hər bir ölkə tranzit ölkəyə çevrilməyə çalışır. Məsələn, biz tranzit ölkə olmaq istəyirik. İstəyirik ki, Şərqdən Qərbə, Şimaldan Cənuba dəhlizlər Azərbaycandan keçsin. Ermənistan isə işğal səbəbindən bu imkanlardan məhrum olmuşdu. Ölkədən keçən tranzit yoxdur. Zəngəzur dəhlizi sayəsində Ermənistan nəqliyyatdan tranzit haqqı əldə edəcək. Azərbaycanın ərazisi vasitəsilə Asiyadan Avropaya daşınan yüklərin həcminin hər il artdığını nəzərə alsaq, əminəm ki, Zəngəzur dəhlizi qitələri birləşdirən vacib nəqliyyat əlaqəsi olacaq".

Göründüyü kimi, Zəngəzur dəhlizi (TRIPP) yalnız nəqliyyat layihəsi deyil. O, tarixi ədalətin bərpası, regional əməkdaşlığın aləti və yeni siyasi-iqtisadi münasibətlərin başlanğıcıdır. Bu dəhliz Azərbaycanın tranzit ölkə kimi rolunu daha da gücləndirərək yük və sərnişin daşımalarının təhlükəsiz və səmərəli həyata keçirilməsinə şərait yaradacaq. Çünki Azərbaycanın strateji mövqeyi və inkişaf edən logistik infrastrukturu Zəngəzur dəhlizinin (TRIPP) regional nəqliyyat xəritəsində əvəzsiz yer tutmasına imkan verir. Dəhlizin açılması həm də Cənubi Qafqazda sabitliyin və uzunmüddətli inkişafın əsas sütunlarından biri olacaq. Azərbaycan bu məsələdə ardıcıl və prinsipial mövqe sərgiləyir. Dövlət səviyyəsində aparılan danışıqlar, beynəlxalq platformalarda səsləndirilən çağırışlar onu göstərir ki, Bakı bu dəhlizin açılmasına sadəcə milli maraq baxımından deyil, həm də regional inkişaf prizmasından yanaşır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***



**"Səngəçal terminalının elektrikləşdirilməsi" (STEL) layihəsinin təsdiqləndiyi vaxtdan üç ay keçir. Terminalın investorlarının iyunun 2-də Bakı Enerji Həftəsi çərçivəsində start verdiyi bu layihə 230 milyon dollar dəyərindədir.**

## Səngəçal terminalı yeni modellə elektrikləşəcək

### Enerjini dolayısı ilə Şərqi Zəngəzurdan alacaq terminalda xeyli qaza qənaət olunacaq, emissiyalar azalacaq

Layihə terminalın "AzərEnerji" ASC tərəfindən idarə olunan dövlət elektrik şəbəkəsinə qoşulmasını təmin edəcək. Bunun üçün terminalın ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən 220/110 kV-luq elektrik yarımstansiyası tikiləcək.

STEL Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş-elektrik stansiyasının inşasını nəzərdə tutan "Şəfəq" layihəsi ilə "virtual enerji ötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Bu mexanizmə əsasən, "Şəfəq" stansiyası elektrik enerjisi istehsal edərək onu Cəbrayıl rayonunda "AzərEnerji"yə verəcək, "AzərEnerji" isə sonra eyni həcmdə elektrik enerjisini Bakı yaxınlığında yerləşən Səngəçal terminalına ötürəcək. Hazırkı proqnozlara və planlara əsasən, "Şəfəq" və STEL layihələri birlikdə terminalın gələcək istismar dövründə əməliyyatlardan yaranan emissiyaların təxminən 50 faiz azaldılmasına imkan verəcək.

Hazırda terminal öz enerji ehtiyacını qarşılamaq üçün yeddi qaz turbinindən istifadə edir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə söküləcək və bu da istifadə olunmayan yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə şərait yaradacaq.

STEL layihəsi Səngəçal terminalının operatoru olan BP tərəfindən həyata keçiriləcək və idarə olunacaq. Layihə üzrə tikinti işləri artıq başlanıb və bu işlərin iki mərhələdə başa çatacağı nəzərdə tutulur. Birinci mərhələnin 2027-ci ilin ortalarında, ikinci mərhələnin isə 2028-ci ilin sonunadək yekunlaşacağı gözlənilir.

Xatırladaq ki, Səngəçal terminalı dünyanın ən böyük neft və qaz terminallarından biridir. Bakıdan 55 kilometr cənubda, Qaradağ rayonunun ərazisində təxminən 688 hektar sahədə yerləşir. Lakin obyektin nəhəngliyi yalnız bunda deyil. Terminalın texnoloji emal gücü gün ərzində 1,2 milyon barel neft və 81 milyon kubmetr "Şahdəniz" qazı təşkil edir. Maksimum tutumu təxminən 4 milyon barel, işlək tutumu təxminən 3,2 milyon bareldir.

Səngəçal terminalı Azərbaycanın neft və qaz sənayesində həyati əhəmiyyətə malik obyektlərdən biridir. Terminala neft və qazı texnoloji emal edən qurğular, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərinin birinci nasos stansiyası, Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) kompressor stansiyası və digər qurğular daxildir.

Dənizdəki qurğulardan terminala səkkiz müxtəlif boru kəməri daxil olur və terminaldan da səkkiz boru kəməri çıxır. Onlar müxtəlif marşrutlara istiqamətlənməklə Azərbaycan xam neftini və qazını dünya bazarlarına daşıyır. Bundan əlavə, terminal üçüncü tərəfə aid nefti də qəbul edir.

Yeri gəlmişkən: bu ilin birinci yarısında Səngəçaldan təxminən 106 milyon barel neft və kondensat ixrac edilib ki, bunun da hamısı BTC vasitəsilə nəql olunub.

Qaz isə terminaldan əsasən CQBK, bu xəttin genişləndirilməsi sistemi və terminalın qaz emalı obyektlərini "Azəriqaz"a birləşdirən ölkəmizə məxsus kəmərlə ixrac edilir. Altı ay ərzində terminaldan, həmçinin gündəlik orta hesabla təxminən 74 milyon standart kubmetr (təxminən 2 milyard 616 milyon standart kubfut) "Şahdəniz" qazı göndərilib.

Terminalın investorları sıralarına operator BP ilə yanaşı, SOCAR, TPAO, "Lukoil", SGC, NICO, MOL, INPEX, "ExxonMobil", ITOCHU, "ONGC Videsh", "Eni", MVM və "TotalEnergies" şirkətləri daxildir. STEL layihəsi üzrə yekun investisiya qərarı da bu şirkətlər tərəfindən təsdiqlənib.

Energetika naziri Pərviz Şahbazov bildirib ki, Prezident İlham Əliyevin "yaşıl enerji"dən istifadəni təşviq edən siyasəti çərçivəsində "Şəfəq" GES və "Səngəçal terminalının elektrikləşdirilməsi" layihələri üzrə mühüm mərhələnin tamamlanması ilə ölkəmizin BP ilə strateji enerji tərəfdaşlığında yeni bir səhifə açılır: "240 MVt gücündə günəş stansiyasının "yaşıl enerji zonası" ərazisində inşası və dünyanın ən böyük neft-qaz terminallarından biri olan Səngəçalın elektrikləşdirilməsi kimi önəmli elementləri birləşdirən bu layihə enerji təhlükəsizliyi və emissiyaların azaldılması istiqamətində ortaq, mütərəqqi yanaşmamızın bariz nümunəsidir. Ölkəmizin neft-qaz sektorunda ən böyük investoru olan BP-nin "yaşıl enerji" sahəsinə doğru sərmayələrini genişləndirməsi tərəfdaşlığımızın uzunmüddətli strateji təməlini daha da möhkəmləndirir. Biz BP ilə birgə təkcə etibarlı enerji təchizatını deyil, həm də dayanıqlı və aşağıkarbonlu gələcəyin əsasını formalaşdırırıq".

"Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev BP kimi dünya miqyaslı bir şirkətlə həyata keçirilən sözügedən layihələri ölkəmizin enerji sektorunun növbəti uğuru kimi dəyərləndirib: "Bu layihələr enerji təhlükəsizliyi və səmərəliliyinə əhəmiyyətli töhfə verməklə yanaşı, "yaşıl enerji"nin istifadəsinə də xidmət edir. Eyni zamanda artıq regionda enerji təhlükəsizliyinə nail olmuş Azərbaycan üçün yeni əməkdaşlıq üfüqləri açır. Enerji istehsalı və ötürülməsinə verdiyi töhfələrlə yanaşı, bu layihələr karbon emissiyalarının azaldılması səylərini də güclü şəkildə dəstəkləyəcək".

BP-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel isə hesab edir ki, qəbul edilən qərarlar şirkətin həm Azərbaycanla əməkdaşlığında, həm də regiondakı biznes fəaliyyətində yeni bir mərhələnin başlanğıcını qoyur: "Şəfəq" layihəsi ölkədə günəş enerjisi hasilatına qoyduğumuz ilk investisiya olmaqla, enerji sahəsindəki uğurlu əməkdaşlığımıza yeni bir istiqamət əlavə edir. Bu iki layihəni birləşdirən yeni innovativ yanaşma bizi sevindirir, çünki onun vasitəsilə Azərbaycanda idarə etdiyimiz ən böyük obyekt olan terminalın əməliyyatlarından yaranan emissiyaları azalda biləcəyik. Azərbaycanla əsasən neft və qaz sahəsini əhatə edən uzunmüddətli tərəfdaşlığımızda bu yeni mərhələni alqışlayırıq və əminik ki, bu, regionda dayanıqlı enerji sahəsində növbəti təşəbbüslərin həyata keçirilməsinə yol açmağa kömək edəcək".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin "Əl-Ərəbiyyə" televiziyasına müsahibəsində səsləndirdiyi fikirlər bir sıra ölkələrin mediasında geniş işıqlandırılıb

**Azərbaycan Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" televiziyasına müsahibəsində səsləndirdiyi fikirlər bir sıra ölkələrin nüfuzlu media orqanları tərəfindən geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, yayımlanan xəbərlərdə dövlətimizin başçısının Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, Vaşinqton görüşünün tarixi-siyasi əhəmiyyəti, Azərbaycan-Rusiya münasibətləri və bir sıra aktual məsələlər barədə fikirlərinə geniş yer verilib.

Türkiyənin aparıcı media orqanları, o cümlədən Anadolu agentliyi, "Haber Türk", "Haber Global", "TRT Avaz", "Hürriyet", "Yeni Şafak", "Yirmidördtv", "Ahaber", "Haber.tr", "Haber7", "Ekonomim", "Yeni Akit" və digər nəşrləri əsas diqqəti xüsusilə Azərbaycan Prezidentinin Zəngəzur dəhlizinin açılması, Suriya ilə İsrail arasında gərginliyin aradan qaldırılması, Türkiyənin qlobal arenada tutduğu mövqe ilə bağlı fikirlərinə yönəldib. Xəbərlərdə Prezident İlham Əliyevin Zəngəzur dəhlizinin bütün region üçün əhəmiyyəti ilə bağlı mövqeyi çoxmilyonlu auditoriyanın diqqətinə çatdırılıb. Dövlətimizin başçısının "Zəngəzur dəhlizi təkcə "Şərq-Qərb" nəqliyyat dəhlizi deyil, həm də "Şimal-Cənub" nəqliyyat dəhlizi olacaq" fikrinə xüsusi yer verilib. Qardaş ölkə mətbuatı həmçinin Azərbaycan Prezidentinin qlobal gündəmdəki digər aktual məsələlər, o cümlədən Yaxın Şərqdəki proseslərlə bağlı fikirlərini də diqqətə çatdırıb.

Qazaxıstanın "Inbusiness.kz", "Tengrinews.kz", "Newtimes.kz", "Inform.kz" və digər media orqanlarında dərc olunan məqalələrdə başlıca olaraq Azərbaycan Prezidentinin AZAL-a məxsus təyyarənin Aktau yaxınlığında qəzaya uğraması ilə bağlı fikirləri yer alıb. Materiallarda dövlətimizin başçısına istinadla qeyd olunub ki, Azərbaycan mülki təyyarəsinin Rusiya qüvvələri tərəfindən vurulması və Rusiya rəsmilərinin hadisəyə reaksiyası Azərbaycanda böyük məyusluq və narazılıq yaradır. Prezident İlham Əliyevin aşağıdakı sözləri sitat gətirilib: "Yalnız pilotların peşəkarlığı və cəsarəti təyyarəni yerə endirməyə imkan verdi. Xoşbəxtlikdən təyyarə Rusiyada deyil, Qazaxıstanda eniş etdi".






















"Arbatmedia.kz" nəşri dövlətimizin başçısının Azərbaycanın Yaxın Şərqə qaz tədarük edəcəyi ilə bağlı fikrini xüsusi qeyd edib. Materialda Azərbaycan Prezidentinin bu barədə "Sözsüz ki, təbii ehtiyatlarımızla Yaxın Şərqə daxil olmaq bizim üçün ilk təcrübədir" - fikri sitat gətirilib. Həmçinin Prezident İlham Əliyevin Azərbaycanın Suriyaya qazın həcmini artıra, həmçinin Ərəb Qaz Kəməri, yaxud başqa mübadilə əməliyyatları vasitəsilə digər ölkələri qazla təchiz edə biləcəyi ilə bağlı fikirlərinə də yer verilib.

Ukraynanın aparıcı mətbu orqanları, o cümlədən "RBK-Ukrayna", "Korrespondent", "Gordon", "Obozrevatel" və digər xəbər portallarında nəşr edilən məqalələrdə Azərbaycan Prezidentinin müxtəlif mövzularda fikirləri qeyd edilib. Prezident İlham Əliyevə istinadla bildirilib ki, Azərbaycan ərazi bütövlüyünün pozulmasından əziyyət çəkən bir ölkə olaraq bütün dövlətlərin ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycan Rusiya-Ukrayna müharibəsinin ilk günlərindən Ukraynanın ərazi bütövlüyünü dəstəkləyib və dəstəkləməyə davam edir.

Məqalələrdə dövlətimizin başçısının Zəngəzur dəhlizi ilə bağlı fikirləri də işıqlandırılıb. Qeyd olunub ki, məhz SSRİ-nin fəaliyyəti nəticəsində Azərbaycan ərazisinin bir hissəsini itirib. Sovet İttifaqı Qərbi Zəngəzuru 1920-ci ildə Azərbaycandan alaraq Ermənistana verdiyi üçün Naxçıvan bölgəsi anklav olub. Ukrayna mediasında həmçinin Prezident İlham Əliyevin Vaşinqtona səfəri və ABŞ Prezidenti Donald Tramp ilə görüşü barədə də fikirləri dərc edilib.

Rusiyanın TASS agentliyi Prezident İlham Əliyevin Azərbaycan ilə Ermənistan arasında razılığın əldə olunması və Zəngəzur dəhlizinin əhəmiyyəti barədə fikirlərinə yer verib. Məqalələrdə dövlətimizin başçısının Ermənistan ilə Azərbaycan arasında Vaşinqtonda əldə olunan razılaşmanın hər iki tərəf üçün ərazi bütövlüyünün tanınması baxımından əhəmiyyəti vurğulanıb. Dövlətimizin başçısının Ermənistanın razılaşmalardan imtina edəcəyi təqdirdə bunun ciddi nəticələri olacağı və Azərbaycanın buna müvafiq cavab verəcəyini qeyd etməsi xüsusi vurğulanıb. Həmçinin Azərbaycan Prezidentinin Zəngəzur dəhlizinin potensial imkanları, yeni marşrutun Şimal-Cənub istiqamətində region ölkələri üçün faydalı olacağı, həm Azərbaycan, həm Rusiya, həm də İranın bu layihədən yararlana biləcəyi barədə fikirləri diqqətə çatdırılıb.

"InterFax" agentliyində yayımlanan xəbərlərdə isə Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəstəyi ilə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin paraflanmasının əhəmiyyəti və Vaşinqton görüşünün müharibənin sonu olması və eyni zamanda bunun Cənubi Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərq regionu üçün tamamilə yeni imkanlar açması barədə açıqlaması diqqətə çatdırılıb. Bundan başqa, Prezident İlham Əliyevin Azərbaycan ilə Rusiya arasında münasibətlərin pisləşməsinə görə Rusiyanın məsuliyyət daşıdığını qeyd etdiyi bildirilib. Bu kontekstdə AZAL təyyarəsinin vurulması, Rusiyada azərbaycanlılara qarşı səbəbsiz hücumların baş verdiyi, Azərbaycanın isə konstruktiv və qanuni şəkildə hərəkət etdiyi barədə fikirləri qeyd olunub.

Gürcüstanın nüfuzlu "interpressnews.ge", "palitranews.ge", "aktual.ge", "resonancedaily.com", "24news.ge" informasiya portalları və "1tv.ge" televiziya kanalı Azərbaycan Prezidentinin müsahibəsindən materiallar hazırlayıb. Materiallarda Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın siyasi kursu, sülh siyasəti, "dərin dövlət"in fəaliyyəti, Zəngəzur dəhlizi, İran Prezidentinin açıqlamaları, eləcə də Azərbaycana aid təyyarənin vurulması ilə bağlı fikirləri geniş yer alıb.

Bolqarıstanın ən böyük onlayn xəbər portalı olan "Novini", eləcə də "Blitz", "Actualno" nəşrləri dövlətimizin başçısının Azərbaycan-Rusiya münasibətləri, AZAL təyyarəsinin vurulması ilə bağlı fikirlərinə yer verib. Prezident İlham Əliyevin Rusiya ordusunun 1920-ci ildə Azərbaycanı işğal etməsi ilə Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi, tarixi ərazilərimiz olan Qərbi Zəngəzurun Ermənistana verilməsi ilə Azərbaycanın iki yerə bölündüyü qeyd olunub.

Rumıniyanın "Adevarsıcuraj.ro" nəşri də Prezident İlham Əliyevin Azərbaycan-Rusiya münasibətləri ilə bağlı açıqlamalarına diqqət göstərib. Məqalədə Prezident İlham Əliyevin sovet Rusiyasının 1920-ci ildə Azərbaycanı işğal etməklə ölkəmizin demokratik respublika kimi inkişaf etməsinə mane olması, işğaldan çox keçmədən Qərbi Zəngəzuru Ermənistana verməsi ilə Naxçıvanın anklava çevrilməsi barədə fikirləri əksini tapıb.

# Təqsirləndirilən şəxsin ibtidai istintaqa ifadəsi ilə Azərbaycanın vaxtilə işğal altındakı ərazilərinə silah-sursatın və canlı qüvvənin Ermənistan tərəfindən gətirildiyi növbəti dəfə təsdiqlənib

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 29-da davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclası təqsirləndirilən şəxs Bako Sahakyanın cinayət işi üzrə ibtidai istintaqa verdiyi ifadələrin və ona aid elan olunan digər sənədlərin səsləndirilməsi ilə davam etdirilib.

Təqsirləndirilən şəxs Bako Sahakyan ibtidai istintaqda ifadəsində bildirib ki, o, 1993-1995-ci illərdə qondarma rejimin "müdafiə ordusu"nda "maddi-texniki təchizat üzrə qərargah rəisi" işləyib. 1994-cü ilin mayına qədər aparılan döyüş əməliyyatlarında hərbi qüvvələrin birbaşa təchizatının təmin olunmasında iştirak edib.

Bako Sahakyan 2015-2020-ci illərdə Şuşa şəhərində olan "S-300" raket kompleksini Ermənistanın Müdafiə Nazirliyinin göndərdiyini deyib.

Onun ifadəsində göstərilib ki, ümumiyyətlə, 2020-ci ildə baş vermiş 44 günlük müharibədən əvvəlki və sonrakı dövrdə silah-sursat, hərbi texnika və şəxsi heyət təminatı Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən bu ölkənin dövlət büdcəsi hesabına təmin olunub.

Bako Sahakyan ifadəsində bildirib ki, Ermənistanın Müdafiə Nazirliyi qondarma rejimin "müdafiə nazirliyi"ni silah-sursat və digər hərbi təminatla təchiz edib.

Məhkəmədə təqsirləndirilən şəxs Qarik Martirosyanın vəkili öz səhhəti ilə əlaqədar müalicə aldığını əsas gətirərək, məhkəmədə iştirakına xitam verilməsini istəyib.

Hakim təqsirləndirilən şəxsin etirazının olub-olmadığını soruşub, Q.Martirosyan isə etiraz etmədiyini bildirib.

Məhkəmənin qərarı ilə təqsirləndirilən şəxs Qarik Martirosyanın müdafiəçisinin məhkəmədə iştirakına xitam verilib.

Bildirilib ki, Q.Martirosyana dövlət hesabına yeni müdafiəçi təyin olunması üçün qərarın surəti Azərbaycan Respublikası Vəkillər Kollegiyasına göndəriləcək.

Həmçinin hakim Zeynal Ağayev bildirib ki, zərərçəkən şəxslərdən birinin vəkili (Nəzrin Məmmədli) ailə vəziyyəti ilə əlaqədar məhkəmə iclaslarında iştirak edə bilməyəcəyi və buna görə də cinayət işi üzrə iştirakına xitam verilməsi ilə bağlı onun müraciəti olduğunu qeyd edib.

Müraciətə etiraz olmadığına görə, vəkilin iştirakına xitam verilib. Bildirilib ki, yeni nümayəndənin təyin edilməsi ilə bağlı qərarın surəti Vəkillər Kollegiyasına göndəriləcək.

Məhkəmə iclası təqsirləndirilən şəxs David Babayanın cinayət işi üzrə ibtidai istintaqa verdiyi ifadəsi və ona aid elan olunan digər sənədlərin səsləndirilməsi ilə davam etdirilib.

Təqsirləndirilən şəxs David Babayanın ibtidai istintaqa ifadəsindən məlum olub ki, o, 2020-ci ildə qondarma qurumun "prezidentinin müşaviri", 2021-ci ildə "xarici işlər naziri", 2023-cü ildə qondarma qurumun "prezidentinin müşaviri - qondarma qurumun prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi" təyin olunub.

O, ifadəsində bildirib ki, qondarma rejimə silah-sursat yalnız Ermənistanın Müdafiə Nazirliyi vasitəsilə bu ölkədən göndərilib. Ümumiyyətlə, silah-sursat və digər təminatlar Gorus-Laçın-Xankəndi, Basarkeçər-Kəlbəcər-Ağdərə-Xankəndi yolları ilə gətirilib. Rejimin maliyyə mənbəyi də yalnız Ermənistandan olub. Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərində su-elektrik stansiyalarından əldə edilən enerji, həmçinin taxıl və spirtli içkilər Ermənistana satılıb. Bundan başqa, Ermənistan vasitəsilə bir çox xarici ölkələrə də spirtli içkilər ixrac olunub.

2007-2019-cu illərdə Bako Sahakyanla birlikdə müxtəlif ölkələrə səfər edərək qondarma rejimin "prezident administrasiyası"nın nümayəndəsi və tərcüməçi qismində görüşlərdə iştirak edib. Görüşlərin əsas məqsədi xaricdə yaşayan ermənilərin Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərində yaşayan ermənilərə maddi vəsait ayırmaları ilə bağlı olub.

O, ifadəsində göstərib ki, ərazilərin minalanması işlərinə 1994-cü ildən başlanılıb və "müdafiə nazirliyi" tərəfindən həyata keçirilib. Lakin konkret buna kimin göstəriş verdiyini və rəhbərlik etdiyini bilmir. Qeyd edib ki, qondarma rejimin "ordusu"nun fəaliyyəti Ermənistan silahlı qüvvələrinin fəaliyyəti ilə inteqrasiya olunmuş şəkildə həyata keçirilib.

O, ifadəsində işğal altında saxlanılan zaman bütün rayon və şəhərlərdə, xüsusilə də Ağdamda və Füzulidə mövcud olmuş bütün daşınmaz əmlakın, o cümlədən tikililərin daşınması faktını etiraf edib.

Məhkəmədə elan edilən, cinayət işi üzrə materiallara əsasən D.Babayan 2020-ci ildə 44 günlük müharibə zamanı, ondan sonrakı müddətlərdə qondarma rejimin "liderinin təmsilçisi" kimi Azərbaycan Respublikasına və onun vətəndaşlarına qarşı internet informasiya resurslarında 2021-ci il yanvarın 4-də "Biz heç vaxt Azərbaycanın bir hissəsi olmayacağıq. Biz bir dövlətdə birlikdə yaşaya bilmərik. Bu, mümkün deyil! Qonşu kimi yan-yana yaşamağa məhkumuq, başqa çıxış yolu yoxdur. Amma mən azərbaycanlılarla bir dövlət daxilində, Azərbaycan dövlətinin bir hissəsi kimi yaşamaq imkanını görmürəm, çünki belə bir vəziyyətdə Artsax, sadəcə, mövcud olmayacaq" məzmunlu çıxış edib və bunu açıq şəkildə bəyan edib.

Məhkəmə prosesi sentyabrın 1-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 5 iyun (Cümə axşamı günü) tarixli 196-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Pəncşənbə, 6 ramazanül-mübarək sənə 1337.
5 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

### ELAN

1919 həziranın 5-ci günü saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-145*

### ELAN

Bu günlərdə İran "Ədalət" firqəsinin mürəvvici-əfkarı olmaq [fikirlərini yaymaq] üzrə "Hürriyyət" adında həftəlik qəzetə nəşr olunacaqdır.

*10212*

### ELAN

Cümə günü iyun ayının 6-da saat 10-da, Rus-müsəlman məktəbində Bakı Şamaxinka dairəsi camaatı cəmiyyətinin birinci iclası, saat 11-də isə hər nə qədər üzv gəlmiş olsa, ikinci iclas təyin edilmişdir. İclasda cəmiyyətin atçotu [hesabatı] barəsində məruzə və gələcək fəaliyyəti barəsində müzakirat olunacaqdır. Üzvlərin gəlmələri vacibdir.

*10214*

### ELAN

Maarif nazirinin əmrinə binaən [əsasən], Bakı Kommerçeski məktəbdə türk çocuqlarına məxsus əlifba və hazırlıq sinifləri açılır. Ərizələr hər gün bayram günlərindən başqa məktəbin dəftərxanasında saat 9-dan 2-dək qəbul olunur. Əlifba sinifinə imtahansız, hazırlıq sinifinə isə imtahanla çocuqlar qəbul olunacaqdır. İmtahanlar iyun ayının 11 və 12-də olacaqdır.

*10213*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Maliyyə Nəzarətindən**

Köhnələnmiş pullar haqqında Azərbaycan Şurayi-Vükəlası [Nazirlər Kabineti] tərəfindən bu sənə mayın 26-da təqdir və təsvib edilmiş [bəyənilmiş və təsdiq edilmiş] qərarı ümuma elan edirəm:

1) Dörddən üç hissəsi xarab olmuş və bir tərəfdən liter nömrəsi və imzası olmayan və ya iki yarımçıq nömrələrdən bir nömrə düzəlməyən pullar heç bir halda qəbul edilməməlidirlər. Həmçinin cırılmış və bitişdirildiyi zaman nömrəsi, literi və adı bir-birinə müvafiq olmayan və bir hissəsi digər hissəsinə oxşamayan pullar heç bir halda qəbul edilməməlidirlər.

2) Birinci maddədə göstərilən pullardan başqa qalan pullar nə qədər köhnələnmiş olsa da, xəzinə kassaları tərəfindən, hər halda, qəbul olunmalıdırlar. Bununla bərabər, həman kassalar ancaq ümdə hissələri xarab olmayan pulları işə buraxmalıdırlar. Bu barədə ümuma xəbər verilib xəbərdar edilməlidir ki, bu cür pulları qəbul etməkdən imtina edən adamlar 100 manat cərimə və ya 3 gün həbsə düçar ediləcəklərdir.

**Bakı qalabəyiliyinə verilən əmrnamə**

3 iyun 1919, nömrə 107

Pristavlara təklif edirəm ki, əsgərlik vəzifəsini ifa etməkdən imtina edən cavanların valideynlərini bilatəxir [dərhal] həbs etməyə şüru edəsiniz [başlayasınız]. Əsgərlikdən qaçmış olan cavanların gəlməsinədək məhbusları həbsxanaya göndərmək üçün mənə təqdim edəsiniz.

*Bakı qalabəyisi rotmistr Qudiyev*

**Azərbaycan və Dağıstan sülh mürəxxəsləri [nümayəndələri] Vilson hüzurunda**

Bakıda müntəşir [nəşr olunan] "Bakinski jizn" qəzetəsinə Parisdən bu məzmunda bir teleqraf çəkilmişdir:

Pəncşənbə [cümə axşamı] günü gündüz Amerika rəisi-cümhuru Vudro Vilson Azərbaycan və Dağıstan sülh nümayəndələrini hüzuruna qəbul etmişdir. Azərbaycan nümayəndələrinin başçısı Əlimərdan bəy Topçubaşov və Dağıstan nümayəndələrinin başçısı Tapa Çermoyev və Xariciyyə naziri Heydər Bammatov idi. Bunlar Vilson cənablarını təbriklə bərabər, Azərbaycan və Dağıstan tələbatını müşarünileyhə [adı çəkilən şəxsə] bildirmişlərdir.

**İstiqlaliyyəti müdafiə**

Tiflis - 31 mayda Tiflisdə əmələ nümayəndələrinin iclasında zeyldəki [aşağıdakı] qərar qoyulmuşdur. Bizim cəbhəmizin halı, Gürcüstan və bütün Qafqazya millətlərinin gərək qərbdən və gərək şərqdən təhlükə altında olduqları barəsində dakladı Şura eşidərək qərar qoymuşdur:

Denikinin yürüşü inqilab sayəsində qazanılan hürriyyət və azadlığa qarşı bir qara qüvvənin əl uzatmasında, bu müqəddəs mübarizədə Əmələ Şurası bütün millətləri, bütün demokratiyanı və bütün inqilab ünsürlərini bilafərqi-sinif və millət [sinif və millət fərqi olmadan] dəvət edir ki, hökumətin başına cəm olsunlar, tainki ümumi qüvvə ilə qara qüvvənin qabağı saxlanılsın. Bununla bərabər, Şura Azərbaycan və Ermənistan demokratiyasına [xalqına] təklif edir ki, Gürcüstan ilə birləşsinlər və bu mübarizədə öz hökumətlərini gürcü hökuməti ilə əlbir işləməyə məcbur etsinlər. Hərgah bu hökumətlər Dağıstan Hökuməti gedən yolu gedərlərsə, təklif edir ki, bu cümhuriyyətlərin demokratiyası hökuməti əllərinə alıb Zaqafqaziyanı qara qüvvələrdən müdafiə etsinlər. Sonra Denikin qarşısına inqilab cəbhəsinə şitaban olunuz [tələsiniz].

Tiflis - Denikin ordusuna dair məqalə yazdıqları üçün hökumət "Novosti dnya", "Tiflisskaya qazeta"nı qapamışdır. İdarələrin möhürlənməsinə, müdirlərin tövqif [həbs] edilməsinə əmr vermişdir. Əmələ nümayəndələri şurası öz iclasında qərar qoymuşdur ki, firqə münaziəsi [çəkişməsi] yaddan çıxarılıb, müttəhidən [birgə] Gürcüstan müdafiəsinə hazırlansınlar. Şura Azərbaycan və Ermənistandan xahiş edir ki, Gürcüstana bu işdə feilən müavinət etsinlər. Hərgah bu hökumətlər Denikinə təslim olarlarsa, Zaqafqaziya demokratiyası o zaman hökuməti əlinə almalıdır.

## TELEQRAF XƏBƏRLƏRİ

**İtaliyada əmələ hərəkatı**

İtaliyada əmələlər [fəhlələr] tərəfindən edilmiş olan tətil müvəffəqiyyətli keçmişdir. Aprelin 11 tarixi ilə "Avanti" qəzetəsi yazır ki, Roma şəhəri heç bir vaxt böylə bir ümumi tətil görməmişdi. Şəhərdə tam mükəmməl sakitlik var idi. Bütün mağazalar qapalı idi. Qırmızı bayraqlarla gəzən əmələləri polis dəstəsi pərakəndə etmişdir. Artur[o] Vella və digər bir neçə nəfər əmələ başçıları tövqif edilmişlərdir.

**İngilis əmələləri Rusiya barəsində**

Stokportda ingilis əmələlərinin vaqe olan iclasında ingilislərin Rusiya işlərinə müdaxilə etmələrinə etiraz edilmişdir. Bunlar ingilis hökuməti nəzdinə xüsusi bir heyət göndərmişlərdir ki, hökuməti yenidən səfərbərlikdən vaz keçindirsin.

**Hindistanda üsyan**

İngilis Hökuməti Hindistanda Lahor və Amristar qəzalarında hinduların üsyan qalxızdıqlarını bilərək o yerləri idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] altında elan eyləmişdir.

**Casusluq**

Moskva - 30-u mayda bolşeviklər tərəfindən işbu intibahnamə [vərəqə] nəşr edilmişdir:

"Casuslardan özünüzü gözləyiniz", "Ölüm olsun casuslara". Beləqvardeyslərin [Ağqvardiyaçıların] Petroqrada yürüş etmələri göstərdi ki, cəbhə boyunda olan bütün böyük şəhərlərdə beləqvardeyslərin casusları və casusluq təşkilatları vardır. Və bunların sayəsindədir ki, bolşevik qoşunlarının istifadə etdikləri körpülər partladılır, bolşeviklərə cinayətlər edilir, arxada üsyan tərtib verilir, bolşeviklər qətl edilir. İştə, casusların gördüyü işlər bunlardır. Hər kəs öz mövqeyində olmalıdır, hər kəs dördgözlü olmalıdır. Dəmiryol əmələləri, siyasiyyunlar, qoşun qitəatına xidmət edən hərbi müəssisələr ələlxüsus xəbərdar və ehtiyatkar olmalıdırlar.

## SÜLH ƏTRAFINDA

İngilis Sülh Şurasının sədri Çarlz Tredelyan "Mançester Qardian" qəzetəsində indiki sülh müahidəsinə [sazişinə] öz etiraz protestosunu elan eyləmişdir. Müəllif deyir ki, Versal Sülh Konfransında hazırlanmaqda olan bu müahidə olsa-olsa müharibəni müvəqqətən dayandıracaqdır. Beynəlmiləl bir sülh aparatı kimi bu müahidəni tələqqi etmək olmaz. Neçə vaxt bundan əvvəl Vilsonun bəyanatında göstərilən sülhü beynəlmiləl demokratiya arzu edir. Bu sülh şəraitinin böyük tənqidə ehtiyacı vardır. Protestoda denilir ki, inqilabçı və cümhuri Almaniyaya təklif edilən sülhü vücuda gətirmək olmaz. Saar hövzəsi məsələsi öylə bir xəta vücuda gətirər ki, onu 1871-ci ildə Almaniya etmişdi. Şərqi Prussiyanın ayrılması və Dansiq məsələsi alman millətinin izzəti-nəfsinə toxunur. Mandat altında istila siyasəti gizlənmişdir. Mandat altına düşən, ya istila edilən yerlər heç bir vaxt müstəqil ola bilməz. Almanlardan tələb edilən xəsarət nəticəsi olaraq Almaniya əmələləri iqtisadən qulamlıq halına düşəcəklərdir.

Etiraz bu sözlərlə qurtarır: Kimsə inanmaz ki, bu cür sülh müahidəsi davamlı olacaqdır. Ona görə, bu müahidə hər bir demokrat tərəfindən ləğv edilməlidir. Ola bilər ki, aclıq düşmənləri sülhü imzaya məcbur eyləsin. Lakin beynəlmiləlçilər beynəlmiləl demokratiyaya istinadən sülh müahidəsinin yenidən baxılmasına Müttəfiqləri vadar edə biləcəklərdir.

## QƏZETƏLƏRDƏN

**Cənubi Rusiya Konfransı**

"U[tro] Yu[qa]" qəzetəsinin mötəbər mənbələrdən aldığı məlumata görə, dövləti təşkilatların Yekaterinodarda mayın 18-nə təyin edilmiş iclası baş tutmayıb, bir aya qədər təxirə salınmışdır. Nahiyə hökuməti nəzdində olan zabit Drobışev bu yaxın günlərdə Batuma, Ermənistana, Azərbaycana, Gürcüstana və Lənkərana göndərilir ki, konfransa nümayəndə dəvət etsin.

**Bıç və Kuban istiqlaliyyəti**

"Tan" qəzetəsinin 20 aprel tarixli nömrəsində "Kubanlıların iddiası" ünvanında bir məqalə dərc edilmişdir. Kuban Radası sədri və Parisdə olan Kuban heyəti rəisi L. L. Bıç bolşevikləri qovandan sonra elani-istiqlaliyyət etmiş öz məmləkəti namından Sülh Konfransına bir müxtirə [yazılı qeyd; nota] təqdim etmişdir.

Kuban xalqı nail olmaq istəyirlər:

1) Kuban istiqlaliyyətinin təsdiq edilməsi;

2) Xalq tərəfindən intixab olunmuş [seçilmiş] onların hökumətinə və parlamanına mənəvi müavinət edilməsi, həmçinin bolşeviklərlə mübarizə üçün demokratik təşkilatlar üçün onların hökumətinə texnika müşavirləri göndərilməsi.

**Kiyevdə**

Moskvadan verilən bolşevik xəbərlərinə görə, Ukraynada olan Xalq Komissarları Şurası Polşa imperialistləri tərəfindən irəli gəlməkdə olan təhdid ilə mübarizə etməkdən ötrü istihzari-əsgəriyyə [hərbi çağırış] elan edilmişdir.

**Kerenski pulları**

Kerçdən xəbər verirlər ki, Bələdiyyə İdarəsi 10 milyon rublə miqdarında Kerenski parası buraxmağı qərara almışdır.

**Sevastopolun topa tutulması**

Sevastopoldan xəbər verirlər ki, Sevastopol İngiltərə gəmiləri tərəfindən bombardman edildikdə Korabelnaya Slobodka qarət edilmişdir. Burada olan bolşeviklər üsyan etmək istəmişlər. İngiltərə komandanlığı bolşeviklərə əmr etmişdir ki, 14 verst Sevastopoldan kənara çəkilsinlər.

**Bolşeviklər və Finlandiya**

Bolşeviklər Finlandiya ilə müzakirata girişməyə çalışırlar. Petroqradı öz əllərində saxlamaqdan ötrü bolşeviklər Voloqodski quberniya ilə Kareliyanın bir hissəsini Finlandiyaya verməyə razıdırlar. Lakin finlandiyalılar cavab verməyirlər.

**Almaniyada**

Spada olan İngiltərə heyəti sədri Almaniya nümayəndəsinə böylə bir nota vermişdir:

*"Mən vəkil edilmişəm sizə xəbər verim ki, aprelin 16-cı gecəsi Müttəfiq dövlətlər Almaniya firmalarını və xüsusi şəxsləri göstərici siyahını geri götürməyi qərara almışlardır. Almaniya ilə ticarət münasibatına dəxli olan hamı məmnular [bütün yasaqlar] ləğv edilirlər. Müttəfiq dövlətlər ancaq bu siyahılardan əlahiddələrini təqdim etmək ixtiyarını özlərində saxlayırlar."*

**Romaniyanın ultimatumu**

Peştədən xəbər verirlər ki, Seyqrad əsgərləri komandanı Romanya general[ı] Merderesku Macarıstan elçisi Vertə böylə bir mütarikə şəraiti [atəşkəs şərtləri] vermişdir:

Romanya və onun müttəfiqləri əleyhinə hərəkət etməkdə olan bilaistisna macar əsgərləri tezliklə tərk-silah edilməlidirlər. Bütün silahlar, avtomobil, at, araba, libas, ərzaq və mühimmati-hərbiyyə [hərbi sursat] təslim edilməlidir. Mütarikə şəraiti imza edildikdə, 10 gün sonra bu istənilən şeylər verilməlidir.

**Amerikalılar və Vilson**

Yekaterinodardan xəbər verirlər ki, amerikalılar Vilhelmin müharibə mütəşəbbisi sifəti ilə məhkəməyə verilməsi əleyhinədirlər. Ancaq onlar Vilhelmin müharibəni aparmaq işində məhkəməyə verilməsinə razıdırlar.

## TÜRKİYƏDƏ

**Bolşeviklərin təşviqatı**

İstanbuldan gələnlər nəql edirlər ki, Türkiyə paytaxtında bolşeviklərin təşviqatı özü üçün möhkəm yuva salmışdır. Körpülərdə bolşeviklərin növbətçi xüsusi agentləri vardır. Bunlar paroxodlarda gələn rus əsirlərini təqib edirlər. Paroxod sahilə yanaşan kimi şübhəli adamlar dərhal paroxoda daxil olub məccani [pulsuz] nahar etmək, hətta sinematoqraf bileti verirlər. Sonra onlar əsil müşəvviqlər [təşviqatçılar] ilə görüşüb öz işlərini görürlər.

Könüllü ordu cəbhəsinə göndərilməkdə olan legioner dəstəsi bunların qurbanı olmuşdur. Odessanın işğalı ilə İstanbul bolşevik acentələri ilə dolmuşdur.

**Sultan İstanbuldadır**

Sultanın İstanbuldan Asiyayi-suğraya [Kiçik Asiyaya, Anadoluya] köçürülməsi haqqındakı şayiələr tamamilə əsilsizdir. Sultan əvvəlki kimi İstanbuldadır. Hər cümə günləri də məscidə namaza gedir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

Ticarət və Sənaye və Ərzaq nazirinin neftin Batuma aparılacaq şəraitinin yüngülləşdirilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Neftçilər İttifaqı nəzdindəki büroya Batuma neft və neft istehsalatının [məhsullarının] mal mübadiləsinə dair verilmiş məcburiyyətdən kənar göndərilməsinə müsaidə [icazə] verilməli, fəqət neft və istehsalatı orada Azərbaycan Hökuməti nümayəndəsi kontrolu altında satılmalıdır. Əlavə aparılacaq mallardan alınacaq aksiz vergisi, gömrük vergisi və fraxt vergisini neft satılanadək təcil etməli [təxirə salmalı]. İşbu şərait üzrə də Ticarət və Sənaye və Ərzaq nazirinə də Batumdakı nümayəndəsi namına neft aparmağa izin verilsin. İşbu neft əvəzində dövlətə lazım mallar gətirilməlidir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

"Elektriçeskaya Sila" cəmiyyətinin bütün şöbələri xidmətçi və fəhlələri müştərək komitəsi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, mayısın 30-da iniqad etmiş [baş tutmuş] komitənin iclasında qət edildiyi üzrə cəmiyyət Fəhlə Konfransı və Məsai Nəzarətinə müraciətən müştərək müqavilənamənin [kollektiv müqavilənin] qəbul edilməsi ilə bərabər, ərzağın gündən-günə bahalaşması münasibətilə yuxarıda məzbur [adı çəkilən] cəmiyyət, Konfrans və Nəzarətdən məvaciblərinin artırılması haqqında müavinət istəsinlər. Əks surətdə komitəni öz tələbatına əməl etdirmək üçün fəaliyyətində azad buraxsınlar.

**Müştərək müqavilənaməyə dair**

Müştərək müqavilənamə tərtibindəki komisyonda fəhlə və müəssisədarların iştirak etməkdən imtina etdiyindən naşi [ötrü], hal-hazırda Məsai Nəzarəti özü-özlüyündə müştərək müqavilənamə tərtibi ilə iştiğal edir [məşğul olur]. Müqavilənamə tərtib edildikdən sonra hökumət və Məclisi-Məbusanda təsdiq edilərək qanun kimi qüvvəti haiz olacaqdır [qüvvə daşıyacaqdır].

- Vükəla Şurasının qətnaməsi mövcibincə [Nazirlər Kabinetinin qətnaməsinə əsasən], Ermənistan müsəlmanları üçün 3 milyon rublə buraxılmalıdır. Həman məbləğ təxsisinədək 20 milyonluq fonddan 1 milyon rublə buğda və başqa ərzaq alınması üçün buraxılmışdır; binaənileyh [ona görə], Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Qaçqınlar şöbəsi müdirinə teleqrafən ərzaq alınmasına başlamağı rica etmişdir.

- Şamaxıda qaçqınlar üçün ərzaq alan təsərrüfat məmuruna Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti teleqrafən xəbər vermişdir ki, İrəvandan qaçıb Mədrəsə kəndinə yerləşdirilmiş müsəlman qaçqınları üçün Gəncə qəzasından 24 cift [cüt] öküz alınsın. Zira qaçqınlar çöl işlərinə şüru edəcəklərdir [başlayacaqlar].

- Ermənistan Hökuməti[nin] Ermənistanda müsəlman qaçqınları üçün heç bir təşəbbüsatda bulunmadığını nəzəri-etibara alaraq Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Ermənistan Hökuməti nəzdindəki siyasi nümayəndə [Məhəmməd] xan Təkinski vasitəsilə Ermənistan Hökuməti indində [yanında] İrəvanda Azərbaycan Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti müvəkkilliyi güşadına [açılmasına] müsaidə istəmişdir. Müvəkkillik məsələsi Vükəla Şurasının 2 iyun iclasında təhti-qərara alınmışdır.

- Ermənistandakı müsəlman qaçqınlarının əhvali-ələmnaklarını [qəmli hallarını] Amerikanın Yaxın Şərqə Müavinət Cəmiyyəti qarşısında təsvir etdikdən sonra, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti rica etmişdir ki, Ermənistandakı müsəlmanlara da cəmiyyət yardımda bulunsun.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti məmuru Ryumin Ağdamda ip toxuyan başqa emalatxanalar güşadı üçün göndərilmişdir. Həman emalatxanalarda qaçqınlar çalışacaqdırlar.

## RƏİSİ-VÜKƏLA VƏ MƏSAİ NAZİRİ HÜZURLARINDA FƏHLƏ NÜMAYƏNDƏLƏRİ

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Təbliğat və Təşkilat şöbəsinə böylə bir şikayət gəlmişdi ki, axırıncı zabastovkada iştirak etməyən fəhlələrin maaşlarını bu vaxta kimi verməmişlər. Bu barədə Təbliğat və Təşkilat şöbəsi tərəfindən Cavad bəy MəlikYeqanov, Hüseyn Müzəffərov və Yunis Rəfizadədən ibarət bir heyət Məsai nazirinin yanına gedib əvvəla mart ayının 20-dəki zabastovkada iştirak etməyən fəhlələrin məvacibləri barəsində, sonra may ayının 6-da vaqe olan zabastovkanın verilməmiş məvacibləri barəsində, ondan sonra mayın 28-də vaqe olan İstiqlal bayramında işlərindən əl çəkən fəhlələrin verilməmiş muzdları haqqında müsahibədə bulunmuşlar və rica etmişlər ki, bu vaxta kimi saxlanmış olan o məvaciblərin verilməsi barəsində lazımi təşəbbüsatda bulunsunlar. Və bir də ayda verilən 360 manat pasobiya [müavinət] barəsində danışıb rica etmişlər ki, həmin pasobiyanı tətil günlərinə görə də çıxmasınlar və ayda iki növbətlə fəhlələrə versinlər. Mənzil və mənzilin mayəhtacları [avadanlıqları] hamı fəhlələrə bir qayda ilə verilsin. Fəhlələr "kateqoriyalara" ayrılmasınlar. Müştərək müqavilənamə (kollektivni doqovor) barəsində danışıb təvəqqe etmişlər ki, müqavilənamənin qəbul olunmuş iqtisadi tərəfləri qəzetələrdə elan olunsun. Bu barədə Məsai naziri cavab vermişdir ki, mən hökumətlə danışıb tez bir zamanda qəzetələr vasitəsilə elan edərəm.

Mənzil məsələsinə gəldikdə, nazir cənabları söyləmişdir ki, bu bir sui-təfəhhümdür [yanlış anlaşılmadır]. O barədə dəxi binagüzarlıqda [təşəbbüsdə] bulunacaqdır və hər nə əldən gəlsə, əsirgəməyəcəkdir.

Sabahı gün Cavad bəy Məlik-Yeqanov, Mirzəağa Kərimzadə, Məşhədi Həmid Paşazadə, Əflatun və Səfdər bəydən ibarət heyət Rəisi-vükəla [Baş nazir] Nəsib bəy cənablarının hüzuruna gedib bu məsələləri rəis həzrətlərinə də söyləmişlər. Rəis həzrətləri böyük ehtiramla onları qəbul edib telefonla Məsai nazirinə xəbər vermişdir ki, zabastovkalarda iştirak etməyən fəhlələrin maaşlarını vermək barəsində mədən sahiblərinə əmr etsin və kollektivni doqovor barəsində Məsai naziri layihə tərtib verib hökumətə təqdim etsin ki, hökumət də qəbul edib fəhlələri razı salsın.

Heyət Rəisi-vükəla həzrətlərinin çox razılıq ilə əllərini sıxıb ayrılmışdır.

## ŞİMALİ QAFQAZI SATANLAR!

"Azərbaycan" qəzetəsinin 3 iyun 919 tarix və 194 nömrəli nüsxəsində şəhərimizdə bulunan Şimali Qafqaz millətləri xadimlərinin Məclisi-Məbusan rəisi Həsən bəy Ağayev həzrətlərinə dərmiyan eylədikləri [meydana qoyduqları] millət xainləri haqqında mütaliələri dolayısı ilə fikri-acizimi dərmiyan edirəm.

Şimali Qafqaz Cümhuriyyəti bir sənə əvvəl təşəkkül etdi. Amma istiqlaliyyətdən, hökumət və parlamentonun mövcudiyyətindən millət nə dərəcəyə qədər xəbərdar idi? Nikolay dövründə yalçın qayalar arasında hücralarda yaşayan kəndlər hanki tərzi-idarə və üsul ilə idarə olunurlardı isə, istiqlaliyyətləri dövründə də qətiyyən əski həyatlarından, yaşayışlarından bir fərq görülməyir, onlar genə köy muxtar və imamının riza və qərarları ilə iş görür və yaşayırdılar.

Altı ay və ya bir sənədir hökumət təşəkkül edir də, hökumət müməssili [nümayəndəsi] olan (pək ufaqdan başlayalım) qəza qaimməqamlarını da uyezdlərə göndərmək mümkün olmazmı? Qəzalarda, kəndlərdə cüzi də olsun təşkilatlar yapmaq mümkün olmayırmı?

Heç olmazsa, bir jandarma komandanı və yaxud hər hanki bir qüvveyi-icraiyyə mümməssili göndərilsin də, Teymurxanşurada yaşayan hökumət[in] əvamirini [əmrlərini] təbliğ və icraatını tətbiq etsin, o da yox.

"Şurada" hər iş yolunda, Parlament var, nazir var, naçalnik var, milisə var, fəqət bu mövqelər və mövqeləri işğal edən zatların bütün o əmri Teymurxan-şura daxilində və bütün icrası kəza "Şurada"dır.

Bu işlərin bu surətlə cərəyanından anlaşılırdı ki, Şimali Qafqazya Hökuməti məhafili miyanında [hökumət dairələri arasında] xainlər var idi və bunlar müstəqil yaşamaq istəyən milləti kəndi arzusunda buraxmayacaqlar. Millətin gözü açılmağına bütün vəsaitlə mane olacaqlardır və olurdular. Şimdi möhtərəm millət xadimləri fərqinə varmış da, hökumət və parlament üzvləri miyanında millət xainləri Denikin tərəfdarı var imiş də, hətta Denikin generalları ilə də müxabirə edirlərmiş [əlaqə saxlayırlarmış].

O vaxt o məsələlər açıq-açığına aşkar ikən məsələnin üzəri açılmaq istənilməyirdi. Nə vaxt Parlamanda istiqraz məsələsi müzakirəsinə keçilir, heç bir qəpik millətə mənfəət olmaya-olmaya həman o zavallı və bigünah millət naminə "qospoda [cənablar], büdcə qayət zəifdir, Azərbaycandan avans almaq lazımdır". Nə vaxt son istiqraz alınırdı, o vaxtdamı o millət xainləri fərq edilmişdi? Həman o düşmənlərin pis əməl və məqsədləri uğrunda sərf ediləcəyini bilərək istiqraz məsələsini bir səslə bütün Parlaman üzvləri müvafiq görür, qəbul edirdilər.

İştə, Şimali Qafqaziya üçün verilən qərz [borc] Azərbaycan füqərayi-kasibə və kəndlisinin alın təri ilə qazanaraq cəm etdiyi məbləğlərdir ki, məzkur [deyilən] məbləğin Şimali Qafqaz millətləri üçün heç bir mənfəət təmin etməyəcəyi fərz edildiyi surətdə qərzə bütün mövcudiyyəti ilə mane olunmuş olsaydı, həm Azərbaycan millətinin hüququna təcavüz edilməz və həm də həyatımıza qəsd edəcək düşmənin bir az daha güclənməsinə mane olardıq.

İştə, o cinayəti bilə-bilə irtikab edənlər [işləyənlər] haqqında heç bir xitabda bulunulammaz. Amma bilərək istəməyə-istəməyə və qayət safdilanə bərabərcə səs o hərifi-naşəriflərlə verərək Azərbaycan müsafirləri möhtərəm Şimali Qafqaz millətləri xadimləri bu dəqiqə kəndi vicdanları hüzurunda məsul və müəzzəb olmayırlarmı [əzab çəkmirlərmi]?

O vaxt hər bir səlahiyyət və iradə əldə və o xətaların təshihi [düzəldilməsi] mümkün ikən əcəba o vaxt nə üçün sükut ixtiyar edilirdi? Millət yolunda çalışmaq və fədakarlıq ixtiyar etmək cəsarəti-mədəniyyə iqtizasından [şərtlərindən] deyilmidir?

Nə üçün hər hiss edilən xainin xainliyini üzünə çarparaq onu divani-məhkəməyə çağırmayırdılar?

O kimilərin üz qaralarını millət vəkilləri hüzurunda üzünə vuraraq aralarından dəf etməyirdilər?

Çeçenistandan övdət etdiyi [qayıtdığı] zaman Əbdülqadir və Yusif hacıların irtikab etdiyi [işlədiyi] bütün alçaqlıqlar möhtərəm doktor Rusovun bəyanatı ilə aşkar olduğu halda belə nə üçün arada bulundurur, nə üçün onların irtikab edəcəkləri cinayat [cinayətlər] millətə xəbər verilərək dəf etdirilmədi?

Ən əhəmiyyətsiz, fəqət vaxtsız sükut nəticəsi böylə fəlakətlər meydana çıxdı. O vaxt ufaq və cüzi zayiat nəticəsi əldə ediləcək müvəffəqiyyət bu saat on, yüz misli fədakarlıqla zayiat nəticəsi pək müşkül olaraq əldə edilər.

Millət vəkil və xadimləri!

Haqq, ixtiyar və iradələrini vicdanınız öhdəsinə bulundurduğunuz 25 min məsumun haqqı[nı] göz görə-görə yeyənlər kəndi alını tərləri ilə həyatları bahasına alınan paralarını, qanlarını içmək, həyatlarına, irz və namuslarına qəsd etmək, yurdlarını yaxaraq haqlarını payimal etmək [tapdalamaq] istəyən düşmənlərin mənfəətinə sərf olunduğu cüzi fərq edildiyi zaman nə üçün həmiyyət damarlarınızdakı qanlar qələyana gəlmədi [coşmadı]? Nə üçün vicdanlarınız vaxtında üsyan edərək nəfslərinizi təhrik etmədi?

Naz və nemətı ilə pərvərdə olduqları [bəsləndikləri] o füqəra, məsum, həqiqətən fədakar millətin haqq, ixtiyar və istiqlallarını düşmənlərə təslim etmək kimi cinayəti hissiyyati-insaniyyələri heç də rəncidə olmaya-olmaya irtikab edən o insan qılığında həriflərdən vaxtında və hal-hazırda müdafieyi-hüquq etməyə bilvasitə [vasitəli, dolaylı] və ya vasitəsiz bizzat [şəxsən] müqtədir ola bilən məsum millətin, əlbəttə, bir gün haqqını arayacaq, bu cinayətlərin səbəbini təhqiq edəcək, hamısı meydana çıxacaqdır. Bu gün təhəmmülsüz və mövhum qüvvələrə müstənidən [dözümsüz və xəyali qüvvələrə istinad edərək] müqəddəratından məsul olduğu millətini satan adamların qarşısına yarın polad pəncəli əlləri ilə həman o millət çıxaraq bizzat haqqını istirdad eyləyəcəkdir [geri alacaqdır].

Zülmün topu var, gülləsi var, qəl'əsi varsa,
Haqqın da qırılmaz qolu, dönməz üzü vardır.

*S. Nuri*

## MİLLİ BAYRAM VƏ QADINLARIMIZ

1919 tarixində mayıs 28-də Azərbaycan istiqlaliyyətinin səneyi-dövriyyəsi [ildönümü] münasibətilə milli bayram təşkil olunmuşdu. O günün şərəfindən, təsirindən hər kəs şən, hər kəs məsrur [sevincli] idi.

Məsrur idi, amma bu bayramın hər kəsdən artıq qadınlar tərəfindən fövqəladə bir ruh yüksəkliyilə qarşılandığını o günü küçələrə tökülən qadınların rəftarı sübuta kafidir zənn edirəm.

Necə ki, məbus [Parlamentin üzvü] Əsəbulla Əhmədov cənabları Məclisi-Məbusanın o günə məxsus təntənəli iclasında çocuqları qucağında olan qadınların bugünkü milli bayrama, bugünkü sürur və şadmaniyə iştirak etməklərini tədadla [qeyd etməklə], ittihadla qarşılanan Azərbaycan istiqlaliyyətinin əbədilik olmasına böyük ümidvar olduğunu səmimi olan nitqlərində irad buyurdular [ifadə etdi].

İllərlə evindən dişarı çıxmayan, yanıbaşında bir-birindən kiçik çocuqlarını güc hal ilə saxlayan, erkəkləri razı olub da, kəndiləri dişarı çıxmağı sevməyən qadınlar, o günü sabah erkəndən çarşabını başına alıb, erkəyi ilə evindən çıxan və milli bayramın kəndi iştirakı ilə müşərrəf olduğunu [şərəfləndiyini] zənn edənlər axşama qədər deyil, ta gecə yarılarına qədər aclığa baxmayıb, yorğunluğa baxmayıb, kəndisini o güruh [qələbəlik, kütlə] içərisinə, o təntənə daxilinə atıb, qalib bir dövlətin şanlı, müzəffər qalib əsgəri kimi böyük sevinc və sürur ilə soqaqlarda dolaşırlardı.

Məəttəəssüf [təəssüf ki], bədbəxt qadınların bugünkü bir günlük sururu, şadlığı da üzlərinə qapandı. Ömürlərində bulvar tamaşası görmədikləri və bundan sonra da görməsi qeyri-qabil olan və ancaq bu günün şərəfinə gündüzü deyil, gecəsinə erkəyindən min dürlü vasitələr, ricalarla izin alan qadınlar axşam bulvar tamaşası, həm də böylə təntənəli, dəbdəbəli bulvar tamaşası üçün, gündüzdən axşam görəcəyi ləzzətli seyrləri ürək çarpışı ilə gözləyən qadınların üzünə bulvar qapısı da bağlandı.

Polis nəfərlərimizin qadınlar üzərinə olan qaba rəftarları Nikolay dövrünün qaradovoylarını xatirə gətirirdi. Və həmanki qəlblərdən silinməkdə olan xatirələrini bu sevimli gündə, bu fərəhli qəlblərdə, bu çırpınan ürəklərdə rəkz edirdi [ayağa qaldırırdı, canlandırırdı].

Ömründə ilk dəfə görəcəyi və bir daha görəcəyinə ümid edəmmədiyi və ancaq bu günün şərəfinə nail olduğu bu kəraməti itirib, bu gün gördüyü təntənə, sürdüyü zövq və səfalar burnundan tökülə-tökülə, güruh-güruh qadınlar məyusanə evlərinə övdətə [qayıtmağa] məcbur olurlardı.

Azərbaycan istiqlaliyyətinin Azərbaycan vilayətində, Azərbaycan paytaxtında, azərbaycanlılara mənsub olan bulvarın bilafərqi-din və millət [millət və din fərqi olmadan] hər kəs üçün güşadə [açıq] olan qapısının Azərbaycan qadınlarının üzünə bağlanması, həm də gündüz-gecəsi ömründə bir saatlıq bulvarın havasından məhrum buraxılmaları həqiqətən insaf xaricində bir şeydir.

Bütün ömrünü bulvarda keçirən, gündüzü-gecəsi ilə bərabər bulvarın skamyaları üzərində buraxılan, yanlarını skamyalar ağradıb o yanına-bu yanına çevrilib də gecə yarılarına qədər bulvarda qalan erkəklər o gecə kəndiləri çıxıb da, o günün şərəfinə ehtiramən də olsa bir saatlığa yerlərini, skamyalarını ana-bacılarına tərk etsəydilər, qiyamətmi qopardı?

Həmin polis məmurları soqaq ortasında durub da, qadınların yollarını gözləyib, qabaqlarına keçib evlərinə qaytarmaq vəzifəsi yerinə, həmin polis məmurları bulvar qapılarında durub da, qadınları bulvara buraxıb və kəndilərinə pasibanlıq [gözətçilik, qarovulçuluq] eyləyə idilər, nə olardı?

O günün sabahısı bir qaç yerdən bəzisini az tanıdığım xanımlar tərəfindən telefona çağırıldım. Yarım saat müddəti çəkən suzişli [ürək yandıran] söhbətlərin həpsi qadınlarımızın bədbəxtliyinə dair idi.

Erkəklər tərəfindən təhqir edilən, heç məsabəsində [yerində] hesab olunan, varlıqlarından iftixar deyil, qalə alınmayan [diqqətə alınmayan, əhəmiyyət verilməyən] qadınlarımız şikayətlərini mənə söyləyir və məndən imdad tələb edir. Zavallı həmşirələrim [bacılarım] düşünməyirlər ki, mən də onlar kimi zavallı qadınların birisiyəm. Mənim onlara nə kimi yardımım ola bilər?

İştə, bir şey daha xatirimə gəldi ki, onu da söyləməkdən qalmayacağam. Erkəklərimiz kəndiləri millətimizin həşəmətli günü üçün hazırlıqlar görəndə bir parça nöqteyi-nəzərlərini də qadınlar tərəfinə fırlada idi və qadınlarımız da oraya toplaşa idilər. Məclisi-Məbusan binasının içi və dişarısı erkəklərimiz üçün hazırlananda, onun yanıbaşında olan Realnı məktəbinin binası da xanımlarımız üçün təyin edilə idi də, soqaq ortasında toplanıb hökumətin istiqlalı üçün səninlə şadlıq edən, sənin kimi onun da milləti yolunda ürəyi çırpınan, soqaq ortasında olunan zülümlər, edilən həqarətlərə baxmayıb saatlarla dəniz dalğası kimi dalğalanan qadınlar o gün o qədər zəhmət çəkməyə idilər.

O gün irad olunan nitqlərdə ancaq möhtərəm Məhəmməd Əmin əfəndi Rəsulzadə cənabları qadınların bugünkü sürur və şadmaniyə daxil olduqlarını nəzərdən dur [uzaq] tutmamışlar ki, natiq əfəndi hərarətli nitqlərində qadınların da varlıqlarını tədadla [qeyd etməklə], qadınların da iştirak etməkdə olduqlarını bəyan buyurdular.

*Şəfiqə Əfəndizadə*

## TARİXİ BİR MÜTALİƏ VƏ TƏNQİD

31 mayıs 1919 tarix və 18 nömrəli "İstiqlal" qəzetəsinin İstiqlal Bayramını təbcil edən [tərifləyən] baş məqaləsində şöylə bir fəqərə [əhvalat] vardı:

Osmanlı bayramları, məsələn Qayı xan kimi Osmanlı türklərinin münəccisi [xilaskarı] olan bir böyük hökmdar ilk meydana çıxışı ilə Qayı xan sülaləsinin əhfadı [nəvəsi] olan Ərtoğrul qazinin Osmanlı hökmdarlığını təsis eyləməsi tarixini yada gətirən bayramları yoxdur. Şübhəsiz, o günləri yada gətirən bir tarixi bayram vardır, amma Osmanlı ənənəsində, Osmanlı tarixində məchul qalmışdır. Hər kəscə məlum olan bir həqiqəti-tarixiyyədir ki, Səlcuq padşahı [Birinci] Əlaəddin Keyqubad zamanında Çingiz xanın orduları Xarəzm və həvalisini [ətrafını] zəbt etdiyindən, oralarda yaşayan oğuz türkmənləri qəbilələrinin çoxu Anadoluya köçmüş və bu miyanda [bu arada] Qayı xan qəbiləsinə mənsub Qaya Alp oğlu Süleyman şah da məiyyətindəki 50 min kişi ilə Ərzincan və Əhlət tərəflərinə yerləşmişlərdi. Binaənileyh [odur ki], o zaman Qayı xan kimi Osmanlı türklərinin münəccisi (!) olan bir böyük hökmdar (!) yox idi.

Fərz edəlim vardı. Fəqət bunu birinci olaraq tövsif [təsvir] etmək əcəba doğrumu? Süleyman şah, qəbiləsini bilasəbəb [səbəbsiz] heç bir vaxt qan tökməyə[n], yasaya itaət edən və etdirən, üləmaya hörmətkar, bilatəfriqi-cins və məzhəb xalq arasında müsavatı təsisə əzmkar böyük türk xaqanı Çingizin əlindənmi qurtardı? Ərzincan tərəflərinə yerləşən Süleyman şah və məiyyəti [onu müşayiət edənlər] yeddi sənə sonra əski vətənlərinə dönmək istədilər, fəqət Fərat nəhrini keçərkən Süleyman şah boğuldu, qəbiləsi ikiyə ayrıldı. Müşarünileyhin [haqqında danışılan şəxsin] oğlanlarından Ərtoğrul [Qazi] və Dündar bəylər özlərindən ayrılmayan 400 çadır xalqı ilə geriyə döndülər. Yolda müharibə edən iki orduya rast gəldilər. Zəif tərəfə yardım etdilər. Qələbəni Səlcuqilərə qazandırdılar. Bunun üzərinə Konyada oturan Səlcuq sultanı İkinci Əlaəddin [Keyqubad] məmnunən [razı qalaraq], Söyüd və Domaniç tərəflərini yaylaq və qışlaq olaraq onların iqamətlərinə verdi.

Ərtoğrul boş durmayaraq civardakı rum bəyləri ilə mücadilədə davam və hüdudlarını tövsi etdi [genişləndirdi]. Fəqət mətbusu [tabe olduğu] daima Səlcuq sultanı idi. Ərtoğrulun vəfatından sonra oğlu Osman [Qazi] qəbilənin rəisi oldu. Bu sırada Səlcuq sultanı olan Üçüncü Əlaəddin öldürüldü. Binaənileyh sultanlıq inhilal edərək [dağılaraq] kiçik-kiçik birər xanlıqlara inqisam etdi [bölündü]. Səlcuq hökumətinin bu surətlə inqirazı [çöküşü] üzərinə 699 sənəsində türkmən bəylərindən mürəkkəb [ibarət] bir qurultayın intixabı [seçməsi] ilə türk yasasına görə məşru [qanuni] bir surətdə Osman müstəqilən xan elan edildi. Şu halda Osmanlı türklərinin istiqlalı bu tarixdən və bilaxirə [daha sonra] yapılan tədqiqati-əmiqəyə [dərin tədqiqlərə] nəzərən də 17 kanuni-əvvəl [dekabr] günündən başlar. Yoxsa mühərriri-məqalənin [məqalə müəllifinin] buyurduqları kimi "Qayı xan sülaləsinin əhfadı olan Ərtoğrul Qazi Osmanlı hökmdarlığını təsis (!)" eyləməmişdi. Əsasən, ismindən anlaşıldığı vəchlə "Osmanlı" namı Osmana izafətən tövsim edilmişdi [qoyulmuşdu].

Buraya qədər müvəzzəhən [açıqca izah edərək] ərz etdiyim tarixi həqiqətlər yalnız mühərriri-möhtərəmlə mənə aid bir həsbihaldır [söhbətdir]. Fəqət sonra: "Osmanlı hökmdarlığını təsis eyləməsi tarixini yada gətirən bayramları yoxdur (!). Şübhəsiz, o günləri yada gətirən bir tarixi bayram vardır, amma (?!...) Osmanlı ənənəsində, Osmanlı tarixində məchul (?!...) qalmışdır."

Osmanlı türklərində 1327 sənəsində İstanbulda və mütəaqibən [onun ardınca] vilayətlərdə "Türk Ocaqları"nın qurulması ilə intibah və hərəkəti-milliyyə qüvvətli bir surətdə tövsi eyləmişdi [yayılmışdı]. Akçuraların, Ağayevlərin, Rəsulzadələrin yardımı ilə bərabər, başında ictimaiyyatçı [sosioloq] Ziya Gökalpı, şair Məhməd Əmini, pedaqoq [Babanzadə] İsmayıl Haqqısı, xətib [natiq] Həmdullah Sübhisi və sairəsi bulunan bu hərəkəti-milliyyənin pək çox mümənssilləri [nümayəndələri] vardı və bu gün təzayüd etməkdədir [çoxalmaqdadır]. Hərbi-ümuminin nətayici-məşuməsi [uğursuz nəticələri] səbəbi ilə şimdilik müvəqqət bir inqitaya [kəsintiyə] uğramışsa belə, hər sənə yapılmaqda olan İstiqlal Bayramından maəda [başqa], ictimaların təksirindən [yığıncaqların artmasından] hasil olacaq fəva-idi [faydaları], yəni təlqinlərin qüdrətini təqdir edənlər başqa milli bayramlar da ehya etmişlərdir [canlandırmışlar, əmələ gətirmişlər].

*Həsən M. oğlu*

## LƏNKƏRANIN HALINA DAİR

Neçə müddətdən bəridir ki, bədbəxt Lənkəran əhalisi bir taqım vicdansızların zülüm və əsarətində yaşamaqdadırlar. Həman vicdansızların zülümü o məqama çatmış ki, bu biçarələr gün batmamışdan kəsb[ü]karlarını [qazanclarını, işlərini] buraxıb evlərinə gedirlər. Gedirlər də, fəqət gecələr evlərində belə asudəxatir otura bilməyirlər. Səbəbi həman vicdansızların dürlü-dürlü bəhanələrlə gecə biçarə müsəlmanların evlərini axtarmalarıdır. Axtarırlar da, əllərinə tüfəng, patron kimi şeylər keçmədiyindən, dəyərli şeylərdən götürüb aparırlar. Həman bu kimi zülüm, əziyyətlərə bu biçarələr təhəmmül edib [dözüb] işin axırını dörd gözlə gözləyirlər. Bu yazıqların ümidi hər bir tərəfdən kəsilibdir. Kimsə yoxdur ki, dərdlərini deyib dərmanın istəsinlər.

Şayani-diqqət [diqqətəlayiq] burasıdır ki, hər bir idarəyə gedib bu kimi vicdansızların əlindən şikayət edirlərsə, kimsə bunlara məhəl qoymayıb naümid qayıdırlar. Fəqət bunların ümidi Azərbaycan Cümhuriyyətinə olduğu kimi nə edərsən ki, bu vaxta qədər Azərbaycan Hökuməti tərəfindən heç bir təşəbbüs görülməyibdir. Əcəba onlar məgər azərbaycanlı hesab olunmayırlarmı? Vəhalonki [halbuki], hökumətimiz Lənkəranı həmişə Azərbaycanın ayrılmaz bir hissəsi hesab edir. Böylə olan surətdə nə üçün bu ümidsizləri bir taqım özlərini bolşevik adlandıran vicdansızlardan xilas etməyir? Və xilas edib də yanıqlı ürəklərini sakit etməyir?

İştə, həman vicdansız daşnaklarla xaxolların Lənkəran müsəlmanlarına etdiyi zülüm və azarlarını dəfələrlə gündəlik qəzetələrdə oxuyuruq. Oxuyuruq da, ürəyimiz bu biçarələrin halına yanır. Fəqət nə edəsən ki, bu yazılanlar səmərəsiz qalıb, bu yazıqların da ümid əli hər bir tərəfdən üzülüb, yenə də bu zalımların təhti-əsarətində [əsarəti altında] yaşamaqdadır.

O günlərdə dostlarımın birisindən (Lənkərandan gəlib) Lənkəran əhvalını soruşduqda bu aşağıda yazdıqlarımı söylədi:

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 5 iyun (Cümə axşamı günü) tarixli 196-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Xaxollarla ermənilər Lənkəranda hökmranlıq edirlər və hər gün şəhərdə bir tövr şayiə dövran edir. Gah şəhərə xəbər buraxırlar ki, kimdə nə qədər ərzaq varsa, hamısı hökumət tərəfindən zəbt olunacaq və kimdə nə qədər Nikolay pulu ilə çoxlu bon pulu olarsa, onlar da hökumət tərəfindən zəbt olunacaq. Bu kimi xəbərlərlə biçarə Lənkəran müsəlmanlarını təhdid edirlər. Bu yazıqlar da qorxularından gecələr bayıra çıxa bilməyirlər. Ona binaən [ona görə], həman vicdansızlar gecə fürsətdən istifadə edib müsəlmanların evlərini qarət etməkdədirlər. Həman vicdansızlar silahlı gecələr şəhəri dönüb dolaşmaqdadırlar. Fəqət bazardakı müsəlman darğalarına silah əvəzinə ağac verib, bir iş olanda da bu yazıqlar qorxularından siçan deşiyini satın alırlar. Yaxşı olardı ki, cavan cümhuriyyətimiz Lənkəranı Azərbaycan Cümhuriyyətinin ayrılmaz bir hissəsi hesab etdiyi kimi, bu yazıqları da həman zalım və xunxarların [qaniçənlərin] zülüm və azarından xilas etməklə, o yazıqlar da Cümhuriyyətimizin sayəsində azadə bir nəfəs alaydılar. İştə, Lənkəran əhalisi də bu mühüm işi cavan Cümhuriyyətimizdən dörd gözlə gözləyirlər.

*Məhəmmədəli Əsədullazadə Tabaqçı*

## BAKI XƏBƏRLƏRİ

**İdilboyu müsəlmanlarının məscidi**

Məlum olduğu üzrə neçə il bundan əqdəm [qabaq] Bələdiyyə İdarəsi tərəfindən İdilboyu [Volqaboyu] müsəlmanları üçün Bakıda bir məscid bina edilməsindən ötrü Balaxanski və Maqazinni küçələrinin küncündə boş yer verilmiş və Hacı Zeynalabdin Tağıyev tərəfindən təmirə xərc edilmək üçün 100 min manat ianə edilmişdi. Lakin keçən illərdən bu vaxta qədər vüqu bulmuş olan hadisat məscidin təmirinə şüru edilməsinə [başlanmasına] imkan verməmiş və işlər təxirə uğramışdı. İndi isə Bakıda sükunət edən İdilboyu müsəlmanları yenidən məscidi təmir etməyə [tikməyə] şüru edərək beş nəfərdən ibarət bir heyət intixab etmişlərdir [seçmişlər].

**Dəmir yollarında qalmış mallar haqqında**

Daxiliyyə naziri Bakı qubernatoruna məlum etmişdir ki, müxtəlif vaxtlarda göndərilib və bu vaxta qədər sahibləri tərəfindən aparılmayıb anbarlarda qalmış olan bir çox malları hökumət nəfinə [xeyrinə] təhvil almaq üçün bütün hökumət idarələri nümayəndələrindən ibarət bir komissiya təşkil edilmişdir ki, qubernator dəftərxanasından dəxi bir nəfər dəvət olunur.

**"Hürriyyət" qəzetəsi**

Bu günlərdə İran "Ədalət" firqəsi "Hürriyyət" adında həftəlik bir qəzetə nəşr edəcəkdir.

**Bələdiyyə İdarəsində**

Bələdiyyə rəisinin əmri mövcibincə [əsasında], Bələdiyyə İdarəsi dəftərxanası ümuma elam edir [bildirir]:

1) İşbu sənədə xidmətçi və bələdiyyə məmurlarına veriləcək məzuniyyət iki aydan artıq olmayacaqdır.

2) 1918-ci sənədə məzuniyyət almış xidmətçilər və məmurlar işbu sənə bir ay məzuniyyət ala bilərlər. Onların məvacibləri veriləcəkdir.

3) 1918-ci sənədə məzuniyyət almamışlar bu sənə məvacibləri verilmək üzrə iki ay məzuniyyət ala biləcəklər.

4) 1919-cu sənədə heç bir xidmətçi və yaxud məmur para istəyə bilməyəcəkdir.

5) 1918-ci sənədə iki aydan ziyadə məzuniyyətdə olmuş xidmətçi və məmurlara 1919-cu sənədə məzuniyyət verilməyəcəkdir.

**Neftçilər İttifaqında**

Neftçilər İttifaqı müvəqqəti olaraq mərmi zavodlarına verdikləri makinaları (stanok) geri almaq barəsində təşəbbüsatda bulunur.

**Batum neft yolu**

Hökumət qət etmişdir [qərara almışdır] ki, Batuma gedən neft yolu ilə neft cövhəri [kerosin] göndərilsin. Şimdilikdə həman təriq [yol] ilə fəqət [ancaq] neft gedir. Bundan ötrü neft yolu yapıldıqdan sonra daimi olaraq yolda bir və yaxud bir yarım milyon pud cövhər saxlamalıdır.

**Beynəlxalq istintaq komisyonu**

Qarabağ, İrəvan, Göyçə, Araz Cümhuriyyətindəki ermənilərin müsəlman başına gətirdiyi fəlakəti məhəllərində [yerində] təhqiq etmək üçün xüsusi bir beynəlxalq istintaq komisyonu təşkil edilməkdədir. Komisyona Avropa dövlətləri nümayəndələri də daxil olacaqlardır. Məclisi-Məbusan pişəzvəqt [qabaqcadan] komisyon məxaricatından ötrü 10 milyon rublə buraxmaq niyyətindədir. Aldığımız mövsuq [etibarlı] məlumata nəzərən, işbu komisyon hal-hazırda təşkil tapmaqdadır. Ən yaxın zamanda istintaqdan ötrü məhəllinə azim olacaqdır [yola düşəcəkdir].

**Müəllimlər Şurası**

Cümə günü axşam saat 5-də iyunun 6-da Birinci Ünas [Qızlar] məktəbində müəllimlərin iclası təyin edilmişdir. Müzakirə ediləcək məsələlər bunlardır:

1) İdarənin məruzəsi;
2) Müəllimlərin məvacibləri artması barəsində;
3) Məvaciblərdən çıxılmış pulların qaytarılması haqqında;
4) Müəllimləri xidmətə qəbul etmək;
5) İdarənin pulları haqqında və sair.

**İtmişdir**

Çənbərəkənd küçəsində 8 nömrəli evdə yaşayan Cəvahir Şirinbəyovun 20 yaşında oğlu Ələşrəf 17 gün bundan irəli evlərindən çıxıb indiyə qədər qayıtmamışdır. Onun yerini və onun barəsində bir xəbər bilənlərdən acizanə xahiş edirik ki, yuxarıdakı adresə xəbər vermək zəhmətini qəbul eyləsinlər.

**Sürgün**

Bakı qalabəyisinin [komendantının] binagüzarlığı [sərəncamı] ilə Sergeyev Yevgeni, Qriqori Sidov və İsmayıl Kazakov hökumətin əleyhinə sui-niyyətdə [cinayətdə] bulunduqlarından Azərbaycan Cümhuriyyəti torpağından sürgün edilirlər.

**Əsgərlikdən qaçmaq cəzası**

* Bakı qalabəyisinin binagüzarlığına görə, iki nəfər əsgərliyə dəvət edilmiş olan oğlanlarını gizlətməkdə müttəhim edilən Pirşağı kəndi sakini Molla Həsən Aslan oğlu oğlanları gəlincəyə qədər Bakı Mərkəzi Həbsxanasında məhbus edilmişdir.

* Bakıda sükunət edən Hacı Vahab Hacı Abbas oğlu özünün əsgərliyə dəvət olan iki nəfər oğlanlarını qaçırmaqda müttəhim edildiyindən Bakı qalabəyisi binagüzarlığına görə oğlanları gəlincəyə qədər Mərkəzi Həbsxanaya göndərilmişdir.

**Ehtiyat könüllü "Yardım alayı"**

Dükançılar və qeyri sənətkarlardan ibarət olan ehtiyat könüllü Yardım Alayına könüllü qəbul edən komissiya tərəfindən məlum edilir ki, sabah cümə günü səhər saat 9-da axırıncı bölük Təzəpirdən Salyanski kazarmalara gedəcəkdir. Həmin bölüyə yazılmaq istəyənlər bu gün pəncşənbə [cümə axşamı] günü komissiyanın dəftərxanasında Tserkovni küçə 70 nömrəli evdə yazıla bilərlər. Cümə günü isə dəftərxana bağlı olacaqdır.

**Dəniz kənarındakı içki dükanlarının qapanması**

Bakı qalabəyisi qubernatora məlum etmişdir ki, onun binagüzarlığıyla dəniz kənarındakı bütün içki dükanları qapanmışdır.

**Klubun qapanması**

Təhərri [axtarış] polis müdirinin binagüzarlığı ilə "Bolşoy Moskovski" mehmanxananın altında olan "Sportivni krujok" adlı klub külli miqdarda qumar oynanılmasına izin verdiyindən qapadılmışdır.

**Mətbuata nəzarət**

Daxiliyyə naziri Bakı qubernatoruna məlum etmişdir ki, mətbuata nəzarət etmək quberniya və uyezdnı hökumət idarələrinin öhdəsinə verilmişdir. Mətbuatın hər bir hərəkatı məzkur [deyilən] idarələr tərəfindən təqib edilməlidir.

## MÜTƏƏLLİMLƏR QURULTAYI

3 iyun - 3-cü iclas

Saat 5-də Qafqaziya Müsəlman Mütəəllimləri [Tələbələri] Qurultayının 3-cü iclası açılır.

Sədr: Məhəmmədzadə Mirzəbala.

Katib: Süleyman Məlikzadə.

Sədr növbədəki məsələləri elan edir:

1) Bəzi kağızlar;
2) Ermənistanda müsəlman qaçqınları barəsində protesto çıxarmaq məsələsi;
3) Komisyonlar barəsində;
4) Məhəlli [yerli] təşkilatların izahatı;
5) Mərkəzi Komitənin izahatı.

Birinci maddə barəsində sədr elan edir ki, keçən iclasda Axıska nümayəndəsi Zəki Pepinov cənablarının dakladından sonra qərar qoyulmuşdu ki, Gürcüstan Demokratik Cümhuri hökumət tərəfindən icra olunan fənalıqlara qarşı Mütəəllimlər Qurultayı protesto çıxartsın. Sədr protestonun məzmununu oxuyur. Ümumiyyətlə qəbul olunduqdan sonra Ermənistanda müsəlman qaçqınlarına olunan zülüm və əziyyətlərə qarşı da Mütəəllimlər Qurultayı etiraz çıxartmaq təklifi edilir. Bu da qəbul olunur. Bundan sonra sədr xəbər verir ki, izahatlar qurtarandan sonra növbədəki məsələlər komisyonlarda olduğundan rica olunur, komisyonlar tezliklə öz vəzifələri bitirsinlər. Başqa üzvlərdən də rica edir ki, komisyonlarda həll olunacaq məsələlərə aid materialları varsa, versinlər.

Növbədəki məsələyə keçildiyi vaxt sabiq Mərkəzi Komitənin sədri Həmid Məhəmmədzadə növbədən xaric söz alaraq bəyan edir ki, qurultayın birinci iclası haqqında "Azərbaycan" qəzetəsi yanlış olaraq "Azərbaycan mütəəllimlərinin qurultayı" deyə yazmışdır və altında heyəti-rəyasət öz tərəfindən protestonu ancaq Azərbaycana aid etmiş, ümumi Qafqaziyaya aid bir qurultay tərəfindən çıxarılan protestoda ümumi Qafqaziyanın hissələri olan Gürcüstan, Ermənistan barəsində heç bir söz yazılmamışdır. Bunlardan başqa, heyəti-rəyasət öz vəzifəsini eyi ifa etməyir.

Sədr cavab olaraq qurultayın üzvü olmayan bir şəxs tərəfindən edilən bu töhmətlərə cavab verib bəyan edir ki, birinci iclası qəzetə mühərriri yazmışdır. Adı o qədər də əhəmiyyətli deyildir. Protestoya gəldikdə, onu da qurultay qəbul etmiş. Deməli, hər bir səhv heyəti-rəyasətə deyil, qurultayın ümumisinə aiddir. Heyəti-rəyasətin fəaliyyətsizliyi isə dəlilsiz olduğundan, sədr qurultayın bu töhmətlərə qarşı qərarını istəyir. Qurultay bu barədə fikir əvəzinə "növbədəki məsələlərə keç", "düz deyir" kimi sözlər və işarələr buraxdığından, sədr tələbində inad ilə qurultaydan heyəti-rəyasət haqqında rəy istəyir. Əks surətdə istefa verdiyini bəyan edir. Üzvlərdən biri təklif edir ki, heyəti-rəyasət göstərilən nöqsanları nəzəri-etibara almaqla kəndi yerində qalsın və onlara köməkçi olaraq Zəki Pepinov əlavə sədr intixab olunsun [seçilsin]. Qurultayın ricası üzərinə M[əhəmmədzadə] Mirzəbala yerinə keçirsə də, sədarətdən imtina edib sədrliyi İbrahimzadəyə buraxır.

Maarif Nəzarətinə təbriknamə yazmaq qərara alınır. Ondan sonra məhəlli təşkilatların məruzəsinə keçir. Saat 8 radələrində iclas qapanır.

## FƏHLƏ HƏYATI

**Ramanada**

24 mayıs tarixində saat 3-də Ramana dairəsində bulunan müəssisələrdə çalışmaqda olan müsəlman işçiləri tərəfindən hər 50 nəfərdən bir nəfər olaraq intixab edilmiş [seçilmiş] nümayəndələr Ramana "Müsavat" şöbəsi binasında iclas tərtib etmişlərdi. Mədənlər mərkəzi "Müsavat" idarəsi tərəfindən katib Yusifzadə, heyəti-idarə əzasından [üzvlərindən] Həmid Paşazadə dəxi iclasda iştirak edirlərdi.

Müzakirata vəz edilən [müzakirəyə qoyulan] məsələlər: 28 Mayıs İstiqlal Bayramı, Naxçıvan və Şərur qəzalarının Ermənistana ilhaqı [birləşdirilməsi] məsələsi müzakirəyə vəz edilir [qoyulur].

Mədənlər mərkəzi idarə nümayəndələrindən Məşhədi Həmid Paşazadə və Yusifzadə Əbdürrəhim hər iki məsələ xüsusunda ətraflıca bəyanatda bulundular. Nəticədə birinci 28 Mayıs istiqlalı elan gününün səneyi-dövriyyəsini [ildönümünü] şanlı eyd [bayram] saxlayaraq, tarixi kənd qalasını[n] mümkün olan qədər təzyin edilməsi [bəzənməsi] və qala daxilində bayram rəsmi-təbrik qəbulu [təbrik qəbulu mərasimi] üçün lazımeyi-mayeh-tac [ehtiyac olan şeylərin] hazırlanması təhti-qərara alındı. Sonra 300.000 (3 yüz min) nüfusa baliğ [nəfərə çatan] türk və islam nüfusunun müqəddəratı xunxar [qaniçən] cəlladların pənceyi-birəhmanələrinə tövdi edilməsi [amansız pəncələrinə tapşırılması] dolayısı ilə "Azərbaycan" qəzetəsi təvəssütü [vasitəsi] ilə Müttəfiqlər Komandanlığına etiraz etmək qət edildi [qərara alındı].

26 mayıs tarixində axşam saat 5-də Rotşild dağüstü 30, 35, 50 nömrəli mədən evlərində sükunət edən əmələləri bir yerə cəm edərək hal-hazıra dair məlumat verildi. Orada sükunət edən fəhlələrin qismi-əzəmi [əksər hissəsi] Naxçıvan qəzası əhalisindən olduqlarından, Naxçıvan məsələsinə hökumət nə nəzərlə baxdığını artıq həyəcan ilə sual etdilər. Bu xüsusda məsələnin Sülh Konfransında həll ediləcəyi və hökumət bu məsələyə laqeyd qalmayacağı bəyan edildi. Sonra mədən komissiyalarından yoldaş Əziz Yusifzadə camaata xitabən mədənlərə ərzaq gətirilməsi ilə əlaqədar olaraq mədənlərdə çalışan fəhlələrin siyahısı tələb edildiyini bildirdi və xəbər verdi ki, mən getdim rus yoldaşlarımıza siyahı tərtib verilməsini təklif etdim; mənə cavab verdilər ki, biz bu siyahını verməyəcəyiz və ərzaq da istəməyiz.

- Müsəlman əmələlərinin tətil günləri işlədikləri məvacibinin verilməməsi haqqında edilən suala Məsai naziri cavab vermişdir ki, həmin məvacibləri verməyə mədən sahibləri məcbur ediləcəkdirlər.

## AZƏRBAYCANDA

**Gəncədə İstiqlal günü**

28 Mayıs 1919-da gözəl Gəncə, çiçəkli mayıs, ruhnəvaz [ruh oxşayan] qoxusu ilə büsbütün canlanmışdı. Əski çürük Rusiyanın haqsız top izlərini hələ köksündə gənc və canlı, imanlı nəsilə ibrət lövhəsi olaraq saxlayan böyük camenin Haqqa doğru yüksələn minarələri, möminləri – türk və müsəlman imanlılarını duaya, minacata dəvət edirdi. Milli bayraqların dalğası, alaqapıların arasından keçib axın-axın cameyə doğru düşə-qalxa axan bu istiqlal məftunu, hürriyyət aşiqi camaatın yüksək və şən alnında bir çox şeylər oxunurdu.

Bugünkü bayram milli bayramlıqdan ziyadə, adəta, ənənəvi bir şəkilə dönmüşdü. Mayısın məxmur bir sabahı, Allahın kölgəli buludu, möminlərin təkbiri, duası, xanımların pərdələr arasından üçrəngli bayrağa, sərbəst cəmiyyətə baxıb təhəssürlə [həsrətlə] qarışıq bir gülüşü...

Oh, ya Rəbbi! Bu gözəl mənzərəni seyr etdirdiyin ümmətinə bir daha qara gün, yabançı boyunduruğu nəsib etməyəcəyinə iman etmiş kimi oluram, ya Rəbbi!

Çoxdan bəri üzərimizə bir iftira atırlar. Deyirlər ki: "Azərbaycan xalq hökuməti deyildir, bu hökumət 5-10 kişinin təsəvvüründən doğma bir nəticədir." Bunun böylə olmadığını Azərbaycan xalqı indiyə qədər bu bir sənəlik dövreyi-həyatında bir neçə dəfə göstərdi. Mən bunun ən canlı bir dəlilini Gəncədə 28 Mayısda İstiqlal bayramında gözümlə görüb könlümlə hiss etdim. "Müsavat"ın üçrəngli milli bayrağı, "İttihad"ın onun yanında gedən yaşıl bayrağı ilə sair inqilabların daşıdıqları milli və inqilab bayraqlarının kölgəsin[d]ə bütün varlığı ilə şənlik və bayram edənlər düşmənlərimizin cansız bir kütlə hesab etdikləri türk xalqı, türk demokratiyası idi. "Yaşasın istiqlal!" deyə bağırmaqdan gərlənən səslər türk xalqının geniş köksündən çıxan səsdən başqa bir səs deyildi. O günü söyləyənlər, coşanlar, bayraq daşıyanların çoxu da deyil, həpsi türk xalqı – istiqlal və hürriyyətin dadını dadmış türk xalqı idi. Bu aydın və canlı dəlili göstərən millət, millət, istiqlalı və hürriyyəti uğrunda canını verməkdən çəkinərmi?!

– Yaşasın istiqlal!

Bugünkü mənzərələrin ən gözəli bü-tün firqələrimizin cameyə toplanıb hürriyyətləri, milliyyətləri üçün dua etmək idi. Sən gəl bu camedə bütün mövcudiyyəti ilə "Amin!" deyən müsəlman türklərin səsinin saflığını seyr et. İnsan oğlunun dərdli dəqiqələrində sığındığı duada nə böyük bir qüvvət vardır, ya Rəbbi!

* * *

Camedən müntəzəm bir surətdə çıxan camaat milli bayraqlarla bərabər camenin qarşısındakı məzarlarda yatan şəhid türk qardaşlarını da yada saldı. Bizi qurtarmaq üçün özlərini öldürən bu əsgərlərin ruhunu şad etmək üçün önlərində bütün başlar əyilib gözlər yaşardı. Bayrağından uzaq düşən bu möhtərəm şəhidlərə bayrağımız baş əydi!

Bu cənnətlik torpaq yığınlarını gözlərimiz, könüllərimiz ziyarət etdi. Hələ o dərin bir sükut ilə oxunan fatihədəki bəlağətə, vüzuha, sidqə dünyanın əski, yeni bütün şeirləri, məntiqləri [nitqləri, sözləri] yetişəmməzdi!

Bu abidəsiz qərib qurbanların müstəqil vətənləri nə haldadır, Allahım!

* * *

Nəhayət, gənc Azərbaycanın cavan ordusunun keçid rəsmi yapdığı Hürriyyət meydanına gedildi. At üstündə tüfəng altındakı arslan baxışlı türk balalarını gördüyü vaxt getdikcə coşan, gəldikcə canlanan camaat bir ağızdan bir səslə bir daha bağırdı:

– Yaşasın ordumuz!

Əvət, yaşasın o ordu ki, haqq və hürriyyət üçün mübarizəyə hazırlanır!

Yaşasın o ordu ki, milliyyətini yaşatmaq üçün canını verir!

Yaşasın o ordu ki, bayramımıza zəhər qatmaq istəyənlərə qarşı geniş köks, açıq alınla çıxacaqdır!

Yaşasın o ordu ki, millətinin ruhunda, qəlbində özünə abidələr tikdirəcəkdir!

Əvət:

– Yaşasın ordumuz!

* * *

Gəncənin bütün küçələri milli bayraqlar, çiçəklər və yaşıllıqla bəzənmişdi.

Şəhərdə dolaşan şəhər nümayişçilərindən başqa Dəmiryol Xidmətçilərinin İttifaqı zurna ilə şəhəri dolaşırdı. İstər şəhər firqələrini, ittifaqlarını, istərsə bütün xalqı mən bu gün ciddən sevinən gördüm. Saat 1-də olan bələdiyyənin çay ziyafətinə qədər şəhərin bütün küçələri, hökumət dairələri, şəhər idarəsi və sairə dolaşıldı.

Saat 1-də nümayiş bitdi. Ondan sonra vətəndaşların öz xüsusi şəkildə bayramları başlandı. Saat 2-dən sonra şəhər bağında tərtib edilən şənlik indiyə qədər görülmüş deyildir.

Gəncənin İstiqlal bayramı böyləcə bitdi.

– Yaşasın Azərbaycan!

*[Əhməd] Cavad*

## ERMƏNİSTANDA

*"Aref"dən*

**Naxçıvan-Şərurda**

Erməni qoşunları Naxçıvan və Culfanı işğal etdilər. Yerli əhali mehribanlıq izhar edir. Müsəlman qaçqınları öz yerlərinə qayıtmağa başlamışlar. Məhəlli [yerli] erməni hökuməti onları xoşhallıqla qəbul edir. Əhali üçün Şərurda külli miqdarda taxıl vardır. Müsəlmanlar qaib olduqları zaman onların əmlakını və evlərini zəbt edən ermənilər indi onları sahiblərinə qaytarırlar.

**Qaçqınlara müavinət**

Şərur, Naxçıvan qaçqınlarının 800 adamdan mürəkkəb [ibarət] əvvəlinci dəstəsi mayın 20-də öz yerlərinə hərəkət etdilər. Mabaqi [qalan] qaçqınlar da başqa dəstələrlə gedəcəklər. Onları qəbul etmək üçün iaşə məntəqələri, kifayət qədər də azuqə və lazımi qədər xidmətçilər hazır edilmişdir. Naxçıvana gəlməli olan qaçqınlar üçün müvəqqəti mənzillər hazırlanmışdır.

**Sulardan istifadə**

Vüzəra Şurasına [Nazirlər Kabinetinə] Ermənistanın sularını istifadə etmək layihəsi təqdim edilmişdir. Layihəni təhqiq etmək mühəndis Simonyana həvalə olunmuşdur. Qərar qoyulubdur ki, əvvəl başda Sərdarabad səhrasına su çıxarılsın.

**Aleksandropolda**

Aleksandropol [Gümrü] şəhəri və qəzası əhalisinin əhvalı çox fənadır. Acından ölənlər az deyildir. 10 gündür ki, Amerika Komitəsi heç zad verməyir. Un olmadığından amerikalılardan kömək gözləmək əbəsdir. Ciddi və təxirsiz tədbir ittixazı [tədbir görülməsi] lazımdır. Şəhərdə idareyi-əsgəriyyə [hərbi rejim] ləğv edilmişdir. Ətrafda əhali adi ziraət [əkinçilik] işlərinə şüru etmişdir [başlamışdır].

**İrəvan mövqifi**

İrəvan mövqifini [stansiyasını] şəhərə yaxınlaşdırmaq işindən ötrü Aleksandropola getmiş olan bələdiyyə rəisi İrəvana qayıtmışdır. Təzə mövqifi qayırmaq layihəsi təsdiq edilmişdir. Bu yaxınlarda torpaq işlərinə şüru ediləcəkdir [başlanacaqdır]. Şəhərin ehtiyacatı üçün rəis Aleksandropoldan və Qarsdan neçə makina gətirməyə müvəffəq olmuşdur.

## TEATRO VƏ MUSİQİ

Hacıbəyli Qardaşları Müdiriyyəti möhtərəm camaata elan edir ki, Ramazan ayı münasibətilə bayrama kimi teatro sezonu qapalı olacaqdır. Teatro sezonu Ramazan ayından sonra bayramdan açılacaqdır.

## TEATRO VƏ ƏXLAQ

İnsanların iradeyi-cüziyyələri, hürriyyəti-şəxsiyyələri [şəxsi azadlıqları] olmasaydı, nə cəmiyyət halında yaşaya bilərlər və nə də məsud bir həyatla ədəbiyyat və teatro olardı.

Teatro denilincə göz önünə kiçik-böyük, yarım-yanlış təğənni [nəğmə oxuma] ilə səfahətxanalara bənzər bir yer xatirə gətirilməməlidir. Qarelərimizdən [oxucularımızdan] Türkiyədə Məşrutiyyətdən əvvəl teatro görmüş bulunar. O zamanlar səfahətxanalardan ibarət idi. Şimdi isə mədəni bir məmləkətdə olduğu kimi tərbiyeyi-fikriyyə və təhzib [təlim-tərbiyə, islah] ocaqlarını təsvir edir. Məktəb 5 yaşında bir çocuğu, yaxud 25 yaşında bir gənci tərbiyə edə bilər. Lakin əksəriyyət 45-50 yaşındakı çocuqlarımızın, əvət, çocuqlarımızın fikirlərini tənvirə [işıqlandırmağa] dəxi möhtacız. Bu da, təbii, məktəb ilə olammaz, teatro ilə olar. Çünki teatro insanı başqa dürlü düşündürür. Demək, teatro ölməz vasiteyi-nəşri-ürfandır [bilik yayma vasitəsidir]. Bu vasitədən istifadə etməmək dəmiryollarını, teleqrafı, telefonu qullanmamaqla birdir. Hətta daha betərdir.

İlk teatro Yunanıstanda çıxdığı zaman yunanilər ziyadəsi ilə diqqət edirlər və Atinada [Afinada] hər sənə ədiblər, şairlər, sənətkarlar oyunların kamali-diqqət ilə icra edilməsi üçün uğraşırdılar. Atinalılar, yunanilər hər fənnin təməlini qurduqları kimi, teatronu da unutmadılar. Gözəl dramlar və sairələr yazdılar. Bizə xocalıq etdilər. Bizə, yəni türklərə, ümum islamlara deyil! Əski romalılara, yeni avropalılara dərs öyrətdilər. Bu hal ilə zamana görə insan hazırladılar. Romalılar yunaniləri təqlidə başladığı vaxt teatroya heç əhəmiyyət verməmişdilər. Adi bir oyun kimi oynamağa başladılar. Senatorlar bəzi dəfələr teatroya qarşı gəlirdilər. O vaxtın rahibləri teatronu da fəna göstərdilər. Deyirlərdi ki, bir mükəmməl aktyorun fəryadı ilə qulaqlarını dolduran bir kimsə peyğəmbərlərinin nəsihətlərini, ananın sözünü heç xatırlaya bilərmi? Binaənileyh [ona görə], əxlaq dolayısı ilə bu müxalifətlər heç bir zaman eyi deyildi. Bu surətlə tərəqqiyə sədd çəkilirdi.

Məşhur San-Fransua de-Sal deyir ki:

*"Oyunlar, balolar, ziyafətlər fəna şeylər deyildir. Ancaq əxlaq-tərbiyə dairəsində olmaq şərtilə icra edilməlidir."*

Şairi-məşhur Molyer tərəfindən yazılan "Tartuf" namındakı kitabın müqəddi-məsində teatronun vəzifəsi: insanlarda bulunan əskikliyi ikmal edər [tamamlayar]. Faydası müəssir [təsirli] və mühümdür. Zira insanlar gülünc olmaqdan qorxarlar. Bunun üçün hər kəs kəndi sənətkarları, doktorları, mühəndisləri, filosofları ilə iftixar edir.

Biz də mütərəqqi millətlər sırasına keçə bilməmiz üçün sənətkarları, elmi sevməliyiz. Məsələn, fransalı məşhur aktris Sara Bernar bir gecədə 2-3 min lirə aldığı vardır. Bir oyun vermək üçün bir milyon frank alır. Bu paraların əksərisi [çoxu] vətən və millət yolunda sərf olunur. Bu aktrisi yetişdirən Fransa cəmiyyəti, Fransa himayəsidir. Avropadan bəhs edərkən sizə bir misal daha söyləyəyim. Bundan 25 sənə əvvəl barbar sayılan və 1908 tarixində Türkiyədən ayrılıb krallığını elan edən Bolqariya dəxi teatro sayəsində tərəqqi edərək bu gün "Şərqi alman" ləqəbini qazanmışdır.

Hasili, həyat bir təcrübədir. Bunu göstərəcək bir yer varsa, o da teatrodur. Son nəzəriyyə – teatro bir əxlaq məktəbidir, səadət və bəşəriyyət kolleksiyonudur.

*Əlif. Ayn.*

## ETİRAZ

Bakıda nəşr olunan həftəlik "Zənbur" jurnalı 30 mayıs 8 nömrəli tarixində Mərdəkan köyünün barəsində bir qaç kəlmədən ibarət nalayiq sözlər yazaraq, onun tarixi və müqəddəs Mərdəkan ismini ləkələməklə Mərdəkanı "Mürdəgan" [ölülər] adlandırıb, yerini ölü mədəni və əhlini ölü hesab etmişdir. Bu isə vicdandan kənar və Mərdəkan əhli üçün qəbul ediləmməz bir şeydir.

Mərdəkan köyünün tarixinə və şimdiki halına ən eyi bələd və aşina olduğum üçün cəsarətlə deyə bilərəm ki, Mərdəkanda mazidə [keçmişdə] pak şücaətmənd və qeyrətmənd [şücaətli və qeyrətli] kişilər olmaqla, onun Mərdəkan ismi, yəni kişi məkanı ona isnad verilibdir və onun şimdiki gənclərində də mərdlik, kişilik sifətləri vardır.

Hər bir əfradi-millətin [millətin hər bir fərdinin] şücaətmənd və qeyrətmənd olmaqlığı onun vətən və millət uğrunda nasıl çalışdığı və nasıl hərəkətdə bulunmaqlığı ilə isbat olunar. O cəhətdən Mərdəkan köylüləri işbu vətəni Azərbaycan istiqlaliyyəti haqqında nələr yapdığını söyləmək məcburiyyətindəyəm.

Keçən sənə sübh tezdən Mart hadisəsini eşidərək dərhal Mərdəkan köyünün gəncləri 100 nəfərdən ziyadə müsəlləh olub [silahlanıb] islam qardaşlarımızı mühafizət etməyə gediriz deyə sevinclə düşmənə tərəf rəvanə oldular. Və həman gün Sabunçu ətrafında yol üstündə düşmənlə şir kimi müharibə edib 6 nəfər şəhid verib canlarını vətən və millət yolunda təslim etdilər.

Qəhrəman Türk Ordusu Bakını mühasirə etdiyi zaman Binə cəbhəsini saxlayıb düşmənlə aslan kimi vuruşan Mərdəkan köylüləri deyilmi idi? Şanlı türk əsgərləri ilə Dağıstan meşələrində və dağlarında sinələrini düşmənə sipər edib islamiyyət naminə minlərcə şəhid olanların içində Mərdəkan köyünün gənc əsgərlərindən yox idimi? Mərdəkan köylüləri heç bir vaxt vətən müdafiəsindən qaçmayıb və qaçmayacaqdır. Onlar hər bir halda vətən və millət uğrunda çalışmağa amadədirlər [hazırdırlar]. Onlardan mərdlik sifəti kənar olmamışdır.

*Mərdəkanlı Feyzulla Qasımzadə*

## İZHARİ-TƏŞƏKKÜR

Pəncşənbə [cümə axşamı] günü may ayının 29-da biz "Təməddün" məktəbinin nümayəndələri Səidülvüzəra həzrətlərinin xidmətinə gedib Sabunçuya nümayəndə istədik.

Səidülvüzəra cənabları sabiq Çornı-qorod naibi [nümayəndəsi, vəkili] Abbas xan cənablarını təyin qıldılar. Naib heyət ilə bahəm Sabunçuya təşrif gətirib, öz vəzifəsini ifa etməyə məşğul oldu. Heyət camaatın tərəfindən Abbas xan kimi hürriyyətpərvər bir vücudu Sabunçuya nümayəndə göndərməkliyinə Səidülvüzəra cənablarına təşəkküratını izhar edir.

Ümid edirik ki, təzə nümayəndəmiz Abbas xan cənabları özü hürriyyətpərvər və məşrutəxah bir insan olduğuna görə, necə ki sabiqlərdə camaatla rəftar edib, füqərayi-kasibə qardaşlarımızla ədalətlə rəftar edərlər.

*Heyəti-idareyi-"Təməddün"*

## MÜDİRİ-MÖHTƏRƏM!

Aşağıda yazılan hesabatı möhtərəm qəzetənizdə dərc etməyiniz mərcudur [rica olunur].

**Ağdaş**

Ağdaş Qaçqınlara Yardım Cəmiyyətinin mədaxil və məxarici xüsusunda ümumi hesabatı:

Birinci teatronun hasilatı:

Bilet satışından 7725 manat, fəxri biletlərdən 2291 manat, ianədən 51 manat.

İkinci teatronun hasilatı:

Bilet satışından 7445 manat, fəxri biletlərdən 1400 manat.

Yekunu 18910 manat.

Məsarifin surəti:

1) Səhnə məsarifi 2590 manat 50 qəpik;
2) İkinci teatronun məsarifi 605 manat;
3) Bazarda dilənən qadınlara aylıq:
1. Böyükxanım Məşhədi qızına 375 manat;
2. Nanə Məhəmməd qızına 450 manat;
3. Bəyim Nəcəf qızına 300 manat.
4) Qaçqınlardan ən ehtiyac içində olanlara ianə:
1. Nisbət xanım Qəni əfəndi qızı 4 nüfus [nəfər], 500 manat;
2. Gilas Məhəmməd qızı 4 nüfus, 500 manat;
3. Xədicə İsmayıl qızı 3 nüfus, 375 manat;
4. Çərkəz Ağakişi bəy qızı 2 nüfus, 200 manat;
5. Çərkəz Molla Səfdər qızı 1 nüfus, 75 manat;
6. Səhab Solsəttar qızı 2 nüfus, 250 manat;
7. Nanə Məşhədi Məhəmməd qızı 1 nüfus, 75 manat;
8. Balaqızı Məhəmməd qızı 3 nüfus, 325 manat;
9. Əminə Heydər qızı 1 nüfus, 75 manat,
10. Sürəyya Yüzbaşıbəy qızı 4 nüfus, 200 manat;
11. Əli Nəcəf oğlu 4 nüfus, 450 manat;
12. Molla Əhməd Əfəndizadə 3 nüfus, 375 manat;
13. Molla Osman Əfəndizadə 4 nüfus, 275 manat;
14. Ağarəhim Xalidbəyzadə 2 nüfus, 250 manat;
15. Həmid Məhəmmədzadə 3 nüfus, 225 manat;
16. Əbülqasım Süleymanzadə 5 nüfus, 375 manat;
17. Hacıbaba Hacılətifzadə 3 nüfus, 225 manat;
18. Dostxanım Məhəmməd qızı 1 nüfus, 75 manat;
19. Abbas Abbaszadənin yetimlərinə 3 nüfus, 150 manat;
20. Sabir Ələkbərzadə 1 nüfus, 50 manat;
21. Molla Mirəhməd Əhmədzadə 4 nüfus, 300 manat;
22. Əliağa Abbasquluzadə 2 nüfus, 100 manat;
23. Hüsniyyə Abbasqulu qızı 2 nüfus, 100 manat;
24. Mahmud Xeyrullazadə 2 nüfus, 100 manat;
25. Dadaş Ağababazadə 2 nüfus, 100 manat;
26. Məşhədi Qubad Əhmədzadə 2 nüfus, 100 manat;
27. Heydər Məhəmmədzadə 2 nüfus, 100 manat;
28. Əlibala Əbdüləziz [oğlu] 2 nüfus, 100 manat;
29. Sultan Məşhədi Qara bəy 1 nüfus, 50 manat;
30. Ümmüxanım Kərbəlayi Cabbar qızı 3 nüfus, 150 manat;
31. Məşhədi Məcid Molla qızı 3 nüfus, 150 manat;
32. Səkinə Abdulla qızı 3 nüfus, 150 manat;
33. Şahnəzər Fətəli qızı 2 nüfus, 100 manat;
34. Asuman Kərim qızı 2 nüfus, 100 manat;
35. Yetər Əhməd qızı 2 nüfus, 100 manat;
36. Məşhədi Əsədəlizadə 3 nüfus, 150 manat;
37. Molla Mirəhməd Əhmədzadəyə siyahı haqqı üçün verilib 100 manat;
38. Xanəndə və qarmonçuya 800 manat;
39. Xırda məsarif 75 manat.

Yekunu 12270 manat 50 qəpik. 18-190 manat mədaxildən 12270 manat 50 qəpik çıxdıqdan sonra cəmən qalan 66-39 manat 50 qəpik cəmiyyət xəzinədarı Əlibaba Abbasovdadır.

Qeyd:

Siyahıda can hesabı olaraq bərabər olduqları halda bəzi təfavütlər görülməkdədir. Onun da səbəbi cəmiyyət tərəfindən pul iki dəfə buraxılmasıdır və cəmiyyətin 5 nömrəli bəratülqövlü [protokolu] üzrə nüfusa 75 manat, cəmiyyətin 6 nömrəli bəratülqövlü üzrə nüfusa 50 manat buraxılmasıdır. Demək, cəmiyyət tərəfindən iki dəfə pul buraxılmış, siyahıda göstərilənlərin bəzisi cəmiyyətin bəratülqövlü üzrə iki dəfə, bəzisi bir dəfə pul almışdır.

*Ağdaş Qaçqınlara Yardım Cəmiyyəti idarəsi*

**Bağ icarəyə verilir**

Şüvələnda bir bağ icarəyə verilir. Üç otaq, mətbəxxanası ilə. Bağda meyvə də vardır. Hacı Ağabəy Sultanovun bağı. Şəraiti haqqında Suraxanski küçədə 219 nömrəli evdə Əliyevə müraciət etməli.

*10215*

**Satılır**

Yaxşı yeriyən boz dayça, 5 yaşında. Adres "Təbriz" mehmanxanası, yaxud Hacı Hacıağa karvansarasında Cəmşiddən, Dəryazovdan, yaxud Seyid Həsənovdan xəbər almalıdırlar.

*10211*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Diş müalicəxanası və süni diş laboratoriyası. Adres: Sisyanovski (Ləzginski) və Çadrovı küçələrin küncündə nömrə 41. Telefon 22-07. Qəbul edir səhər saat 6-dan 8-ədək; səhər saat 11-dən 2-yədək; axşam saat 4-dən 8-ədək. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

*8779*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Fin-kelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

Doktor **M.M.Kərimov** göz naxoşlarını və diş həkimi **A.Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Berlin Darülfününu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Elan**

Sabiqdə Tiflis şəhərinin canişin sarayında hər növ çərkəz libası tikməklə məşhur olan Balabəy hal-hazırda Bakı şəhərində Nikolayevski küçədə Seyidəhməd Əzimzadənin dükanında aşağıda adları zikr olunan formaları qəbul edir: "çerkasski kazaçi", "çerkaski imereteniski, çerkaski asetiniski", "Qarabağ çərkəzi" və hər bir formanın şubasını [kürkünü] və Malorossiyski şubalar.

Tikdiyim işlərdən müştərilərin məmnun qalmalarına əminəm.

*Kamali-ehtiramla: Balabəy*
*10204*

**İstanbuldan, İngiltərədən**
**və Fransadan mallar**

İ. V. Denisovun bankir kantorası İstanbula, Marselə (Fransa) və Liverpula (İngiltərə) mal alıb gətirmək üçün nümayəndə göndərir. Sifarişlər İ. V. Denisovun bankir kantorasında qəbul olunur (Nikolayevski və Olqinski küçələrin küncündə) hər gün axşam saat 5-dən 7-dək.

*10210*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Teleqraf xəbərləri***

"Avanti!" [Avanti!]: (İrəli!) 1896-cı ildən etibarən İtaliyada (Roma və Milanda) nəşr edilən qəzet; İtaliya sosialistlərinin orqanı.

"Stokport" [Stockport]: Britaniyanın Böyük Mançester qraflığında böyük sənaye şəhəri. Qəzetdə şəhərin adı təhrif edilmişdir.

***Sülh ətrafında***

"Mançester Qardian" [The Manchester Guardian]: İngilis qəzeti. Əsası 1821-ci ildə Mançesterdə qoyulmuşdur. 1959-cu ildə adını Qardian" [The Guardian] kimi dəyişmiş, 1964-cü ildə isə qəzetin redaksiyası Londona köçmüşdür.

***Qəzetələrdən***

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

"L. L. Bıç": qəzetdə səhvən "L. M. Bıç" getmişdir.

Korabelnaya Slobodka: Sevastopol şəhərinin tarixi rayonu. Sevastopol buxtasının cənub sahilində yerləşir.

Merderesku, George [Gheorghe Mărdărescu; 1866-1938]: Rumıniyanın hərbi xadimi; general-mayor. Macarıstan-Rumı-niya müharibəsində (1919) Rumıniya ordusunun komandiri, 1922-1926-cı illərdə Rumıniyanın Hərbi naziri olmuşdur.

***Vükəla Şurasında***

"fraxt": dəniz yaxud hava yolu ilə daşınan yük və bu yükün daşınma xərci.

***Nəzarətlərdə***

"Amerikanın Yaxın Şərqə Müavinət Cəmiyyəti": Əsası 1915-ci ildə Erməni və suriyalılara yardım üzrə Amerika Komitəsi [American Committee for Armenian and Syrian Relief] adıyla qoyulan təşkilat, əvvəlcə Osmanlı imperiyasının erməni və assuriyalı təbəələrinə yardım məqsədi güdürdü. Sonrakı dövrlərdə Yaxın Şərqə yardım üzrə Amerika Komitəsi [American Committee for Relief in the Near East] və Yaxın Şərq Fondu [Near East Foundation] adıyla fəaliyyətini davam etdirmişdir.

***Şimali Qafqazı satanlar***

"Zülmün topu var...": misralar türk şairi Tofiq Fikrətin "Millət şərqisi" şeirindəndir.

***Tarixi bir mütaliə və tənqid***

"Söyüd": Türkiyənin Biləcik ilinin ilçəsi; Osmanlı bəyliyinin ilk paytaxtı olmuşdur.

"Domaniç": Türkiyənin Kütahya ilinin ilçəsi.

"699 sənəsində": burada tarix hicri təqvimlə göstərilmişdir; miladi təqvimlə 1299-cu ilə uyğundur.

"xətib Həmdullah Sübhi": Türkiyənin siyasi xadimi və yazıçısı Həmdullah Sübhi gözəl natiqlik qabiliyyətinə malik olduğu üçün "Milli xətib" və "Cümhuriyyət xətibi" kimi tanınmışdı.

***Bakı xəbərləri***

"Balaxanski və Maqazinni küçələrin küncündə": Bakıda, indiki Füzuli və Süleyman Rüstəm küçələrinin kəsişməsində.

"Tserkovnı": Bakıda, indiki Vidadi küçəsi.

***Azərbaycanda***

"Bugünkü bayram": qəzetdə "Bu günlü bayram" getmişdir.

"bayramımıza zəhər qatmaq istəyənlərə": qəzetdə belə getmişdir: "bayrağımıza zəhər qatmaq istəyənlərə"

***Izhari-təşəkkür***

"məşrutəxah": "konstitusiyalı hökumət" mənasına gələn "məşrutə" tərəfdarı, məşrutəçi, konstitusiya tərəfdarı.



## Gənclik



◆ Yeni tədris ili qarşısında

**Müasir təhsil sistemi inkişaf və transformasiyalar dövrünə qədəm qoymuşdur. Dəyişikliklərin baş verdiyi sahələr arasında təbabətin özülü hesab edilən insan anatomiyası xüsusi yer tutur. Bu elm ənənəvi olaraq anatomik preparatlar, atlas və mulyajlarla assosiasiya olunur. Lakin yeni rəqəmsal və interaktiv texnologiyların tətbiqi ali tibb təhsili qarşısında yeni üfüqlər açır, tədris prosesini daha effektiv edir.**



# Heydər Əliyev Fondunun hədiyyəsi

Eləcə də müasir texnologiyaların tətbiqi tələbələrin vizual olaraq materialı daha da dərindən mənimsəməsinə xidmət edir.

Müasir texnologiyaların tətbiqi insan anatomiyasının tədrisində günün tələbidir, bu yolla tibbi kadrların, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasının keyfiyyətini artırmaq, tələbə-gənclərin fundamental fənlərə marağının yüksəlməsinə nail olmaq mümkündür. Bu gün dünyada klassik, fundamental fənlər ən müasir texnologiyalarla zənginləşdirilir. Öz mövqeyi və tarixi dəyərlərə sadiqliyi ilə seçilən Azərbaycanda bu prosesin getməsi dünyanın bir çox ölkələrinə örnəkdir.

Prezident İlham Əliyevin dediyi kimi: "Ölkəmizin elmi və texnoloji potensialının gücləndirilməsi bizim başlıca prioritetlərimiz sırasındadır". Bu gün elm və təhsil innovasiyalarla birgə addımlayır, anatomiya tədrisi müasir alətlərə - interaktiv platformalara, 3-D modelləşməyə, rentgenanatomiyaya istinad etməyə başlamışdır. Təbii ki, anatomiyanın müasir dövrdə tədrisində rentgenanatomiyaya tələbat artmışdır. Anatomik strukturların rentgenoqrafiya və rentgenskopiya üsulları sayəsində əldə edilmiş şəkilləri ilə tələbələrin artıq ilk günlərdən tanışlığı, onların biliyinin daha da möhkəmləndirilməsi istiqamətində atılmış əhəmiyyətli addımdır, "canlı anatomiyanın" gələcək həkimlər tərəfindən mənimsənilməsi, orqanların normal görünüşünün bütün variasiyalarının dərk edilməsi onlara patoloji dəyişiklikləri fərqləndirmək və bununla da peşəkar fəaliyyətlərində diaqnostik səhvləri sıfıra endirmək imkanı verir. Tibbi vizualizasiya rentgen anatomiyasının mühüm aspektini təşkil edir, dərslik və atlaslardan əldə edilmiş biliklərin rəqəmsal rentgen aparatlarının köməyi ilə əldə olunmuş görüntülərlə sintezi gələcəyin həkimlərinə artıq ilk kursdan klinika abhavasına daxil olmağa, özünü həkim hiss etməyə, qoyacağı diaqnozun dəqiqliyinin məsuliyyətini anlamağa yardım edir. Tibbi təfəkkür bu üsulla formalaşır və bu formalaşmanın məhz insan anatomiyası kimi fundamental fənnin tədris edildiyi kafedrada baş verməsi olduqca mühümdür.



Keçən tədris ilinin sonunda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın Azərbaycan Tibb Universitetinə gəlişi professor və müəllimlərimiz tərəfindən məmnunluqla qarşılandı. Görüş zamanı Leyla xanım Əliyeva universitetin İnsan anatomiyası və tibbi terminologiya kafedrasında tədris prosesi ilə yaxından maraqlandı, gələcək nəsil həkimlərinin ərsəyə gəlməsi üçün yaradılmış şəraitlə tanış oldu. Kafedramızla yaşıd olan və onun nəzdindəki muzeyə böyük maraq göstərdi, unikal eksponatların tarixçəsini dinlədi. Daha sonra Tədris Mərkəzində ən müasir tələblərə cavab verən mulyajları, anatomik planşeti və süni meyit preparatını nəzərdən keçirdi, problemlərimizlə maraqlandı, tövsiyələrini verdi.

Tarixi görüşün nəticəsi olaraq kafedramızın, ümumən universitetimizin kollektivi bu günlərdə möhtəşəm hadisənin sevincini yaşadı. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın elm və tədrisə, böyüməkdə olan gənc nəslə qayğısının təcəssümü olaraq Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrası ən yeni tələblərə cavab verə bilən rəqəmsal rentgen aparatı ilə təchiz edilmişdir. Bu, əlbəttə ki, kafedrada tədris prosesini və aparılan elmi işlərin səviyyəsini yeni mərhələyə yüksəltməyə, gələcək həkimlərin daha savadlı yetişməsinə dəyərli töhfədir. Dövlətimizin artan nüfuzunun, Prezident İlham Əliyevin dünya siyasi aləmində lider mövqeyinin nəticəsidir ki, bütün sahələrdə olduğu kimi, ali məktəblərimiz elm və texnikanın ən son nailiyyətləri ilə təchiz olunur, dünyanın ən iri elm və təhsil ocaqları ilə rəqabətə girir və onları üstələyir.

Yeni tədris ili qarşısında kafedramızın müasir rəqəmsal rentgen aparatı ilə təmin edilməsinə görə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevaya və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevaya təşəkkür edirik.

*Vaqif ŞADLİNSKİ,*
*professor*

◆ Uğura imza atanlar

# Gənclərin fəallığı Azərbaycanı uğurlu gələcəyə aparır

**Dövlətimizin diqqət və qayğısı sayəsində cəmiyyətimizdə gənclərin fəaliyyəti üçün əlverişli şərait yaradılıb. Geniş imkanların açılması nəticəsində gənclərimiz aparıcı qüvvəyə çevrilib. Tarixi təcrübə göstərir ki, gənclər bütün zamanlarda cəmiyyətin yaradıcı və qurucu qüvvəsi olub. Ölkəmizdə gənclər dövlət siyasəti ilə əhatə olunub, bütün sahələrdə onlara böyük qayğı göstərilir. Buna əsaslanıb demək olar ki, Azərbaycanın gələcəyi parlaq və işıqlı olacaq.**



Müasir dövrün tələblərinə uyğun kadrların hazırlanması üçün ölkəmizin təhsil ocaqlarında geniş imkanlar yaradılıb. Ümummilli Lider Heydər Əliyev ölkəmizin savadlı, bilikli gəncliyinə böyük ümidlər bəsləyərək həmişə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Böyük rəhbərin uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti bu gün yeni mərhələdə daha da uğurla inkişaf etdirilir. "Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir", - deyən Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin bünövrəsində təbiidir ki, gənclərin ölkənin uğurlu inkişafı naminə kadr potensialının, sarsılmaz gücün yaradılması dayanır.

Qürur və iftixarla qeyd olunmalıdır ki, Azərbaycanda inkişaf etmiş demokratik ölkələrin tarixin sınağından çıxmış zəngin təcrübəsinə əsaslanmış dövlət idarəçilik sistemi yaradılıb və uğurla fəaliyyət göstərir. Dövlət idarəçiliyində peşəkar kadrların hazırlanması və önə çəkilməsi artıq ənənə halını almışdır. Ölkəmizdə savadlı, bilikli kadrların hazırlanmasına və onların mühüm sahələrdə irəli çəkilməsinə böyük önəm verilir.

Ümummilli Lider Heydər Əliyev bu mühüm sahəyə diqqət yetirərək demişdir: "Dövlət idarəçiliyində səmərəli, təşəbbüskar, xalqını düşünən kadrların idarəçiliyə cəlb edilməsi vacibdir".

Ulu Öndərin irs qoyduğu zəngin təcrübəyə əsaslanaraq, həmçinin bütün sahələrdə özünü doğrultmuş beynəlxalq təcrübəyə istinad edərək idarəçilik mədəniyyəti yüksək olan, yeniləşən dünyamızın tələblərinə cavab verən kadr bazasını yaratmaq və genişləndirmək bu gün dövlət siyasətinin tərkib hissəsini təşkil edir. Savadlı, bilikli kadrların hazırlanması və dövlət idarəçiliyinə cəlb olunması, gənclərin bacarıqlarının üzə çıxarılması üçün əlverişli şərait yaradılıb. Gənc kadrların peşəkarlığının yüksək olması ölkəmizin gələcək inkişafı üçün də vacibdir. Azərbaycanın qarşısına qoyduğu hədəflərə nail olunmasında və dövlətin uğurlu idarə edilməsində peşəkar, bacarıqlı, savadlı kadrların müstəsna rolu danılmazdır.

Dövlətimiz üçün gənc kadrların hazırlanmasında orta məktəblərin, ali təhsil ocaqlarının rolu əvəzsizdir. Burada oxuyan gənclər təhsillərində böyük uğurlar qazanırlar. İmtahanlarda yüksək nəticələr göstərərək ali məktəblərə qəbul olurlar. Ali təhsillərini başa vurduqdan sonra isə bacarıqlı kadr kimi dövlətinə, xalqına xidmət göstərirlər.

Bu günlər ali məktəblərə qəbul olan gənclər böyük sevinc hissləri yaşayırlar. Onlar təhsil almaları üçün məktəblərdə əlverişli şərait yaradıldığına görə, dövlətimizə minnətdarlıq edirlər. Yüksək bal toplayaraq arzusuna qovuşmuş Arzuman Sahil oğlu Qarayevlə söhbət edərkən ondan eşitdiklərimizdən qürur duyduq. Yenicə tələbə adını qazanmış Arzuman dedi ki, hazırda həyatının ən gözəl günlərini yaşayır: "Hələ kiçik yaşlarımdan texniki sahəyə böyük marağım var idi. Biliklərimi artırmaq üçün daim öz üzərimdə çalışırdım. Çətinliyim olanda müəllimlərimə müraciət edirdim. 26 nömrəli tam orta məktəbdə oxumağımız, yüksək səviyyədə təhsil almağımız üçün hərtərəfli şərait yaradılmışdı. Müəllimlərimiz çox tələbkar idilər. Buna görə də dərslərimizə məsuliyyətlə yanaşır, həmişə yüksək qiymət alırdıq. Nəhayət, orta məktəb illəri arxada qaldı. Azərbaycan Texniki Universitetinin İnformasiya texnologiyaları fakültəsinə qəbul olmaq üçün imtahan verdim. Sınaqlardan uğurla keçərək 433 bal topladım. İllərdən bəri ürəyimdə gəzdirdiyim arzuma çatdım. Qazandığım yüksək nəticələrlə anam Nuriyyəni, atam Sahili və uzun illər riyaziyyat fənnindən dərs demiş babam Möhlət müəllimi sevindirdim. Gənclərə təhsil almaq, oxumaq və işləmək üçün əlverişli şərait yaratdığına, diqqət və qayğı göstərdiyinə görə Prezident İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk".

Dövlətimiz gənclərimizin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, həm ölkə daxilində, həm də ölkə xaricində təhsil almaları üçün hərtərəfli şərait yaradıb. Gənc nəsil bu şəraitdən səmərəli istifadə edərək müasir biliklərə yiyələnir, texnologiyaların sirlərini dərindən mənimsəyir, layiqli vətəndaşlar kimi yetişirlər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Onlar sabaha bugünkü uğur hekayələri ilə addımlayırlar

◆ Gələcəyə dəstək

**Qalib Azərbaycanın gəncləri məqsədyönlü dövlət siyasəti sayəsində qazandıqları nailiyyətlərlə, qürur hissi ilə uğurlu gələcəklərinə doğru inamla addımlayırlar.**

Onların sırasında Bəxtiyar Həsənov da var. O, dövlətin qayğısı ilə əhatə olunmuş minlərlə Azərbaycan gəncindən biridir. Əslən laçınlı olsa da, 21 yaşınadək Laçını görməyib. Doğma yurdu haqqında təsəvvürləri yalnız valideynlərinin və yaşlı qohumlarının danışdıqlarından ibarət olub.

Bəxtiyar o gənclərdəndir ki, taleyinə xəyalında formalaşdırdığı Laçının azadlığı uğrunda döyüşmək şərəfi də yazılıbmış. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi Zəfər qazandığı Vətən müharibəsində iştirak edən Bəxtiyar göstərdiyi şücaətlərə görə dövlətimizin başçısının Sərəncamı ilə "Laçının azad olunmasına görə" medalı ilə təltif olunub. 2024-cü ildə Bəxtiyar ailəsi ilə birlikdə Laçına qayıdıb. İllərdir yurd həsrəti ilə yaşayan Həsənovlar ailəsini dövlət evlə də təmin edib.

İşğaldan azad olunan ərazilərimizə Böyük Qayıdış proqramı çərçivəsində köçürülən və köçürüləcək şəxslərin məşğulluğunun təminatı dövlətimizin diqqət mərkəzindədir. Doğma yurdlarına köçürülmüş şəxslərin aktiv məşğulluq proqramlarına cəlb edilməsi istiqamətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ardıcıl işlər aparılır. Bu sahədə həyata keçirilən proqram Laçın rayonunu da əhatə edir.

Bəxtiyarın dediklərindən: "Doğma yurdumuza qayıtdıqdan və burada məskunlaşdıqdan sonra iş məsələləri ilə maraqlanmağa başladım. Bunun üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinə müraciət etdim. Məni Laçında keçirilən əmək yarmarkasına yönləndirdilər. Burada





Laçın İstirahət Kompleksinin vakansiyaları ilə tanış oldum. Əməyin mühafizəsi üzrə mühəndis vakansiyasını özümə daha uyğun bildim. Sonradan agentliyin göndərişi əsasında kompleksə müraciət etdim. Müvafiq təlim keçdikdən sonra Laçın İstirahət Kompleksində SƏTƏM mühəndisi vəzifəsinə işə qəbul olundum".

Bəxtiyar artıq neçə aydır ki, doğma yurdunda özünün seçib bəyəndiyi iş ilə məşğuldur və çalışdığı müəssisədə əməyin mühafizəsi, normaları, qaydalarının tətbiqi işlərini yerinə yetirir.

Doğma yurdlarına qayıdan gənclərin sosial inteqrasiyasına da xüsusi diqqət yetirilir. Təhsil, mədəniyyət və idman imkanlarının yaradılması, həmçinin müxtəlif sosial layihələr vasitəsilə onların vətən torpağına daha sıx bağlanması təmin olunur.

Müşahidələr göstərir ki, azad olunmuş ərazilərdə gənclərin bacarıqlarının reallaşdırılması həm iqtisadi inkişafı sürətləndirəcək, həm də bölgədə sosial həyatın canlanmasına səbəb olacaq. Dövlətin apardığı məqsədyönlü siyasət nəticəsində gənclərin qayğıları yalnız bugünün deyil, həm də sabahın məsələsi kimi həll olunur. Hər bir gənc dövlətin dəstəyini hiss edir və bu onlara həm sabit həyat, həm də gələcək idarəetmə və xidmət, quruculuq işlərində fəal iştirak imkanı qazandırır.

Daha bir gəncimiz isə DOST xidmətləri sahəsində çalışan Zəhra Qəhrəmanovadır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası əmək, məşğulluq, sosial müdafiə və sosial təminat, əlillik, reabilitasiya və digər sahələr üzrə 161 xidmətin əhaliyə vahid platformadan, "bir pəncərə"dən, şəffaf və operativ vətəndaş məmnunluğu və rahatlığı prinsipi əsasında təqdim olunmasına imkan yaradıb. "Könüllü DOST" proqramı ölkəmizdə könüllülük hərəkatının genişlənməsində mühüm rol oynayır. "Könüllü DOST" proqramına cəlb olunanlar dövlət sosial xidmətlərinin "bir pəncərə"dən vətəndaş məmnunluğu prinsipi ilə təqdim edilməsi işlərinə öz töhfələrini verirlər.

Zəhra 1998-ci ildə Bakı şəhərində doğulub. İqtisad Universitetində İstehlak mallarının ekspertizası və marketinqi ixtisası üzrə bakalavr, Biznesin idarə edilməsi ixtisası üzrə magistr təhsili alıb. O, DOST Agentliyinin "Könüllü DOST" proqramının ilk könüllülərindən biridir.

Zəhra 2019-cu ilin aprel-may aylarındakı könüllülük fəaliyyəti dövründə vətəndaşlara göstərilən xidmətlərin keyfiyyəti, şəffaflıq və səmimiyyət prinsiplərini yaxından müşahidə edib. Bu təcrübə ona həm peşəkar bacarıqlar qazandırıb, həm də gələcək karyerası üçün istiqamət seçib.

Hazırda Zəhra DOST Agentliyinin İnsan resurslarının idarə edilməsi departamentində aparıcı mütəxəssis vəzifəsində çalışır. O, işini sadəcə vəzifə kimi deyil, bir məsuliyyət və xidmət missiyası kimi dəyərləndirir. Onun sözlərinə görə, DOST Agentliyi və DOST mərkəzlərinin əməkdaşlarının seçilməsi və işə qəbulu prosesində iştirak etmək həm qürurverici, həm də mənalıdır: "DOST Agentliyi mənim üçün məktəb oldu. Könüllü olduğum dövrdə qazandığım təcrübə bu gün köməyimə çatır. Burada çalışmaq isə mənim üçün təkcə xidmət deyil, həm də dövlətimizin inkişafına, həyata keçirilən sosial islahatlara öz töhfəmi verməkdir. DOST Agentliyinin bu gün qazandığı uğurlar, ilk növbədə, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial siyasətin və genişmiqyaslı islahatların nəticəsidir. Bu siyasət gənclərə də özlərini inkişaf etdirmək və dövlət qurumlarında peşəkar fəaliyyət qurmaq üçün yeni imkanlar yaradıb".

Zəhranın sözlərinə görə, "DOST"un uğurları ilə onun şəxsi uğurları bir-biri ilə sıx bağlıdır - çünki könüllü kimi qazandığı təcrübə, bu gün peşəkar həyatında əldə etdiyi nailiyyətlərin təməlini qoyub.

Zəhranın hekayəsi göstərir ki, könüllülük sadəcə bir mərhələ deyil, - gənclərin inkişafına, cəmiyyətə faydalı vətəndaş kimi yetişməsi üçün açılan qapıdır. DOST Agentliyi artıq çoxsaylı gəncin həyatına belə uğur hekayələri yazıb. Zəhra Qəhrəmanovanın hekayəsi isə bu uğurların ən parlaq nümunələrindən biridir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# İtkin şəhid Sumbat Əliyev Füzuli rayonunda dəfn edilib

**Avqustun 29-da Birinci Qarabağ müharibəsinin daha bir itkin şəhidi - Sumbat Nüdrət oğlu Əliyev Füzuli rayonunda dəfn olunub.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə rayonun Aşağı Kürdmahmudlu kəndində vida mərasimi keçirilib. Mərasimdə şəhidin ailə üzvləri, rayon icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Mərasimdə cənazə namazı qılınıb, şəhidlərin ruhuna dualar oxunub.

Vida mərasimindən sonra itkin şəhid hərbi orkestrin müşayiətilə kənd qəbiristanlığında torpağa tapşırılıb, dualar oxunub.



Qeyd edək ki, S.Əliyev 1966-cu ildə Füzuli rayonunun Aşağı Kürdmahmudlu kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı könüllü olaraq döyüşlərə qoşulub. 1993-cü ilin aprel ayında Füzulinin Qacar kəndi ərazisində gedən döyüşlər zamanı itkin düşüb. Torpaqlarımız işğaldan azad edildikdən sonra S.Əliyevin qalıqları Xocavənd rayonunun Zoğalbulaq kəndində aşkarlanıb.

## BEYNƏLXALQ HƏYAT

# BMT Livanda UNIFIL sülhməramlı missiyasını dayandırmaq qərarına gəlib

**BMT Təhlükəsizlik Şurası (BMT TŞ) təxminən 50 illik fəaliyyətdan sonra Livandakı sülhməramlı missiyasını (UNIFIL) dayandırmaq qərarına gəlib.**

Qərar Təhlükəsizlik Şurasının Nyu Yorkda keçirilən iclasında ABŞ və İsrailin təşəbbüsləri nəzərə alınaraq qəbul edilib. Qətnamə layihəsinə əsasən, missiya 2026-cı ilin sonuna kimi fəaliyyətini dayandıracaq.

10.800 hərbi və mülki personalın texnikası ilə birlikdə geri çəkilməsi prosesi



dərhal Livan hökuməti ilə əməkdaşlıq çərçivəsində başlayacaq və bir il ərzində başa çatdırılması planlaşdırılır. Qətnamə layihəsində, həmçinin Livan hökumətinin İsraillə "Mavi xətt" kimi tanınan şimal sərhədində "yeganə təhlükəsizlik təminatçısı" olması nəzərdə tutulur. İsrail də öz növbəsində bu xəttin şimal hissəsindən öz qüvvələrini geri çəkməlidir.

Xatırladaq ki, UNIFIL 1978-ci ildə İsrail qoşunlarının ərazini işğal etdikdən sonra Livanın cənubundan çıxarılmasına nəzarət etmək üçün yaradılmışdı. Missiyanın funksiyaları 2006-cı ildə İsrail və "Hizbullah" hərəkatı arasında bir ay davam edən müharibədən sonra genişlənmişdi.

# Ağ Ev: Tramp Rusiyanın Kiyevə son hücumlarından narazıdır



ABŞ Prezidenti Donald Tramp Rusiyanın Kiyevə son hücumlarından narazıdır. Bunu Ağ Evin mətbuat katibi Karolin Levitt brifinqdə deyib.

Levitt qeyd edib ki, Prezident Ukraynadakı prosesləri diqqətlə izləyir: "Prezident bu müharibənin bitməsini istəyir, lakin ola bilsin ki, hər iki tərəf hələ onun bitməsinə hazır deyil". Onun sözlərinə görə, ABŞ Prezidenti Kiyevə hücumla bağlı xəbəri eşidəndə məyus olsa da, təəccüblənməyib. Mətbuat katibi xatırladıb ki, Kiyevə edilən son zərbələrdən əvvəl Ukrayna da Rusiyanın neft emalı zavodlarına zərbələr endirib və onların gücünün təxminən 20 faizini sıradan çıxarıb.

Levitt vurğulayıb ki, münaqişənin sona çatması Rusiya və Ukraynanın danışıqlar masasına əyləşməsini tələb edir: "Prezident müharibənin bitməsini istəyir, lakin bunun baş verməsi üçün hər iki ölkənin lideri də onun bitməsini istəməlidir".

# Çin Aİ-nin İrana qarşı sanksiyaların bərpası planlarını tənqid edir

Çin Xarici İşlər Nazirliyinin sözçüsü Qo Cyakun bildirib ki, Pekin bir sıra Avropa ölkələrinin BMT-nin İrana qarşı sanksiyalarının yenidən tətbiqi mexanizminin işə salınması istiqamətində hərəkətlərini qeyri-konstruktiv hesab edir. Bu barədə "Global Times" məlumat yayıb.

Çin hesab edir ki, BMT Təhlükəsizlik Şurasının hazırkı mərhələdə istənilən hərəkəti vəziyyəti pisləşdirə və ya gərginləşdirə biləcək yeni qarşıdurma yaratmaqdansa, dialoqun və danışıqların bərpasına töhfə verməlidir. "Təhlükəsizlik Şurasında sanksiyaların bərpası mexanizminin işə salınması konstruktiv olmayacaq və İranın nüvə probleminin həlli ilə bağlı siyasi və diplomatik prosesə xələl gətirəcək", - deyə Qo Cyakun vurğulayıb.

Məlumat üçün bildirək ki, avqustun 28-də Aİ-3 ölkələri - Böyük Britaniya, Almaniya və Fransa BMT Təhlükəsizlik Şurasına sanksiyaların bərpası mexanizminin işə salınması üçün sorğu göndərib. Qətnaməyə əsasən, Şura 30 gün ərzində bununla bağlı qərar qəbul etməlidir.

# Tailandın baş naziri Konstitusiya Məhkəməsi tərəfindən istefaya göndərilib



Tailandın Konstitusiya Məhkəməsinin qərarı ilə Tailandın Baş naziri Phethonqthan Çinavat barəsində aparılan etik araşdırmadan sonra o, vəzifəsindən kənarlaşdırılıb. Məhkəmə iyulun 1-də yekun hökm çıxarılana qədər Şinavatranın səlahiyyətlərini dayandırmışdı.

Bu barədə Sinqapurda çıxan "The Straits Times" gündəlik ingilisdilli qəzet xəbər verir. Bildirilir ki, istintaqa iyunun 15-də Çinavat ilə Kamboca Senatının sədri Hun Sen arasında telefon danışığının sızması səbəb olub. Qəzet qeyd edir ki, söhbətdə Tailandın Baş naziri Hun Senə "əmi" deyə müraciət edərək, ondan iki ölkə arasındakı sərhəddəki münaqişəni həll etməsini xahiş edib, həmçinin Tailand ordusunun silahlı qüvvələrini tənqid edib. Sonra Çinavat bu sözlərə görə üzr istəyib və Hun Seni söhbəti sızdırmaqda günahlandırıb.

Qeyd edək ki, Tailand və Kamboca arasında ərazi münaqişəsi mayın 28-də hər iki ölkənin öz ərazisi hesab etdiyi ərazidə bir kambocalı əsgərin toqquşmada həlak olması ilə daha da şiddətlənmişdi. İyulun 24-də səhər saatlarında Tailand və Kamboca sərhədində silahlı toqquşmalar baş vermişdi. İyulun 28-də isə Malayziyanın Baş naziri Ənvər İbrahim Tailand və Kambocanın atəşkəs barədə razılığa gəldiyini açıqlamışdı. Bu addım Kuala-Lumpurda ABŞ və Çin nümayəndələrinin də iştirak etdiyi ölkələr arasında danışıqlardan sonra atılmışdır.

Avqustun 7-də Tailand və Kamboca nümayəndələri Malayziyada keçirilən görüşdə iyulun 28-də qüvvəyə minmiş atəşkəs sazişinin həyata keçirilməsi üçün 13 bənd üzrə razılığa gəlmişlər.

# İsrail Qəzzadakı iki girovun cəsədini geri qaytarıb

İsrail Müdafiə Qüvvələri (IDF) və Ümumi Təhlükəsizlik Xidməti (Şin Bet) 2023-cü il oktyabrın 7-də İsrailə hücum zamanı radikallar tərəfindən ələ keçirilən iki girovun cəsədini Qəzza zolağından geri qaytarıb. Bu barədə İsrailin Baş naziri Benyamin Netanyahunun ofisi məlumat yayıb.



Məlumatda deyilir: "İDF və Şin Bet tərəfindən Qəzza zolağında həyata keçirilən əməliyyat zamanı HƏMAS terror təşkilatı tərəfindən saxlanılan mərhum İlan Vaysın cənazəsi İsrailə qaytarılıb. Əməliyyat zamanı adı hələ açıqlanmayan daha bir girovun qalıqları da tapılıb. Hazırda Ədliyyə Müfəttişliyi İnstitutunda qalıqların şəxsiyyəti müəyyənləşdirilir".

Ofis qeyd edib ki, İlan Vays Qəzza zolağı ilə sərhəddə yerləşən Beeri Kibutsunun təhlükəsizlik qüvvələrində çalışıb. "O, 2023-cü il oktyabrın 7-də Kibutsun müdafiəsinə çıxdığı zaman öldürülüb və cəsədi qaçırılıb", - deyən idarə, Vaysın həmin gün oğurlanmış həyat yoldaşı Şiri və qızı Noqanın 2023-cü ilin noyabrında əsirlikdən azad edildiyini bildirib.

Netanyahu qeyd edib ki, girovların qaytarılması uğrunda mübarizə fasiləsiz davam edir: "Biz oğurlanmış bütün insanları - həm diri, həm də ölü - evə gətirənə qədər dincəlməyəcəyik və səssiz qalmayacağıq".

Baş nazirin açıqlamaları onun ofisi tərəfindən yayılıb. İsrail tərəfinin məlumatına görə, Qəzza zolağında radikallar 20-si sağ olmaqla 48 nəfəri girov saxlamağa davam edir.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə 2025-ci il üçün abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# III MDB Oyunlarında Azərbaycanı 340 idmançı təmsil edəcək




**III MDB Oyunlarında Azərbaycanı 23 idman növündə 340 idmançı təmsil edəcək.**

AZƏRTAC xəbər verir ki, ümumilikdə nümayəndə heyətinin sayı isə 475 nəfər olacaq. Ən çox Azərbaycan idmançısı cüdo və qılıncoynatmada - hər birində 32 nəfər olmaqla iştirak edəcək. Taekvondo və voleybol növlərində isə 28 idmançı mübarizə aparacaq.

Azərbaycanlı idmançılar həmçinin komanda idman növlərində də çıxış edəcəklər: futbol, çövkən, voleybol və 3x3 basketbol. Bundan əlavə, bədii gimnastikada ölkəmiz qrup hərəkətləri komandası ilə təmsil olunacaq.

Qeyd edək ki, Azərbaycan ev sahibi ölkə olaraq, bir sıra idman növlərində - cüdo, taekvondo, qılıncoynatma, badminton və karatedə, iki heyətlə iştirak edəcək.

III MDB Oyunları 28 sentyabr - 8 oktyabr tarixlərində Azərbaycanın 7 şəhərində - Gəncə, Qəbələ, Mingəçevir, Göygöl, Xankəndi, Yevlax və Şəkidə keçiriləcək. Oyunların açılış və bağlanış mərasimləri Gəncə şəhər stadionunda baş tutacaq.

Qılıncoynatma 32
Cüdo 32
Taekvondo 28
Voleybol 28
Güləş 27
Karate 24
Futbol 23
Boks 22
Avarçəkmə 21
Atıcılıq 16
Badminton 16
Üzgüçülük 13
Batut gimnastikası 11
Bədii gimnastika 10
Çövkən 9
Sambo 8
3x3 Basketbol 8
Oxatma 6
Stolüstü tennis 6.


# "Bakıxanov Trikotaj" ASC səhmdarlarının nəzərinə

"Səhmdar Cəmiyyəti" haqqında Azərbaycan Respublikası Qanununa müvafiq olaraq "Bakıxanov Trikotaj" ASC səhmdarlarını 9 oktyabr 2025-ci il tarixində saat 12:00-da növbəti yığıncağa dəvət edir. Yığıncaqda aşağıdakı məsələlərə baxılacaq:

1. 2024-cü il üzrə mühasibat balansı və hesabatların təsdiq edilməsi.
2. Cari məsələlər.

**Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Yavər Əliyev, 26**
**Əlaqə telefonu: (012) 425-23-22**

***"Bakıxanov Trikotaj" ASC***


# Sağlamlığı təhdid edən sindrom

## Gənə dişləməsi ət və süd məhsullarından ömürlük imtinaya səbəb ola bilər

Əgər ət, qatıq, pendir və süd istehlak etdikdən bir neçə saat sonra bədəniniz qaşınmağa, şişməyə və ya qəfil ağrımağa başlayırsa, bu, ilk ağlagələn ehtimal - qida zəhərlənməsi deyil, alfa-qal (Alpha-gal) sindromudur. Gənə dişləməsi nəticəsində yaranan sindrom ət və süd məhsullarına qəfil allergik reaksiyalara səbəb olan təhlükəli xəstəlikdir. Alfa-qal sindromu, adətən "Lone Star" və "İflic" gənələrinin dişləməsi ilə ötürülür.

Alfa-qal sindromu adını "qalaktoza-alfa - 1,3-qalaktoza" adlı şəkər molekulundan alır. Bu molekul inək, donuz, dovşan və maral kimi məməlilərdə olur və insan orqanizmi tərəfindən istehsal edilmir. Sözügedən şəkər molekulunu ehtiva edən gənə tüpürcəyi qana daxil olduqda immunitet sistemi onu təhlükə kimi tanıyır və anticism istehsal etməyə başlayır. Ət, süd, pendir və qatıq kimi alfa-qal ehtiva edən qidalar qəbul edildikdə, immunitet sistemi səhvən bu molekula allergik reaksiya verir. Xəstəlik immunitet sistemində yaratdığı həddindən artıq reaksiya səbəbindən həm gündəlik həyatı, həm də qidalanma vərdişlərini tamamilə dəyişdirir.



Sindromun ən təhlükəli tərəfi isə müalicəsinin olmamasıdır. Xəstələr ömür boyu ət və süd məhsullarından uzaq durmağa məcbur olurlar.

Xəstəliyin simptomları özünü gənə dişləməsindən həftələr və ya hətta aylar sonra da göstərə bilər. Adətən ət və süd məhsulları istehlak edildikdən 2-6 saat sonra ortaya çıxan simptomlar qaşınma, ürəkbulanma, qusma, şiddətli qarın ağrısı, nəfəs darlığı və anafilaktik şok kimi həyati təhlükəsi olan vəziyyətlərə keçə bilər. Mütəxəssislər vurğulayırlar ki, bu simptomlar digər xəstəliklərlə qarışdırılaraq, çox vaxt diaqnozun gecikməsinə səbəb olur. Alfa-qal sindromunun diaqnozu üçün qan testi tələb olunur. Bu test həm də immunitet sisteminin alfa-qala qarşı antikor istehsal edib-etmədiyini göstərir.

Sözügedən sindrom ilk dəfə ABŞ-nin cənub-şərqində müşahidə olunsa da, iqlim dəyişikliyi və gənə populyasiyasının artması səbəbindən sürətlə digər ölkələrə də yayılır. ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzinin (CDC) məlumatına əsasən, təkcə 2023-cü ildə 450 mindən çox amerikalının bu sindromdan təsirləndiyi bildirilir. Sindrom 6 qitədə qeydə alınan hallarla qlobal sağlamlıq probleminə çevrilib. Artan maral populyasiyaları, insanların təbiətlə təmaslarının çoxalması və dəyişən iqlim şəraiti gənə populyasiyasını artırır və riski daha geniş ərazilərə yayır. Tibb işçilərinin əksəriyyətinin bu sindromdan xəbərsiz olması isə vəziyyəti daha da qəlizləşdirir. Bu, diaqnozun gec qoyulmasına və xəstələrin uzun müddət lazımi müalicə ala bilməməsinə gətirib çıxarır.

Xüsusilə yay aylarında gənələrin sayı artdığı üçün mütəxəssislər açıq havada daha diqqətli olmağı, bəzi ərazilərdə uzunqol paltar geyinməyi, gənəqovucu vasitələrdən istifadə etməyi, hər hansı bir gənə ilə təmasdan sonra tibbi müayinədən keçməyi tövsiyə edirlər.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3993
Sifariş 1766

Qiyməti 60 qəpik